**Bu bir xalq qəzetidi** www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *Gündəlik hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 122 (5782) 5 sentyabr 2020-ci il | Qiyməti 30 qəpik

# Prezident və Birinci xanım açılışlar etdi



Bax:səh-2

## XARİCİLƏRİN İŞLƏR NAZİRLİYİ





**Elmar Məmmədyarovun rəhbərlik etdiyi xarici siyasət idarəmizdə baş verən korrupsiya halları, bəzi səfirliklərimizin və konsulluqlarımızın dövlətçilik əleyhinə törətdikləri əməlləri biləndə və görəndə belə çıxır ki, xarici siyasət idarəmiz, Azərbaycanın Xarici İşlər Naziriliyi Xaricilərin Azərbaycandakı İşlər Nazirliyi imiş.**

Ulu Öndər Heydər Əliyev 2000-ci ildə Respublika Prokurorluğu ilə bağlı keçirdiyi müşavirədə belə bir fikir söyləmişdi: "Açın Respublika Prokurorluğunun pəncərələrini havası dəyişsin".

İndi yeni nazir Ceyhun Bayramovun üzərinə çox ağır bir yük düşür. Gərək o, Xarici İşlər Nazirliyinin bütün pəncərələrini açsın ki, bəlkə havasını dəyişə bilsin!

Dünən birini açdı və müavinlərdən biri Nadir Hüseynov həmin pəncərədən çıxarıldı.

## HİKMƏT BABAYEV TAKSİYƏ MİNƏSİ OLMADI

**Taksilərlə bağlı qalmaqallı çıxışı ilə gündəmə gəlmiş Hikmət Babayev töhmətlə canını qurtara bilməyib.**

**Son dəqiqədə məlum oldu ki, Bakı Nəqliyyat Agentliyi onu işdən çıxarıb.**

**İndi hamı kimi maska tax, min avtobusa.**

## *ELMAN NƏSİROVA LAĞ EDİRDİNİZ, BUYURUN*





**Millət vəkili Elman Nəsirov televiziyadakı çıxışlarının birində təxminən belə bir fikir işlətdi ki: "İndi ermənilər qorxularından səngərlərdə əyilə-əyilə gedirlər". Elman Nəsirovun bu ifadəsi bu gün də sosial şəbəkələrdə lağ yeri olub və məzələnirlər.**

Dünən saytlarda bir şəkil gördüm, o qədər güldüm ki! Deməli, Paşinyanın arvadı əsgər paltarında, əlində avtomat Qarabağda əyilə-əyilə yüyürür. Şəkli çap edirəm, siz də baxın və gülün. Kimə güləcəksinizi o sizin işinizdi!

## KOMANDAMIZ İRAN KUBOKUNU ALDI



**Sevimli komandamız Təbrizin "Traktor" klubu Tehranın "İstiqlal" komandasına qalib gələrək İran kubokunu qazandı. Ürəkdən təbrik edirik və qardaşlarımıza Qitələrarası kuboku almağı arzulayırıq.**

### *Oxucuların nəzərinə!*

***Pandemiya ilə əlaqədar sərt karantin rejimi uzadıldığına görə qəzetimiz bu ay həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq.***

***Buna görə oxucularımızdan üzr istəyirik.***

### *132 nəfərdə koronavirus aşkarlanıb, 155 nəfər sağalıb*

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 132 yeni yoluxma faktı qeydə alınıb, 155 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

***Nazirlər Kabineti yanında Operativ Qərargahdan Adalet.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.***

***İndiyədək ölkədə ümumilikdə 37 031 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 34 419 nəfər müalicə olunaraq sağalıb, 543 nəfər vəfat edib, aktiv xəstə sayı 2 069 nəfərdir.***

***Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 048, ötən müddət ərzində isə ümumilikdə 949 313 test aparılıb.***

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## GÖYDƏ ALLAH, YERDƏ MÖHTƏRƏM PREZİDENT QAPINI AÇSIN



**Tofiq Yaqublunu geniş təqdim etməyə ehtiyac yoxdur. Həm bir Qarabağ qazisi kimi, həm də bir siyasətçi kimi ölkədə ən çox tanınan şəxslərdən biridir.**

**Xırda bir avtoqəza nəticəsində baş verən bir anlaşılmazlığa və Yaxadartmaya görə, 5 aydı həbsdə yatırdı. Heç ağır cinayət hadisələrinin istintaqı 5 ay çəkmir. Amma nədənsə Yaqublunun istintaqı bu qədər uzandı. Nəticədə məhkəmədə hakim (hakimin adını o qədər yazıblar ki, mənim təkrar eləməyimə ehtiyac yoxdu) Tofiq Yaqubluya hökm oxudu: cəzasını ciddi rejimli həbsxanada çəkməklə 4 il 3 ay. İkinci Dünya Müharibəsi 4 il çəkmişdi, Yaqublunun cəzası 3 ay artıq oldu.**

**(Ardı 2-ci səhifədə)**

## *GÜNÜN LƏTİFƏSİ*





Vəli Xramçaylı Hidayət Elvüsala:

**- Qağa, araq içməyi tərgidəjəm.**

Hidayət müəllim:

**- Təgidə bilməssən Vəli.**

Vəli:

- Gəl mərc gələk, tərgidim.

Hidayət müəllim:

**- Nədən mərc gələk?**

Vəli:

**- Bir dənə araqdan**

# Prezident və Birinci xanım açılışlar etdi



**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Bakının Yasamal rayonundakı 3 saylı tədris korpusu yenidən inşa olunaraq istifadəyə verilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Murtuza Muxtarov küçəsində yerləşən yeni tədris korpusunun açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım tədris korpusunda yaradılan şəraitlə tanış oldular.

Təhsil naziri Emin Əmrullayev və UNEC-in rektoru Ədalət Muradov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər barədə məlumat verdilər.

Bildirildi ki, tikintisinə 2018-ci ildən başlanılan və müasir standartlara cavab verən yeni tədris korpusu köhnə binanın fasadı saxlanılmaqla inşa edilib. Müasir kampus standartlarına cavab verən, modern memarlıq elementləri ilə zəngin olan, 4 binadan ibarət yeni tədris korpusunda texniki və texnoloji ixtisaslar üzrə 3 min tələbə təhsil ala biləcək. Binada 30 auditoriya, 6 mühazirə, 6 linqafon otağı, ən müasir texnoloji avadanlıqla təchiz olunan 14 laboratoriya, geniş idman zalı, ikimərtəbəli kitabxana, böyük və kiçik konfrans zalları var. Burada təlim-tədrisi yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıb.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva sentyabrın 4-də ADA Universitetinin iki yeni korpusunun açılışında iştirak ediblər.**

Dövlətimizin başçısı və Birinci vitse-prezident universitetin kampusunda yerləşən parkda yaradılan şəraitlə də tanış olublar.

ADA Universitetinin rektoru Hafiz Paşayev Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya yeni korpuslarda yaradılan şərait barədə məlumat verib. Bildirib ki, yeni korpusların inşası 2016-2019-cu illər ərzində aparılıb. Yeni korpuslarda təlim-tədrisin ən müasir səviyyədə aparılması üçün bütün imkanlar var. Burada 535 nəfərlik akt zalı, sinif və qrup otaqları, kitabxana, laboratoriyalar müəllim və tələbələrin ixtiyarına veriləcək. Sinif otaqları tərcümə sistemi, smart lövhə və digər zəruri tədris avadanlığı ilə təchiz olunub.

Yeni istifadəyə verilən korpusların birində ADA Universitetinin Dövlət və ictimai münasibətlər, Biznes-iqtisadiyyat fakültələri yerləşir. Burada 1500-ə yaxın tələbə, o cümlədən 45 ölkə vətəndaşı təhsil alır. İndiyədək ADA Universitetində 2000 diplomat və dövlət qulluqçusu təlim keçib.

Yeni inşa olunan digər korpusda isə ADA Universitetinin 2019-cu ildə fəaliyyətə başlayan kollec tipli ADA Məktəbi yerləşir. ADA Məktəbində 500-ə yaxın X və XI sinif şagirdi Azərbaycan və ingilis dillərində təhsil alır.

Dövlətimizin başçısı və Birinci vitse-prezident ADA Universitetinin kampusunda yerləşən parkda yaradılan şəraitlə də tanış olublar. Ümumi ərazisi dörd hektardan artıq olan parkın əsas hissəsi yaşıllıq zonasıdır. Orijinal üslubda yaradılan bu istirahət məkanında təbii ekoloji mühit maksimum qorunub. Burada göllər də yaradılıb.

ADA Universitetinin rektoru Hafiz Paşayev Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya bu ali təhsil müəssisəsinin gələcək iş planı barədə məlumat verib.

# AQİL ABBAS AĞDAMLILARA MÜRACİƏT ETDİ



**Əziz ağdamlılar! İndicə Aysel Əlizadə adlı bir xanım yazıçının bir statusu ilə rastlaşdım. Statusu həm saytımızda paylaşdım, həm də 5 sentyabr qəzetimizdə oxuya bilərsiniz.**

Bəybala Quliyev adlı 4 uşaq atası, Qarabağ qazisinin vəziyyəti çox ağırdı, ölümlə çarpışır. Həkimlərin rəyinə görə, bir aya qədər əməliyyat olunmasa öləcək. Əməliyyat üçün 115 min manat pul lazımdı və müalicəsi də Türkiyədədi. İlik xərçəngidi, doğma qardaşı da donordu.

Niyə sizə müraciət elədim? O, Ağdam uğrunda gedən döyüşlərdə qeyrətlə vuruşub. Ağdamda döyüşərək şəhid olan və ya qazi olan hər bir kəs ağdamlıdı.

Biz bu qardaşımızı xilas edə bilərik. Saytımızda onun telefon nömrəsi də var və "Kapitalbank"dakı hesab nömrəsi də.

Mən sizin vəziyyətinizi, maddi imkanlarınızı, hansı çətinlikdə yaşadığınızı bəlkə də hamıdan yaxşı bilirəm. Amma onu da bilirəm ki, bizim camaat heç vaxt heç kimi darda qoymayıb.

**Eləcə də bütün qarabağlı dostlarımdan xahiş edirəm, Bəybala Quliyevin övladlarını atasız qoymayaq!**

**Hörmətlə:**
**Aqil ABBAS**

# *Operativ Qərargah: Azərbaycanda karantin rejimi yumşaldılır*



**Azərbaycan Respublikasında xüsusi karantin rejiminin tətbiqi ilə əlaqədar həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində və vətəndaşların məsuliyyətli davranışı sayəsində koronavirus (COVİD -19) infeksiyasının yayılması məhdudlaşdırılmış, yoluxma hallarının sayında azalmaya nail olunmuşdur.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Adalet.az-a bildirilib ki, avqustun 5-dən başlayaraq sərt karantin rejiminin mövcud olduğu şəhər və rayonlarda, eləcə də ölkə üzrə bəzi məhdudiyyətlər aradan qaldırılmış və yumşalmalar təmin edilmişdir.

Sanitar-epidemioloji vəziyyətə uyğun olaraq 2020-ci il sentyabrın 8-i saat 00:00-dan aşağıdakı sahələr üzrə əlavə yumşalma tədbirlərinin həyata keçirilməsi qərara alınmışdır:

- Müvafiq karantin qaydalarına riayət olunmaqla və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə" 2020-ci il 6 iyul tarixli 237 nömrəli qərarına uyğun olaraq saat 00:00-a qədər ictimai iaşə obyektlərinin daxilində xidmət göstərilməsinə icazə verilir;
- Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna gediş-gəlişlə əlaqədar tətbiq olunmuş məhdudiyyətlər aradan qaldırılır (şəhərlərarası və rayonlararası sərnişindaşıma istisna olmaqla).

Mövcud sanitar-epidemioloji vəziyyətdən irəli gələrək və virusa yeni yoluxma hallarına yol verməmək üçün bir daha hamını tətbiq olunmuş karantin rejiminin tələblərinə, tibbi-profilaktik qaydalara əməl etməyə çağırırıq.

*Aqil ABBAS*

# GÖYDƏ ALLAH, YERDƏ MÖHTƏRƏM PREZİDENT QAPINI AÇSIN

(əvvəli 1-ci səhifədə)

**Ölkədə möhtərəm prezident İlham Əliyev qətiyyətlə bütün sahələrdə islahatlar aparır. Görünür, bu islahatlar hələ məhkəmə hüquq sisteminə gəlib çatmayıb.**



**Və istintaq, eləcə də məhkəmə demək olar ki, heç kimi inandıra bilmədi ki, Tofiq Yaqublu belə bir xuliqanlıq edib və s. və ilaxır. Yəni qərəz açıq-aydın göründü.**

**Axı belə bir vaxtda bir Qarabağ qazisini (heç Qarabağ qazisi olmasın), bir ictimai-siyasi xadimi (heç ictimai-siyasi xadim də deyil, adi sıravi vətəndaşdı) bu qədər sərt cəzalandırmaq, beynəlxalq aləmdə ölkəmizin nüfuzuna kölgə salmaq kimə və nəyə sərf edir?! Ən azı iqtidara sərf etmir!**

**Mən inanıram ki, möhtərəm prezident İlham Əliyev həmişəki kimi öz humanistliyini göstərəcək və bu məsələdə ədalətli mövqe tutacaq. Lap günahı olsa da, arzulayıram ki, hörmətli dövlət başçımız Tofiq Yaqublunu əfv etsin.**

**Necə deyərlər, göydə Allah, yerdə möhtərəm Prezident Tofiq Yaqublunun qapısını açsın!**

# SƏN TAKSİYƏ MİNƏCƏKDİN, NOLDU, NOLDU, HİKMƏT BABAYEV?



**Bakı Nəqliyyat Agentliyinin hüquq şöbəsinin müdiri Hikmət Babayev çıxdı televizyona, dağı Arana daşıdı, Aranı dağa daşıdı və taksilər haqqında elə məsələlər qaldırdı ki, aləm dəydi bir-birinə. Elə bil ki, bu yüksək vəzifəli dövlət məmurları bütün günü oturub fikirləşirlər ki, nə edək ki, xalqı iqtidardan incik salaq. Elə bil deyil ey, əslində elədi.**

İndi də Bakı Nəqliyyat Agentliyi açıqlama verib ki, bu bizim fikrimiz deyil, Hikmət Babayevin şəxsi fikridi, yəni uşaq üzü əlləyirlər.

Azərbaycanda elə bir təşkilat varmı ki, orda hansısa bir şöbə müdiri və ya idarə rəisi sədrindən və ya nazirindən xəbərsiz hansısa ciddi bir məsələyə şəxsi münasibət bildirsin və buna görə də adi töhmət alsın? Hikmət Babayevin çıxışı düşünülmüş bir çıxış idi, ictimai rəyi öyrənmək məqsədi daşıyırdı və gördülər ki, ictimaiyyət çox sərt mövqe göstərdi.

Amma bu xəmir hələ su aparacaq.

## *OPEK-in toplantısı təxirə salındı*

**OPEK təşkilatın 60 illik yubileyi ilə bağlı nəzərdə tutulan toplantını koronovirus pandemiyasına görə təxirə salmaq qərarına gəlib.**

Yubiley toplantısının 1960-cı ilin sentyabrında OPEK-in yarandığı Bağdadda keçirilməsi planlaşdırılırdı.

"Tədbirə ev sahibliyi edə bilməyəcəyimiz üçün çox məyusam", - İraqın neft naziri Ehsan Əbdül Cabbar bildirib.

**MEHRİBAN**

# "O adam xalqı iqtidara qarşı qaldırır"

## Aqil Abbasla taksi söhbəti

**Deputat: "Sovet vaxtı taksiyə minmək varlılıq sayılmırdı, cəmi bir manat idi, tələbə ayda 10 dəfə taksiyə minə bilərdi"**

**Bakı Nəqliyyat Agentliyinin (BNA) şöbə müdiri Hikmət Babayev ortaya elə bir "bomba" atıb ki, nə qurum bu sözün altından çıxa bilir, nə sosial media susur. BNA nümayəndəsinin taksi xidmətində vahid tarifin tətbiq olunması konsepsiyası haqda söylədiyi absurd fikirlər təbii olaraq cəmiyyəti ayağa qaldırıb. Üç gündür ki, sosial şəbəkələr H.Babayevi tənqid edir. Məhz bu sitatlarına görə: "Taksi xidmətlərinin qiymətləri, demək olar avtobus qiymətlərinə bərabər olub, taksi xidmətlərindən əvvəllər olduğu kimi imkanlı insanlar istifadə etməlidir".**

Hərçənd H.Babayev yaxşı xatırlayar ki, taksi ilə bağlı yanaşma sovet dövründən qalmadır. O zaman doğurdan da hər adam taksiyə minməzdi. Birincisi ona görə ki, taksi indiki kimi çox deyildi. Bəzən taksiyə minmək üçün xeyli gözləmək lazım gəlirdi. İkincisi, çox taksilərdə taksometr vardı, yol haqqı 1 manatdan başlayar, şəhərin o başına 5-6 sovet rublu getmək olardı, yəni "varlılar minirdi" deyə bir şey yox idi.

Tələbələr rayondan yeni tədris ilinə yüklə gələndə taksilər adətən qiyməti qaldırardı. Qalan vaxtı kasıb zümrə sayılan, məsələn, tələbə, müəllim niyə taksiyə minməli idi ki?! Çünki bir istiqamətə metro da, avtobus da, üstəlik, bəzi hallarda tramvay və trolleybus da işləyirdi. Bakıda əhali də belə çox deyildi. İndi adam çoxdur, taksi ondan da çoxdur, hətta indi 60-70 min dəyəri olan maşınların onlayn taksi şirkətləri ilə əməkdaşlıq etdiyini görmək olur. Yeni məsələ kasıb-varlı söhbəti deyil. Problemin kökü düzgün idarəetmənin olmaması, taksi firmaları ilə işin düzgün qurulmamasıdır.

Bu mövzuda söhbətləşdiyimiz yazıçı-deputat Aqil Abbas son günlər gedən müzakirələrə kəskin və konkret mövqeyini açıqladı. Onun "Yeni Müsavat"a bildirdiyinə görə, sovet vaxt hamı taksidən istifadə edə bilirdi: *"Mən bu açıqlamanın mənasını anlaya bilmirəm, necə yəni əvvəllər olduğu kimi imkanlı adamlar taksidən istifadə etməlidir? Sovet dövründə tələbə də, fəhlə də taksiyə minirdi. O vaxt baha da deyildi, 60 qəpik idi, çox adam sürücüyə 1 manat verib düşürdü. Son illərdə bizdə taksi bahalaşmışdı. Amma elə ki, rəqabət yarandı, müxtəlif şirkətlər fəaliyyətə*



*başladı, taksi xidmətində qiymətlər endi. Ona görə axır illər hamı üçün sərfəlidir, insanlar ucuz qiymətə mənzilbaşına gedib çıxırlar. Çünki avtobusa bir saata getdiyin yolu taksi ilə 15 dəqiqəyə çatırsan. Bunun varlı-kasıbla nə əlaqəsi? Ümumiyyətlə, sovetin dönəmində varlı-kasıb yox idi, demək olar ki, hamı bərabər səviyyədə yaşayırdı. Ona görə taksiyə minmək varlılıq əlaməti sayılmırdı. Cəmi bir manat idi. Tələbə ayda 10 dəfə taksiyə minə bilərdi. Ümumiyyətlə, 1987-ci ilə - maşınım olana qədər taksiyə minmişəm. Nadir hallarda avtobusa minmişəm. Həmişə taksi ilə gedirdim. Çünki basabasdan xoşum gəlmirdi. Bu, heç də Aqil Abbasın varlı olması demək deyildi".*

A.Abbasın fikrincə, BNA-nın taksidə vahid tarif sistemini tətbiq planı inhisarçılığa xidmət edir: *"Görünür, taksi sahəsində ucuzlaşma sərf etmir, istəyirlər ki, monopoliya yaratsınlar, qiymətləri də qaldırsınlar. Dünyada görünməmiş hadisədir. Həmin açıqlamanı verən adam bu qurumda nə işləyir, nə ilə məşğuldur, nə danışır, bilmək olmur. O, dediyi sözləri əsaslandırmalıdır. Necə yəni, imkanlı taksiyə minməli, mən piyada getməliyəm? Bu nə yanaşmadır? Ümumiyyətlə, həmin adam işdən çıxarılmalıdır. Çünki xalqı iqtidara qarşı qaldırır".*

Deputatın sözlərinə görə, Azərbaycanda Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi var: *"Bu qurum monopoliyaya qarşı mübarizə aparır. Bu gün 10 min adam taksidən dolanır. Onlar da 10-16 saat işləyir. Taksi sürücüləri qazandığı pulla villa ala, adada dincələ bilməz, ancaq çörək puluna işləyir. Deyir ki, işə əli çatmır, gedib kreditlə maşın götürüb taksi işləyir. Bu nə açıqlamadır? Əgər zavod, fabrik yoxdursa neyləsin? Oğurluq etmir, adam qabağı kəsmir, halal zəhməti ilə ailəsinə çörək pulu qazanır. Adam kreditə maşın götürür, sonra ödəyə-ödəyə zülmlə pul qazanır".*

A.Abbas vahid tarifin əleyhinədir: *"Taksidə vahid qiymət olar? Taksiyə sayğac qoyula bilər. Əhali buna görə pulunu ödəyər. Tutaq ki, gediş haqqı 3 manat 20 qəpik edir. Sürücü səndən 10 qəpik də artıq istəmir axı...Məsələn Türkiyədə sayğac sistemidir. Şirkətlər maşını özü verir. Bizdə də sayğac sistemi yaradıla bilər".*

Deputat təklif edir ki, əgər xarici taksi firmaları yerli bazarda hegemonluq edirsə, qiymətlərə diktə etməyi bacarırsa, o zaman daxildə sahibkarlara şərait yaradılmalıdır, şirkət açılmasına imkan verilməlidir: *"Axı imkan vermirsiniz. Hansısa Məmməd dovğa istehsal edir, hökumətdən bir qəpik istəmir. Şəhəri gəlib deyirlər ki, 20-30 min ver, istehsal üçün lisenziya al. Ona görə imkan yarat, qoy yerli taksi şirkətləri açılsın".*

**"Yeni Müsavat"**

---

# ADY-nin 2030-cu ilə qədər strategiyasına dair növbəti müzakirələr aparılıb

**"Azərbaycan Dəmir Yolları" (ADY) QSC-nin "2030 Koporativ Strategiya"sının hazırlanması məqsədi ilə 21 may 2020-ci il tarixində dünyanın aparıcı şirkətlərindən olan "McKinsey&Company" ilə müqavilə imzalanıb, bu istiqamətdə layihənin icrası davam etdirilir.**



QSC-dən Adalet.az-a bildirilib ki, sentyabrın 2-də Cəmiyyətin İdarə Heyəti və həmin şirkətin nümayəndələrinin iştirakı ilə növbəti videokonfrans təşkil olunub. Videokonfrans zamanı "McKinsey&Company" şirkətinin nümayəndələri tərəfindən layihənin gedişatı barədə ətraflı məlumat təqdim edilib və ADY-nin strateji məqsədləri və digər məsələlər müzakirə olunub.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov ölkədə və regionda baş verən son siyasi və iqtisadi yeniliklərdən söhbət açaraq onların ADY-nin fəaliyyətinə mümkün təsirlərini qeyd edib. Sədr dəmir yoluna cəlb olunan investisiyaların məqsədyönlü və səmərəli olması, əməliyyat xərclərinin optimallaşdırılması və xüsusilə tranzit dəhlizlərdə gəlirliliyin artırılmasının strateji önəmini vurğulayıb.

Həmçinin, dünyanın bir çox ölkələrində olduğu kimi, dəmir yolunun sərnişindaşıma sahəsində sosial məsuliyyətinin uğurla davam etdirilməsinin və infrastruktur xidmətlərinin lazımi səviyyədə saxlanılması üçün bu sahələrə investisiya yatırılmasının vacibliyini qeyd edib.

**Daha sonra, McKinsey&Company şirkətinin dəmir yolu sektoru üzrə beynəlxalq ekspertləri tərəfindən "ADY" QSC-nin İdarə Heyətinə dünyanın ən uğurlu dəmir yollarının təcrübələrindən nümunələr təqdim olunub və ADY-nin strateji məqsədlərinin hansı istiqamətlərdə formalaşdırılmasına dair məsləhətlər verilib.**

---

Vüsalə Məmmədova

# Qulaqlara qurğuşun, qəfil yıxılıb ölsəm...



**Yas adətlərində anlam görmürəm. Mollasından ehsanına qədər hamısına qarşıyam. Amma bu dəfn mərasimi ki, var, qaçılmazdır.**

**Leninqrad blokadasında ölənləri evdə saxlayırdılar ki, onların da adına 125 qram çörək ala bilsinlər, hələ kannibalizmdən danışmıram. Şükr, biz aclıq çəkmirik.**

**Marketlər ərzaqla da, insanla da doludur. Ümumiyyətlə, hər yer insanla doludur.**

**Kimsənin üzərindən bəd misal çəkməyib, özümü deyirəm. Cənnət xala demiş, "düşəm öləm", necə olacaq? Kremasiyanı dəstəkləyirəm, amma bilirəm ki, evdəkilər vəsiyyətimə əməl edən deyil. "Nəşimi elmə bağışlayıram" heç deməli deyil! Məlum, bu saat elm adamlarının başı qarışıqdır. Hardasa bir çala qazıb məni orada basdırmaq lazımdır, ya yox? Amma necə?**

**Bizdə Operativ Qərargahın dəfndə iştirakına icazə verdiyi şəxslərin hamısı qadındır. Bu cənazəni məzara qədər daşımaq üçün bibi oğluna, xala oğluna, dosta-qonşuya ehtiyac var axı...**

**Dəfndən sonra qohumların cərimələnərək divar dibinə düzülüb şəkillərinin çəkildiyini düşünəndə adam xəcalətdən həyatdan dörd əlli yapışmaq istəyir.**

**İnsaf, bəylər, insaf!**

**Haqsız ola bilərəm. Siz ədalətli olub bu mənzərəni təsəvvür edin... Necə görünür?**

**Deyirsiniz muzeyə gedək, yaxşı, gedərik. Amma lütfən, siz də dəfn mərasimləri ilə bağlı qaydaları yumşaldın...**

**Ehsanı qadağan edin. Amma icazə verin qohum-əqrəba yığılıb yaxınını dəfn eləsin... Heç bir sadə vətəndaşın dəfnində insanlar avtobusdakı qədər nəfəs-nəfəsə dayanmırlar axı...**

---

Əzizə İsmayılova

# Niyə belə olmalıdır axı?...



*Anlayıram e, bir şeyi çox yazanda şiti-şoru çıxır amma bunu da deməsəm olmaz.*

*Deməli, dünən BNA boyda qurumun hüquq şöbəsinin rəhbəri TV-yə çıxır və heç bir məntiqə sığmayan fikirləri ilə aləmi vurur bir-birinə.*

*Bu gün əvvəlcə məlum olur ki, BNA rəhbəri korona tutub, sonra məlum olur ki, okkazıma, o boyda hüquq şöbəsinin rəhbəri qurumun mövqeyini əks etdirməyən şəxsi mülahizəsini yürüdübmüş yarım saatlıq efirdə... Yəni, təsəvvürünüzdə canlandıra bilirsiniz ki, Azərbaycanda hər hansı bir qurumun rəsmi nümayəndəsi efirə gedir və qurumun mövqeyini sərgiləməyən fikirlər səsləndirir? Qadam, biz burda yaşamırıq?*

*Təəssürat belədir ki, daxili iclaslarda eynən bu fikirlər daha üst adamlar tərəfindən səslənib və Hikmət bəy də hesab edib ki, ən doğru ifadə tərzi elə belədir.*

*İkinci bir tərəfdən öz mövqeyi ya qurumun mövqeyi, day olan olub da. Olmazdı ki, çıxıb deyəydiniz ki, "ay hörmətsiz vətəndaşlar, sizin haqlı qəzəbinizi anlayışla qarşılayır və əməkdaşımızın fikirlərini doğru ifadə etmədiyi üçün üzülürük?*

*Üzr istəmək, onu cəzalandırmaq, işdən çıxartmaq filan lazım deyil e, səhvsiz qul olmaz. Amma səhvi etiraf etməkdənsə, çıxıb "fikirləri şəxsi mövqeyini əks etdirir" demək nəyi xeyrinizə dəyişdi?*

*Kim göstərir sizə belə dalana dirənən çıxış yolunu? Siz bu xalqın kütlənin dilindən heçmi anlamırsınız?*

*Niyə belə olmalıdır axı?...*

**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

№ 100 (2134) 5 sentyabr 2020-ci il

# TİKDİM Kİ, İZİM QALA...

## Zaqatalanın tarixi abidələri necə qorunur, necə araşdırılır?

**Zaqatala rayonu Azərbaycan Respublikasının şimal-qərbində Böyük Qafqaz sıra dağlarının cənub yamacları Qanıx - Əyriçay vadisində yerləşir. Cənubdan Gürcüstan Respublikası ilə, şimaldan Dağıstan Respublikası, qərbdən və şərqdən Azərbaycan Respublikasının Balakən və Qax rayonları ilə həmsərhəddir. Mərkəzi Zaqatala şəhəridir.**

Şəhər dəniz səviyyəsindən 535 metr hündürlükdə Azərbaycan Respublikasının paytaxtı olan Bakı şəhərindən 445 km aralıda, Tala çayının sahilində, Yevlax-Balakən şosse yolunun üzərində, nəhəng ipək yolunun üstündə, vaxtı ilə Şərqin ən böyük ticarət mərkəzlərindən (bazarlarından) olan "Əskibazar"ın (yer adı tamamilə öyrənilməmişdir) 25-30 km-də Böyük Qafqaz silsiləsinin cənub ətəyində yerləşir. Zaqatala inzibati rayonu 1830 -cu ildə təşkil edilmişdir. Zaqatala rayonunun ümumi sahəsi 1348 km-dir və əhalisinin sayı 130 (bir yüz otuz min) nəfərdir. Ərazisi dağlıq və aran hissədən ibarətdir. Rayonun ərazisindən 7 çay axır: Qanıx çay (Alazan), Tala çay, Katex çay, Muxax çay, Bəkməz çay və s. Zaqatala 1840 -cı ildən şəhər adlandırılmışdır. 1803 -cü ildə Zaqatala qəzası Rusiyanın tərkibinə daxil olmuşdur. Zaqatala sözünün yaranmasına dair (etimologiyaya görə) bir neçə rəvayət vardır. Müasir Zaqatala adı Sakatala (Sak düzü) adının dəyişilmiş formasını təşkil edir. E.ə. VII (7-ci) əsrin əvvəlində Kimmer-Skit tayfaları ilə Ön Asiyaya düşmüş sak tayfaları Albaniyanın ərazisində də məskən salmışlar və bu ərazi Kür çayının sağ sahilində (Kür-Araz qovşağı daxil olmaqla) Qafqazın dağ ətəklərinə qədərki ərazini tuturdu. Zaqatala rayonu da Qafqaz Albaniyasının ayrılmaz hissəsi olmaqla onun qərbində yerləşir.

Rayonun ərazisində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001 -ci il tarixli 132 saylı qərarına əsasən Dövlət tərəfindən qorunan 100 -ə yaxın abidə qeydə alınmışdır. Bunlardan ən qədimi Pəri qala, Armatay qalası, Çingöz qala, Şeytan qalası, Zaqatala qalası və başqalarıdır. Rayonun kənd yerlərində VI-VIII əsrlərdən qalmış 10 -dan çox Alban abidələri mövcuddur.

***Rayonun Mamrux (Mamrux kilsəsi), Mazıx, Muxax, Qəbizdərə, Yuxarı Tala (Yuxarı Tala məbədi) və Yuxarı Çardaxlar kəndlərində VI-VIII əsrlərdən qalmış çoxlu Alban abidələri, qalaları vardır ki, qorunması sahəsində müəyyən işlər görülür. Yerlərdə mövcud olan məscidlərin isə hamısında yenidənqurma, bərpa işlləri aparılmış, tarixi abidə kimi onların qorunması təmin edilir.***

Rayonun tarixi abidələrinin çoxu ən qədim vaxtlardan indiyə qədər salamat qalmış kəndlərdə yerləşir. Gözbarax və Qalal kəndlərində XVIII ərə aid məscidlər, Kebeloba kəndində XV əsrə aid iki qüllə, Mazıx kəndində XII əsrə aid qüllə, Yuxarı Çardaxlar kəndində V əsrə aid Pəriqala, Car kədində XIV əsrə aid Çingiz qala və rayon Tarix-diyarşünaslıq muzüeyi, Paşan kəndində Alban qülləsi (XIII əsr) və Axaxdərə kəndindəki Alban qülləsi (XII əsr), rayonun müxtəlif kəndlərində o, cümlədən Əlibabad və Mosul kəndlərində XIX əsrdə tikilmiş məscidlər salamat qalmışdır.

Zaqatala rayonunda olan tarixi abidələrdən yazmaq və araşdırmaq məqsədi ilə birinci yolumuzu Qafqaz Albaniyasının Zaqatala şəhərinin mərkəzindəki ən qədimi Alban məbədindən saldıq.

### *YAŞI BİLİNMƏYƏN ALBAN MƏBƏDİ*

Rayon ərazisindəki hər daşın altında bir tarix, sirr yatır. Buradakı tarixi yerlərin, abidələrin, məbədlərin, tarixi tikililəri, məscid və minarələrin dərin köklərinin araşdırılmasına böyük ehtiyacları vardır. Düzdür, bir çox tarixçilər - arxeoloqlar araşdırmalar aparıblar. Ancaq yenə də müəmmalar qalmaqdadır. Haqında danışmaq istədiyimiz, Zaqatala şəhərinin mərkəzində yerləşən Alban məbədi kimi, tikintisi erazımızın IV-V əsrlərinə aid edilən Alban məbədinin üstündə vurulan lövhə hamını təəccübləndirdi, lövhdəə belə yazılıb: "Rus kilsəsi XIX əsrə aid. Təəccüblü deyilmi? Görünür ki, bu da tariximizi saxtalaşdırmaq istəyənlərin fəaliyyətidir. Halbu ki, tarixi mənbəələrə görə Car Vacaqan ildə günlərinin sayı qədər kilsələr tikdirmişdir. Zaqatala bölgəsində olan xristian məbədlərinin tikintisi də məhz bu dövrə, yəni eramızın IV-V əsrlərinə təsadüf edir.

***Şəhərimizin qədim şəhər meydanında yerləşən Alban məbədi demək olar ki, hər yerdən görünür. Onun 12 pəncərəli, yerdən 30 metrə qədər hündürlüyü olan günbəzi zəmanəmizə qədər sağlam gəlib çatmışdır. Rayonun qədim "Əskibazar" adlanan ərazidə, meşəlik yerdə bu abidənin eynən oxşarı, lakin bir qədər kiçik formasında olanı var. Eramızın 705 -ci ilində Ərəblərin Azərbaycanın işğalının başa çatdırılmasından sonra, Alban məbədlərinin idarəçiliyi kilsə katolikosluğuna tabe edildi. Ərəb işğalından sonra Alban kilsələrinə aid sənədlərin bir hissəsi Vana, bir hissəsi isə Materdarona Ucmüəzzin kilsəsinə daşındı. Tarixi araşdırmalara görə, həmin vaxtlar Qafqazda Ermənistan adlı dövlət olmayıb. Ərəblərin işğalına qədər Alban kilsələri öz hesablarını və kilsə tonikaları Sunay yarımadasındakı müqəddəs Yekaterina monstarına verir. Tarix-diyarşünaslıq muzeyində saxlanılan tarixi sənədlərdən bəlli olur ki, vaxtilə 1000 -dən çox Alban kilsəsi mövcud olub.***



Zaqataladakı Alban məbədinin şəhər mərkəzində olması, bu abidənin daha çox diqqət çəkməsinə səbəb olmuşdur. Son vaxtlar abidəni ziyarət edən turistlərin, məktəblilərin, qrup halında gələnlərin sayı xeyli artıb. Qeyd edək ki, Alban məbədi Zaqatala qalasına daş yolunun sol hissəsində, 35 metrlik dərinlik yarğanının aşağısında tikilmişdir. Xüsusi arxetektura üsulubuna malik olan bu qədim abidə tikildiyi dövrün ən əzəmətli, xüsusi görünüşə malik və dövrümüzə qədər gəlib çatan, ən möhkəm və əzəmətli tikilisidir. Zaqatala bölgəsindəki ən möhtəşəm olan Alban məbədinin həyətində çarhovuzun, həyətə döşənmiş yastı çay daşının izləri hələ də salamat qalmışdır. Hərbiçi-jurnalist həmkarımız, həmyerlimiz Bəxtiyar Əliyev və digər xeyriyyəçilərlə abidəni gəzərkən, məbədin həm ərazisinə, həm də tikintisinin böyüklüyünə görə dağ silsiləsində mövcud olan digər məbədlərdən fərqləndiyi, Alban kilsəsinin qonşuluğunda yerləşən digər qədim tikililərlə bağlı olduğu da aydınlaşdı. Ancaq bu ehtimalların nə qədər doğruluğunu tam əminliklə deyə bilmərik. Alban kilsəsinin qarşısındakı dağ döşünün həyətindəki oyuq yerlərinin sirrini, həyət yaxınlığındakı qalaya yeraltı yolun olub-olmamasının, hətta bu ehtimalların doğru-həqiqət olmasını tam əminliklə deyən təhqiqatçı hələlik yxodur. Bir onu bilirik ki, bu məbəd möhtəşəmliyə görə onu göstərir ki, bu məbəd digər məbədlərə rəhbərlik edir və onların işini istiqamətləndirir.

Məlumat üçün bildirmək istəyirəm ki, tariximizin daş yaddaşlarından xəbər verən bu kilsə içəridən bişmiş, narıncı rəngli kərpicdən hörülmüş, dairəvi, 5 metr olan möhtəşəm sütunların üzərində duran tağlarla əhatələnmişdir.

Butaqlar simmetrik qaydada bir-birini tamamlayır və tağların üstündə məbədin günbəzi yerləşib. Məlum olur ki, məbəd inşa edilərkən tağ konstruksiyalarından istifadə edilmişdir. Bu abidənin inşasında şərq memarlığının elementləri daha çox hiss olunur. Məbəd künbəzə qədər üç mərtəbəlidir. Birinci mərtəbədə pəncərə, 4 qapı vardır. Ehtimal olunur ki, iki pəncərədən sonradan qapı kimi istifadə olunub. Qeyd edək ki, məbədin iki qapısı Şərqə, iki qapısı isə Şimali Qərbə və bir qapısı isə Cənubi Qərbə baxır.

***Hal-hazırda kilsənin ətrafında başqa tikililər də vardır və buraya yol iki istiqamətdəndir. Məlum olur ki, bu məbədin tarixini saxtalaşdırmaqdan ötrü - digər abidələr kimi, bu abidənin də portal daşı da sökülüb - götürülüb. Həm də bizə məlum oldu ki, İslam dini qəbul edildikdən sonra bu abidə fəaliyyət göstərmir. Bəzi versiya və məlumatlara görə 1853 -cü ildə Alban kilsəsində ruslar bəzi dəyişikliklər etməklə orada ibadət ediblər. Məbəddəki bir sıra elementlər məhz həmin zaman əlavə edilib.***

Bütün bunlar isə qədim tariximizi silməyə xidmət edir və abidələrimizə edilən təcavüzdür. Əlbəttə ki, Zaqatala şəhərinin qədim tarixindən xəbər verən bu Alban məbədinin ciddi təmirbərpaya və tədqiq edilməyə, tarixi köklərini tam araşdırmağa böyük ehtiyac vardır. Qeyd edək ki, Sovet hakimiyyəti dövründə məbədin divarları boyanıb və 70-80-cı illərdə bu qədim tikilinin ərazisində uzun müddət 3 ailənin yaşadığı bildirilir.

**Hətta həmin vaxtlar məbəddə 2 dəfə yanğın baş verib və bu tarixi abidə uzun müddət baxımsız qalıb. Hal-hazırda Alban məbədində heç bir dini qurum fəaliyyət göstərmir və dini ayin icra olunmur. Abidədə tam təmir-bərpa işləri aparılarsa insnaların bu qədim tikiliyə marağı daha da artar, məbədin dağılmağının qarşısı alınar. Mədəni irsimizin bu mədəb gələcək nəsillərimizə də gözəl töhfə ola. Unutmayaq ki, belə qədim tarixə malik abidələri araşdırsaq, elmi əsaslarla tarixi tam dəqiqləşdirsək, yaşatsaq düşmənlərimiz də yaxşı dərk edərlər ki, Odlar yurdumuzun bir güşəsi olan Zaqatalanın necə qədim tarixi var...**

**Elman Maliyev**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**
**araşdırmaçı - jurnalist**

# "Zorakılıq halları valideyn-övlad münasibətlərinə təsir göstərir" - MÜZAKİRƏ

***"Ədalət" qəzetinin "Dəyirmi masa"sında müzakirəyə başlayırıq. Bu gün ailə və övlad münasibətlərinə toxunmaq istəyirik. Əgər çox insan evdədirsə, evdən işləyirsə, o zaman onlar kənar bir münasibətə daxil olmur və sadəcə ailə daxilində olurlar. Ailə daxilində bu dönəmlərdə, bəlkə də, yeni münasibətlər formalaşmağa başlayıb, hətta valideyn-övlad münasibətlərində də yeni formalar meydana gəlib. Mövzumuz "Karantin dövründə valideyn-övlad münasibətləri"dir. Qonaqlarımız Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin baş məsləhətçisi Məftunə İsmayılova, sosioloq Əhməd Qaşəmoğlu və "Narınc" Uşaq Psixologiya Mərkəzinin direktoru, psixoloq Narınc Rüstəmovadır.***

### *"Ailə cəmiyyətin özəyini təşkil edir"*

**-Valideyn-övlad münasibətlərində hansı çətinliklər var və onları necə həll etmək olar?**

**M. İsmayılova:** "İlk növbədə onu qeyd edim ki, ailə sosial bir təsisatdır. Bu sosial təsisat isə cəmiyyətin özəyini təşkil edir. Bu gün ailələrdə yaranmış hansısa bir problem bütövlükdə cəmiyyətə təsir göstərir. Hazırda ailədə fərdlər arasında olan münasibətlər çox mürəkkəbdir. Bu münasibətlərdə fərdə məxsus xüsusiyyətlər, bir də ailənin ümumi quruluşunda ailəni əks etdirən xüsusiyyətlər öz əksini tapıb. Hər bir ailə unikaldır. Hər birinin özünün daxili qaydaları və cəmiyyətin ailədən tələb etdiyi qaydaları var. Bu gün ailə daxilində valideyn-övlad münasibətlərini təhlil etsək, bir neçə nüansı qeyd edə bilərik.

Birinci, uşağın yetişdirilməsində, cəmiyyətə hazırlanmasında əvvəlki nəsillərdən fərqlilik var. Belə ki, bizim və bizim ailələrimizin böyüdüyü ailələr böyük idilər. Bu ailədə nənə-baba var idi, bacı-qardaş sayı çox idi. Həmin mühitdə böyüyən uşaq digərlərindən nümunə götürərək özlüyündə inkişaf edirdi. Bu ailədə valideynlər diqqəti bir deyil, bir neçə uşağa göstərdiyi üçün orada diqqətin tək uşaq üzərində fokuslanması halı baş vermirdi. Sadə dildə bunu belə izah edim, bir neçə uşaq olan ailədə uşaqlar arasında vaxt fərqli bölünürdü, belə olan halda uşaq öz-özünə inkişaf edirdi. Bu gün uşağın formalaşması üçün onun intelektual səviyyəsi, bilik və bacarıqları, hadisələri şərh etmə və ona uyğun davranışlar sərgiləməsi kimi məsələlərə diqqət yetirmək lazımdır. Hazırda çox ailələrdə tək uşaq olduğu üçün valideyn diqqətini yalnız onun üzərində cəmləşdirir. Bu isə uşağın sərbəst hərəkətlərinin məhdudluğuna gətirib çıxarır. Ailədə uşağın azlığı, uşağın sosial çevrəsinin azlığı, valideynin həddən çox uşağa diqqət göstərib onun yerinə işlər görməsi valideyn-övlad münasibətlərinə təsir göstərir. Valideyn-övlad münasibətlərindəki çətinlikləri necə çözmək olar? Bu gün çoxsaylı elmi, psixoloji mərkəzlər, uşaq reabilitasiya mərkəzləri fəaliyyət göstərir ki, valideynlər artıq valideyn olmamışdan əvvəl bacarıqlara yiyələnə bilsinlər".

### *"Sosiallaşma böyük bir ehtiyacdır"*

**N. Rüstəmova:** "Bu günlərdə dünyanı cənginə almış koronavirus təhlükəsi həyatımızda baş rol oynamaqdadır. Ölkəmizdə koronavirusun insanlara nəinki bioloji, fizioloji, bunlardan daha çox psixoloji təsirlərini müşahidə edirik. Koronavirus pandemiyası səbəbilə tətbiq olunan sosial izolyasiya tədbirləri biz böyüklərin psixoloji durumuna, adaptasiyasına çətinlik yaratdığı kimi uşaqların da psixoloji durumuna təsirsiz ötüşmür. Hazırki şərait əslində ailənin hər bir fərdində istər psixoloji, istər davranış nöqteyi-nəzərindən dəyişikliklərə gətirib çıxarır. İnsanlar bütün günü evdə oturmaq, hərəkət etmək məhdudiyyəti, gündəlik vərdişlərin pozulması ilə bağlı olaraq əsəb, stress halları yaşayırlar ki, bu da ailə daxilində bir sıra narahatlıqlara gətirib çıxarır. Sanki hər gün çöldə baş verən qaçhaqaç hallarını indi evlərimizin içində yaşayırıq. Uşaqların onlayn dərsləri, işləri onlayn olaraq idarə etmək, nəzarətdə saxlamaq, ev işləri, valideyn məsuliyyətləri və s. dediklərim sırasında yer alır. Üstəlik bunu dar bir areal çərçivəsində edirik. Valideyn-övlad münasibətlərində onsuz hər zaman bir çətinlik, bir uyğunsuzluq olurdu, amma bu son aylarda hamının evdə olması səbəbilə daha çox gərginləşmə halları özünü göstərib. Həssas bir dövr yaşayan yeniyetmələrdə özünəqapanma, ünsiyyətdən qaçma, telefona həddən çox



bağlılıq hallarının, valideynə və ailə üzvlərinə aqressiv davranışların artmasının şahidi oluruq. Çünki bizdə olduğu kimi uşaqlarda da sosiallaşma böyük bir ehtiyacdır.

Üstəlik bu sosiallaşma, yəni yaşıdları ilə vaxt keçirmə uşaqların psixi, nitq, zəka, duyğusal inkişafında əvəzsiz bir təsirdir. Uzun müddət evdə qaldıqda daxilə toplanan enerji xərclənə bilmədiyi üçün özünü aqressiya, evdə çox hərəkətlilik-dağıtmaq, tökmək, vurmaq, bacı-qardaşı ilə dalaşmaq və s. fonunda göstərir. Bütün bunlarla yanaşı, eyni zamanda ailə daxilində də gündəlik rejimin dəyişməsi bir sıra psixoloji narahatlıqların-həyəcan-təşviş pozuntuları, itirmə qorxusu, davranış pozuntuları, uşaq depressiyaları və s. yaranmasına təkan verə bilər".

**Ə. Qaşəmoğlu:** "Valideyn-övlad münasibətlərindəki çətinlikləri aradan qaldırmaq üçün valideynlərin maarifləndirilməsi istiqamətində işlər görülməlidir. Valideynlərin özlərinin davranışında müəyyən dəyişikliklərə nail olmaq lazımdır. Uşaqlarla isə məktəb kollektivləri məşğul olmalıdırlar. Hazırda karantin dövrüdür və məktəblər bu işi onlayn formada həyata keçirməlidir. Təklif edirəm ki, sosial iş xidməti yaradılsın və o, valideyn-övlad münasibətlərindəki gərginlikəri həll etsin. Ahəngdar münasibətin qurulması üçün bu sosial iş xidməti çoxsaylı işlər görə bilər".

### *"Əvvəlki tərbiyə metodlarından istifadə etmək olaz"*

**-Karantin dövründə ailə-övlad münasibətlərində yeni formalar meydana gəlib. Bax həmin formalardan danışmanızı istərdim...**

**Ə. Qaşəmoğlu:** "Karantin dövründə valideyn də, övlad da evdə qalmalı oldu. Əvvəllər övlad məktəbdə olurdu, ata işdə olurdu, ana isə ya evdə, yaxud o da işdə olurdu. Dərsdən sonra uşaq ya çöldə oyun oynayırdı, ya həmyaşıdları ilə görüşürdü, yaxud da başqa işlərlə məşğul olurdu. Yəni valideynlə övlad o qədər də təmasda olmurdu. Karantin dövründə isə birlikdə daha çox oldular ki, bu da həm mənfi, həm də müsbət tərəfləri üzə çıxardı.

Əgər valideyn-övlad arasında məhəbbət var idisə, o, daha da dərinləşdi. Gərgin münasibət olan ailələrdə isə karantin vaxtında münaqişələr daha da genişləndi. Qarşıdurmalar yarandıqca valideyn-övlad arasında pərdə götürülür. Çalışmaq lazımdır ki, belə xoşagəlməz hallar baş verməsin. Ümumiyyətlə, hazırkı nəslin uşaqları çoxsaylı informasiyanın təsiri altında olduğundan onlar üçün əvvəlki tərbiyə metodlarından istifadə etmək olmaz. Valideyn çalışmalıdır ki, övladı ilə dost münasibətində olsun. Elə bir münasibət qurmalıdır ki, övlad ona ürəyini aça bilsin".

### *"Böhran vəziyyətləri ailə münaqişələrinə səbəb olur"*

**M. İsmayılova:** "Pandemiyanın ailələrə olan təsirindən danışsaq, sosial izolyasiya şəraitində yaşamaq hər bir fərdin ailəsi ilə daha çox vaxt keçirməsinə səbəb oldu. Əgər əvvəllər ailəyə bir o qədər də vaxt ayıra bilmirdiksə, ələlxüsus da uşaqlara, pandemiya imkan verdi ki, ailəmizlə vaxt keçirək. Pandemiya ailədaxili münasibətlərə, sözsüz ki, öz təsirini göstərdi. Həm müsbət mənada, həm də mənfi. Əgər hansısa bir ailədə münaqişə var idisə, pandemiya bunun daha da böyüməsinə gətirib çıxardı. Ümumiyyətlə, qeyd edirlər ki, pandemiya kimi böhran vəziyyətləri ailə münaqişələrinə və bu münaqişələrdə zəif tərəflərin daha çox zorakılığa məruz qalmasına səbəb olur. Bu dünyada qəbul olunmuş bir haldır. Valideyn-övlad münasibətlərində uşağa təsir göstərən əsas vasitələrdən biri valideynlərarası münasibətlərdir.

Ümumiyyətlə, uşaqların inkişafına təsir göstərən amillərdən birincisi valideynlərinin ölümü, ikincisi onların boşanması, üçüncüsü isə zorakılıq mühitində böyüməsidir. Zorakılıq halları, ailədaxili münaqişələr valideyn-övlad münasibətlərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Pandemiya dövründə valideynin övladla daha çox vaxt keçirməsinin müsbət tərəfləri də oldu. Valideyn gördü ki, övladı hansı bacarığa malikdir, nələrdən geri qalır, nələri yaxşı bacarır? Əgər valideyn daha çox müşahidəçidirsə, belə olan halda o, uşağına kömək edə bilir".

### *"Əyləncə vaxtını bir neçə saat artırmaq lazımdır"*

**N. Rüstəmova:** "Bu dövrdə valideynlər necə davranmalıdırlar? Pandemiya, karantin dövründə valideynlərdən hər zamankından daha çox anlayış və səbr tələb olunur. Övladınıza təzyiq göstərmək yerinə ona dəstək olmağın yollarını axtarmaq daha məqsədəuyğun olar.

Valideynlər ilk növbədə uşaqların pandemiyadan öncə alışdığı gündəlik rejim qaydalarını evdə də yaratmağa çalışsalar, daha yaxşı olar.

Məsələn, yemək, yatmaq, dərs, oyun, əyləncə saatlarını hər gün tənzimlənmiş qrafik üzrə həyata keçirsinlər.

Xüsusilə, oyun, əyləncə vaxtını əvvəlkindən bir neçə saat artırmaq lazımdır. Bu uşağın məktəbə gedib-gələrkən, yaşıdları ilə aktiv ünsiyyətdə olarkən sərf etdiyi enerjisini evdə də əvəzləyə bilməsi üçün zəruridir.

Daha sonra müəyyən vaxtlarda yoldaşları ilə onlayn ünsiyyət qurmağa şərait yarada bilərlər. Bu onların həyəcan-təşvişinin, depressiv əhval ruhiyyəsinin yaxşılaşmasına müsbət təsir edəcək. Yuxu rejimi də diqqət edilməsi lazım olan nüanslardandır. Çünki yuxu rejiminin pozulması hətta adi zamanlarda belə istər fizioloji, istərsə də psixoloji narahatlıqların yaranmasına gətirib çıxara bilir".

**Rövşən Tahir**

---

Nəriman Qasımoğlu

# MƏN DƏ BREJNEVDƏN HEYFİMİ BELƏ ÇIXDIM



**1982-ci ildir. Azərbaycan Dövlət Teleradiosunun xarici verilişlər bölməsində ərəb dili üzrə diktor işləyirəm. Səsimi, tələffüzümü bəyəniblər deyə rəsmi xəbərlərin oxunuşunu çox zaman mənə həvalə edirlər. Belə xəbərlər də adətən birbaşa efirə gedir.**

**Növbəti iş günümdə axşam tərəfi gəlmişəm redaksiyaya. Görürəm işçilər təbəssümlə məni süzürlər. Səbəbini anlamağa çalışıram, salamlaşıram. Deyirlər bəs Brejnevin çıxışı var, sən oxumalısan.**

**- Oldu. Mətni verin baxım.**

**- Tərcümə hələ hazır deyil.**

**- Necə yəni hazır deyil? Yarım saatdan sonra efirə çıxmalıyıq axı.**

**- Məsələ burasındadır ki, rəhbərlikdən göstəriş gəlib Brejnevin çıxışının əsas hissəsi operativ olaraq məhz bu gün efirdə səslənməlidir və tapşırığı da indi çatdırıblar. Yavər tərcüməni edir. Sən sadəcə əlinin altında olanla kifayətlənib başla oxumağa, o yazdıqca digər hissələri də ehmalca qoyarlar qarşına, davam edərsən.**

**Yavər də çox peşəkar, necə deyərlər, "əjdaha" tərcüməçidir. Rusca, Azərbaycanca mətnlərin ərəbcəyə tərcüməsini birbaşa makinaçıya diqtə edir. Tərslikdən bu gün makinaçı da işə çıxmayıb. Öz "ilan-qurbağa" xətti ilə tərcümənin üzərində işləyir. Xətti bərbaddır, heç anlaşılan deyil, başa düşmək üçün gərək arada bir orijinal mətnə də nəzər salasan. Bilirəm öhdəsindən gələ bilməyəcəyəm. O biri diktorlar da imtina ediblər deyə yeganə ümidləri mənədir. İndi mənə çatır otağa girəndə niyə məni mehriban təbəssümlə qarşılayıblar.**

**- Mənlik deyil, oxuya bilməyəcəyəm, - etiraz edirəm.**

**- Başqa çarəmiz yoxdur, gərək sən oxuyasan.**

**- Məsuliyyətdə mənim üzərimdə qalacaq yanlışlara görə?**

**- Darıxma, daha məsuliyyətdən-filandan keçib artıq. Nə olar, olar. Tapşırıq gərək vaxtında veriləydi. Əslində bizimkilərində günahı deyil. Deyəsən, təlimat Moskvadan gəlib.**

**- Yaxşı... Yavər, ver baxım, nə tərcümə etmisən.**

**Yavərin yazısından dəhşətə gəlirəm. Özü də gülür. Birtəhər çalışıram vaxt hələ varkən yazdıqlarını safçürük edim. Özündən soruşmağa da imkan yox, tələm-tələsik tərcümənin ardını işləyir. Xülasə, əlimdə olan bir-iki səhifəni araşdıra-araşdıra gözüm yazılanlara qismən alışır. Efir otağına daxil olmazdan öncə:**

**- Bəlkə elə əlimdəkilərlə kifayətlənək? - deyirəm.**

**- Yox e, sən peşəkarsan, gələn vərəqləri də oxuyarsan, narahat olma, - deyə ərəb redaksiyasının müdiri Şamil müəllimsə, əksinə, məni həvəsləndirir.**

**Yəqin ona görə həvəsləndirir ki, son məqamda birdən işləri korlayaram, yəni oxumaqdan imtina edərəm. Və haqlı da olaram, əslində.**

**Efirdə hər gün təkrarlanan "vstavka" dan sonra Brejnevin çıxışı haqqında giriş sözünü deyib keçirəm mətnə. Efirqabağı nəzərdən keçirə bildiyim səhifələri normal oxuyuram. Hər şey sanki qaydasında. Amma elə ki, ehmalca içəri daxil olub Yavərin yazdıqlarını qoyurlar qarşıma, gözlərim qaralır.**

**Efirdəyəm, gərək fasiləsiz oxuyam, kağızlardakılar da oxunaqlı vəziyyətdə deyil. Başlayıram improvizəyə, sovet xalqlarının rəşadətli əməyinə dair mətndə olmayan, hər gün oxuduğumuza görə yaddaşıma hopmuş trafaret cümlələri ard-arda səsləndirirəm.**

**Başımı azacıq qaldırıb baxanda görürəm şüşə arxasından məni izləyən redaktorun da, Yavərində, müdirin də üzündə əvvəlki təbəssümdür. Yəni səni işə salmışıq, sən də fərasətlisən deyəsən, öz bildiyini edib vəziyyətdən çıxmağa çalışırsan. Bu işıqlı təbəssümdən bir az da ilhamlanıb Brejnevin axıra qədər oxuya bilmədiyim çıxışını tələsik belə yekunlaşdırıram ki, "Sovet İttifaqı Kommunist Partiyası bəşəriyyətin xoşbəxt gələcəyinə inanır (sürəki alqışlar)". Ayağa qalxıram şüşə arxasındakılar görsünlər ki, çıxış bitdi... Səs operatoru tez musiqi aralığını işə salır. Ardınca da öncədən yazılı səsli mətnlər.**

**Problem ötüşür: Brejnevin təhrifli oxunuşunu rəhbərliyə, ya haralarasa çatdıran olmur. Bu arada yadıma düşür Brejnevin özü Bakıdakı bir çıxışında öndəki vərəqləri qarışıq saldığına görə, "Azərbaycan" yerinə "Əfqanıstan" demişdi.**

**İşçilərimiz baş verən təhrifdən ertəsi gün redaksiyada zarafatla söz salanda bunu onlara xatırladıram. Deyirəm:**

**- O bizi təhrif etmişdi, mən də onu. Oldu əvəz-əvəz. Gülüşürlər...**



FAİQ QİSMƏTOĞLU,
faiqqismetoqlu@box.az

# SABİQLƏR

... Hər adam vəzifədən çıxmağa bir o qədər də hazır deyil. Yəni elə adamlar var ki, 20-30 il yüksək vəzifədə əyləşir və işdən çıxarılanda sanki dünya onun başına fırlanır, özünü yıxılmış kimi hiss eləyir. Düzdü, elə adamlar var ki, vəzifə, var-dövlət onları xalqın içində hörmətə mindirir. Elə ki, vəzifədən çıxdı, o dəqiqə onun zəif yerləri üzə çıxır. Üzə çıxır ki, elə bu adamın gücü o vəzifə kreslosundaymış. Yəni onun qabiliyyətsizliyi, savadsızlığı və cahilliyi vəzifədən çıxarılandan sonra zaman-zaman özünü göstərir...

Yadımıza Azərbaycan Dövlət Televiziyasının nümayiş etdirdiyi bir televiziya tamaşası - "Sabiqlər" düşür. O tamaşanın məzmunu belədir ki, keçmiş nazir, (xalq artisti Siyavuş Aslan) keçmiş polis rəisi, (xalq artisti Yaşar Nuri) və keçmiş icra başçısı (təəssüf ki, o rolu oynayan aktyorun adı yadımdan çıxıb) vəzifədən çıxarılandan sonra özlərinə gələ bilmirlər. Hansı məclisdə, hansı xeyir-şərdə olan kimi o dəqiqə özlərindən danışırlar. Biri deyir ki, mən nazir olanda hamı qabağımda mil kimi dururdu, biri deyir ki, mən icra başçısı işləyəndə heç kim sözümdən çıxa bilmirdi, biri də deyir ki, mən rəis kreslosunda əyləşəndə çoxu "quşumu" götürürdü. Vəzifədən çıxarılsalar da, yenə onun havası burunlarından getmir. Və yenə özlərini əvvəlki kimi aparırlar. Amma görürlər ki, yox, tay adamlar onlara hörmət eləmir və heç salam da vermirlər. Ümumiyyətlə, sabiqlər həmişə köhnə hava ilə yaşayırlar. Yəni düşünürlər ki, nə vaxtsa yenə də o vəzifə kreslosunda əyləşə biləcəklər. Hətta bəziləri buna nail da olur.

Bizim məmləkətimizdə də vəzifədən azad edilmiş nə qədər baş nazir, nazirlər, nazir müavinləri, icra başçıları, icra başçılarının müavinləri və digər insanlar var. Düzdür, onların arasında hər şeyi normal qəbul edən və vəzifədən azad olunandan sonra öz sakit həyatını yaşayan şəxslər də var. Onlar heç vaxt nə dövlətin, nə xalqın ziyanına heç bir addım atmırlar. Təqaüdə çıxıb öz ömürlərini yaşayırlar, nəvələri ilə gün keçirirlər. Amma elə nazirlər, nazir müavinləri, icra başçıları, icra başçılarının müavinləri və digər vəzifəli şəxslər var ki, vəzifədən çıxarılandan sonra bununla razılaşmır və köhnə əməkdaşlarını və dostlarını başına toplayaraq saman altından su yeridir, prezidentin, dövlətin və xalqın əleyhinə addımlar atırlar. Hətta belələri vəzifəyə gəlmək üçün vətənə xəyanət etməyə də hazırdılar. Təki hansı yollasa, hansı qüvvələr onları vəzifəyə qaytarsın.

Nədənsə bizim vəzifəli şəxslər, xüsusən nazirlər istəyirlər ki, 80 yaşında da. 90 yaşında da bu vəzifə kreslosunda əyləşsinlər. Dünyanın heç yerində 70 yaşından yuxarı nazir tapmaq olmaz. Amma bizimkilər 70 yaşdan da yuxarı həddə nazir işləyiblər, ancaq buna baxmayaraq, vəzifdən çıxandan sonra sakit durmurlar, qaraguhrçuluq qüvvələrinə qoşulub suyu bulandırmaq istəyirlər. Sizin nəyiniz yoxdu? Sayı-hesabı bilinməyən biznes şəbəkələriniz, villalarınız, bahalı-bahalı maşınlarınız... Bəs bunlar sizə bəs eləmir? Hər bir rayonda, xüsusən Bakı şəhərində və digər yerlərdə 100 hektarlarla torpaq sahələriniz; orda nə əkirsiniz, nə biçirsiniz, bunu özünüz daha yaxşı bilirsiniz, heç olmasa qanundan qorxmursunuz, Allahdan qorxun! Bu qədər var-dövlətlə, bu qədər zənginliklə yenə gözünüz doymur. "Bəlkə də qaytardılar" havasıyla açılan səhərlərə böyük ümidlər bəsləyib bir yerə yığışırsiniz, bu ölkədə gedən islahatlara, demokratik proseslərə badalaq atırsınız.

Deməli, siz badalaq atırsınızsa və ölkənin müstəqilliyi üçün böyük təhlükə törədirsinizsə, ermənidən də təhlükəlisiniz. Heç kimə də sirr deyil ki, yüksək vəzifədə əyləşmiş bir çox şəxslərin xanımları, qohumları ermənidirlər. Bax, onlar vəzifədən çıxarılandan sonra öz qohumlarının qüvvəsiylə müəyyən təyziqlər və təsirlər göstərərək yenidən vəzifəyə qayıtmaq istəyirlər. Yaxud da toxunulmazlıq hüququ əldə etməyə çalışırlar. Hətta onlar ermənilərin sərhədlərimizi pozaraq torpaqlarımızı işğal etməsinə, şəhərlərin, kəndlərin güllə-baran edilməsinə çox sevinirlər. Sevinirlər ki, erməni qohum-əqrəbaları bir az da fəallaşıb. Sərhəd kəndlərini atəşə tutsalar, bir kəndi, bir rayonu işğal etsələr, bunların vəziyyəti daha da yaxşı olacaq. Ölkədə xaos və özbaşınalıq, dərəbəylik yaranacaq. Ancaq onlar unudurlar ki, Azərbaycan 1990-cı illərin əvvəllərindəki ölkə deyil. Onun çox güclü ordusu və müdrik başçısı var. Yəni hər yerindən duran puluna, varına, dövlətinə və xaricdəki havadarlarına arxayın olub ölkədə sabitliyi poza bilməz. Ən azından ona görə ki, Azərbaycan dünyanın ən sabit ölkələrindən biridir və hüquq-mühafizə orqanları da bu sabitliyi həmişə qoruyub saxlayıb, bu gün də qoruyub saxlayır, sabah da saxlayacaq.

Aranı qarışdırmaq istəyən qüvvələr yarasa kimi bəlkə də gecələr bir-biri ilə görüşür və məşvərətləşirlər. Amma onların da kim olduğunu Dövlət Təhlükəsizlik Xidməti və digər güc strukturları yaxşı bilirlər. Sadəcə olaraq, Azərbaycan prezidenti çox səbrli bir başçıdır və hər şeyi yaxşı görür və bilir. Suyu bulandıran, aranı qarışdıran ölkədə sabitliyi pozmaq istəyən qüvvələri bu xalq da yaxşı tanıyır. Uzun müddət vəzifədə işləyib dövlətə və xalqa yox, özünə qohum-əqrəbasına və xaricdəki havadarlarına xidmət edən bu yüksək vəzifəli şəxslərin artıq maskası yırtılıb. Düzdür, onlar üzdə dövlətə və prezidentə sədaqətli olduğunu bildirirlər. Amma faktlar və hadisələr göstərir ki, bu maskalanmış sabiq vəzifə sahibləri yalnız və yalnız vətənə xəyanət yolu tutublar. Onlara qarşı isə heç vaxt yumuşaqlıq göstərmək olmaz. Yenə yadımıza "Axırıncı aşırım" filmindən bir epizod düşür. Qəmlo Kərbəlayiyə yaxınlaşıb deyir:

- Kərbəlayi, Abbasqulu ağanın nazı ilə çox oynayırsan ha?! Bu Qurana and olsun, onlar bizi yaxalasa, tikəmizi qulağımız boyda edəcəklər!

İndi dövlətə və millətə xəyanət edən yüksək vəzifəli şəxslərin nazı ilə çox oynamaq lazım deyil. Onları başlı-başına da buraxmaq olmaz. Çünki əksəriyyətinin övladları, qohum-əqrəbası, pul alıb vəzifəyə qoyduğu adamlar yenə yüksək kresloda əyləşiblər. Və onlar böyüklərindən əmr gözləyirlər ki, hərəkətə gəlsinlər. Yüksək vəzifədə kimlərin övladı işləyir, bunu da yaxşı bilirlər. Və onlar babalarının, atalarının yolu ilə gedərək bu milləti zəlil etməklə məşğul olacaqlar. Yəni ataların, babaların edə bilmədiyi pisliyi onlar edəcəklər.

"Dədə Qorqud" filmində yenə maraqlı, yaddaqalan an var. Orda Qazan xan Aruzla döyüşərkən onu qılıncla vurub atdan yerə yıxır, ancaq başını kəsmir. Aruzun başını kəsməyi oğlu Turala tapşırır. Tural da gəlib əlində qılınc Aruza yaxınlaşır, Aruzun gözlərinə baxır və yazığı gəlib onun başını kəsmir. Atın üzünü çevirib atasına tərəf gedəndə Aruz arxadan onu oxla vurur və bununla da Qazan xanın hakimiyyəti süquta yetir.

İstedadlı ssenarist, yazıçı Anarın qələmə aldığı bu filmin mənası ondan ibarətdir ki, düşməninə rəhm etsən, düşmənə yazığın gəlsə və onu başlı-başına buraxsan, o səni məhv edəcək. İndi bizdə də dövlətin və xalqın düşmənləri kifayət qədərdi. Özü də Azərbaycanın çox mürəkkəb bir tarixi dövrdə, yaşadığı məqamda bu düşmənlər daha təhlükəlidir. Düzdür, onların xərcləmək üçün sayı-hesabı bilinməyən var-dövləti, pulu var. Amma onlar qətiyyən bununla kifayətlənmirlər. Yenə yadımıza "Səhranın bəyaz günəşi" filmindən bir məqam düşür. Belə ki, 10-15 arvadı olan Abdulla Suxerev məhv etmək üçün köhnə hərbçi Paşanın yanına gəlir, ondan silah-sursat istəyir.

O da deyir ki, yoxumdu. Abdulla gözünü qıyır və yavaşca səslənir: "Gözəl arvadın, evim-eşiyin var, ye, iç kef elə də, daha neynirsən bu qədər silah-sursatı?!".

Abdullanın sözü olmasın, bizim bəzi sabiqlər isə nə gözəl həyatlarından, nə də rahat yaşamlarından razı deyillər. Düşünürlər ki, o vaxt rahat olacaqlar ki, yenidən o vəzifə kreslosuna qayıdacaqlar. Amma vəzifə kreslosuna qayıtmaq da elə asan deyil. Çünki onlar nə qədər var-dövlət, nə qədər sərvət toplayırlarsa, hamısını haram yolla əldə ediblər. Bayaq dedik, sayı-hesabı bilinməyən biznes şəbəkələri, iri və xırdabuynuzlu mal-qaraları, hasara aldıqları yüz hektarlarla, min hektarlarla torpaq sahələri...

Torpaq sahələri dedim, yadıma Yeni Günəşlidəki 10-15 il bundan qabaq hasara alınmış 7-8 hektar torpaq sahəsi düşdü. Düz 10-15 ildi həmin torpaq sahəsi hasara alınıb və orda bir iş də görülmür. Deyilənlərə görə, o torpaq sahəsi hansısa nazirə, hansısa Bakı şəhərinin sabiq icra başçısına məxsusdur. Vəzifəsi olanda o torpağı alıb və hasara saldırıb. Bu cür "əsir düşmüş", hasara alınmış və qanunsuz surətdə sənədləşdirilmiş min hektarlarla sabiq vəzifə sahiblərinə məxsus torpaqlar var. Bax, indi dövlət yüksək səviyyədə xüsusi xidmət orqanlarının səyilə həmin torpaq sahələrinin kimə məxsus olduğunu araşdırmalı, onların qanunlu və qanunsuz olmasını üzə çıxarmalı və bundan sonra məhkəmə yolu ilə o torpaqlara verilmiş sərəncamlar ləğv edilməlidir.

Sakitləşməyən, dövlətə və xalqa xəyanət edən vəzifə sahiblərinin bu mülkləri, var-dövlətləri, maliyyə rıçaqları əllərindən alınmasa, onlar respublikamızda bundan sonra da çox qara-qura işlərlə məşğul olub suyu bulandıra bilərlər. Onlar nə vətən qədri bildilər, nə də dövlət qədri. Onlara şərait yaradan, arxa duran və çörək verən dövlətə xəyanət etdilər. Və o çörək də gec-tez onları tutacaq!!!

## TƏBRİK



Mən çox sevinirəm ki, bir bölgə qəzeti olan "Şəki Bələdiyyəsi" özünün 15 yaşını qeyd edir. Sevinməyimin də əsas səbəbi odur ki, bu qəzetin baş redaktoru vaxtilə mənim baş redaktoru olduğum "Ədalət"də jurnalistikanın əlifbasını öyrənən, əsil ixtisası mühəndis olan Murad Nəbibəyovdur.




Murad Bakıdan doğma yurduna köçüb "Şəki Bələdiyyəsi"ni çap etməyə başlayanda çoxları elə düşünürdü ki, o, təkbaşına ən çoxu 2-3 qəzet buraxa bilər. Amma mən onun hələ bizimlə işlədiyi vaxtlarda necə həvəslə, inadkarlıqla öhdəsinə düşən vəzifəni yerinə yetirdiyinin şahidi olduğum üçün inanırdım ki, Murad başladığı işi yarımçıq qoymaz. Və öz fikrimdə yanılmadım. Həqiqətən 15 il və hər ay 16, bəzən də 24, 32 səhifəlik qəzet ərsəyə gətirmək o qədər də asan iş deyil.

Bu gün mən böyük iftixarla Muradı və Şəki Bələdiyyəsinin kollekti-vini qəzetlərinin 15 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm.

Hörmətlə:
Aqil Abbas

## Aysel Əlizadə: Qazilər yaşayan şəhidlərdir, yaşadaq



Bəybala Quliyev Qarabağ qazisidir. Ağdam uğrunda gedən döyüşlərdə iştirak edib. 4 övlad atasıdır. Yaşaması üçün son bir ayı qalıb. Vəsait yığılmasa, həyatla vidalaşa bilər. Bu ayda onun üçün 68 min dollar (115 min manat) pul yığılmalıdır. Ki-




çik uşağının 8 yaşı var. Bəybala bəy ilik xərçəngidir. Ona təcili Türkiyədə ilik köçürülməlidi. Donoru öz qardaşıdır. Hərəmiz 1 manat köməklə həmin vəsaiti yığa bilərik. Xahiş edirik, yardımınızı əsirgəməyin. Əlaqə saxlamaq üçün 070 898 50 10 nömrəsini yığa bilərsiniz. Qazilər yaşayan şəhidlərdir, yaşadaq.

# Ağdamın ilk əsir kəndləri - Abdal Gülablı -28 illik həsrət...

**Bütün yazılarımda hər zaman qeyd etmişəm. Qarabağın elə bir köşəsi-bucağı yoxdur ki, ora cənnət olmasın, o yaşamaq üçün də, elə ölmək üçün də ideal məkan olmasın. Ağdam rayonunun Abdal-Gülablı kəndi rayonun zirvədə olan cənnəti idi. Bu gün Abdal və Gülablı kəndinin işğalından 28 il ötür. 1992-ci il sentyabrın 4-də Ermənistan ordusu tərəfindən işğal olunub.**

### *Abdal*

Abdal-Gülablı kəndinin adı həmişə qoşa çəkilib . XIX əsrdə burada iki Abdal kəndi mövcud olduğuna görə bir-birindən fərqləndirmək üçün bu kənd Abdal-Gülablı, yəni, Gülablı yaxınlığında Abdal kəndi adlanırdı. Qədim adı "Abdal bulaği"dır. Kəndin ərazisində Xanım bulağı, Damcı bulaq, Bəy bulağı və başqa bulaqlar var. Azərbaycanda, İranda yaxın keçmişə kimi Abdal, Abdallar kəndləri olub.

Mənşəcə eyni olan kəndlərin əhalisi erkən orta əsrlərdə Cənubi Qafqazda yaşamış türk mənşəli Abdal tayfasının davamçılarıdır.

Orta əsrlərdə Qarabağda üç Abdal yurdu vardı.

### *Gülablı*

Adı kimi zərif, könülləri oxşayan Gülablı...Qədim tarixi, füsünkar təbiəti, saf havası, mehriban, şirin ləhcəli əhalisi olan yurdumuzun bir cənnət köşəsi.. Məlumatlara görə, kəndin qədim adı "Güllü dərə"dir. Deyilənlərdən məlum olur ki, XIV əsrdə ərəblər kəndə gələndə bu yaşayış məntəqəsi Güllü dərə adlanırmış, daha sonralar bu kənd Gülablı kimi tanınmışdır.

Xorasan şəhərinin yaxınlığında Gülablı adında tayfa olub. Bəs Gülablı sözünün mənası nə deməkdir?. Öncə qeyd edək ki, söz üç hissədən - "Gül-ab" - "Gül suyu" - sözün üçüncü hissəsi isə leksik şəkilçidir.

Buradan demək olar ki, "Gülablı", "Gül suyu olan yer" anlamındadır".

***Bu diyarda olub, oranı sevməmək, insanlarına ehtiram göstərməmək mümkün deyildi. Milli-musiqi sənətimizin yorulmaz tədqiqatçılarından olan Firudin Şuşinski yazırdı: "XVIII əsrdə İbrahim xan Şuşada doğulan hər bir oğlan uşağına Abdal-Gülablı kəndindən dayə və süd anası tutmaq barədə fərman verib. Bu kəndin əhalisinin şücaətini qiymətləndirən Qarabağ xanının bu fərmanına əməl olunması, oğlan uşaqlarının hünərli olmasına səbəb olmaqla yanaşı, həm də Abdal-Gülablıdakı gözəl səsə malik nəsillərin də Şuşada ecazkar səsli xanəndələrin yetişməsinə təsir edən əsas amillərdən idi ".***

Həmin kənd haqqında yazan folklorşünas, BDU-nun "Dədə Qorqud" Elmi Tədqiqat Laboratoriyasının elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Almara Nəbiyeva yazır: "Burada əsilli-nəcabətli, dünyagörüşlü, təhsilli adamlar az olmamış, tərbiyə və elmə can yandıranlar təkcə kənddə deyil, bütün Qarabağda, eləcə də ətrafda tanınmışlar. Gülablı kəndinin münbit torpaqları, bol suları onun yaşayış üçün əhəmiyyətini artırdığından burada əkinçilik, maldarlıq, bağçılıq, pambıqçılıq, baramaçılıq və digər sahələr inkişaf etmişdir.

Təkcə onu demək lazımdır ki, kənd ərazisindəki on səkkiz dəyirman, on bir kəhriz, doqquz bulaq, iki artezian, iyirmi bir məhəllənin olması bu kəndin olduqca əhəmiyyətli yaşayış məntəqəsi olduğunu təsdiqləyir.

Digər tərəfdən, bir kənddə bu qədər dəyirmanın inşa edilməsi kənddə lap qədimlərdən taxılçılığın inkişafından xəbər verir. Deməli, kənddə taxıl həmişə bol olmuş, həm əhalini ərzaqla təmin etmiş, həm də kənd adamlarına gəlir və bərəkət gətirmişdir".

***Kəndin qədimliyi haqqında yazan folklorşünas bildirir ki, oradakı hamam və məscid bu yaşayış məntəqəsinin qədim tarixi abidələridir.***

***Yaranma tarixi təxminən VI-VII əsrlərə təsadüf edir. Əsasən ərəblərin Azərbaycana gəlməsi dövrünə istinad edilir. İmam Həzrəti Əlinin bu yerdə olması və möcüzəli tarixi "Əli bulağı" ziyarətgahı bu fikri qüvvətləndirir.***

**Almara Nəbiyeva:** Rəvayətə görə, VI əsrdə Həzrəti Əli Gülablı kəndinin kənarında öz qoşunu ilə məskən salır. Kənd sakinləri söhbət zamanı sudan korluq çəkdiklərini bildirirlər. "Güllü" dərə yaxınlığında olan qaya parçasına Həzrəti Əli qılıncı Zülfüqarı endirir. Qaya Həzrəti Əlinin üstünə gələrkən, o, sol əlini qayaya dirəyərək, sağ əli ilə böyük bir daşı həmin qayanın altına dirək verir. O vaxtdan Zülfüqarın yerindən qayadan su çıxır.

Həzrəti Əlinin əl izləri qayada qalır (həmin daşın ağırlığı 8-10 tona qədər imiş). O zamandan bu yerin adı "Əli bulağı" adlanır. Gülablı kəndinin əhalisi və ətraf ərazilərdə yaşayan insanlar bu müqəddəs yeri ziyarət edər, kimin nə müşkül işi varsa, bu müqəddəs ocağa gələr, Allaha dualar edər, mətləb diləyərdilər. Mətləbləri hasil olanlar bu bulağın ətrafını ziyarət etdikdən sonra qurbanlar kəsər və imkanı olmayanlara paylayardılar. Kənddə yaşamış hər bir sakin buna şahiddir.

"Əli bulağı"nın daha bir maraqlı möcüzəsi də odur ki, həmin qayanın üstündə, daşın içərisində bitmiş bir neçə nar kolunda nar çiçəyi əvəzinə gül açırdı. Bu bulağın bir möcüzəsi də suyun öz mənbəyini hardan götürdüyünün məlum olmamasıdır. Digər bulaqların suyu bəzən azalıb, quruma dərəcəsinə çatsa da, bu bulağın suyu həmişə eyni axarda olmuşdur. Bu nar ağacları böyümür, qurumur, necə var eləcə də qalırdılar. İnsanlar dilək diləyəndə bu nar kollarına düyünlər vurub arzu edərdilər, niyyətləri yerinə yetəndə gəlib ocağı ziyarət edib, düyünləri açardılar.

***Kənddə rastlanan naxışlı - qara, boz rəngli qablar, küpələr, çölməklər xüsusi maraq doğurur.***

***Tədqiqatçı Aida Məmmədova bu duluşçuluq məmulatlarının tunc dövrünə aid olduğunu yazır Tarixən məlumdur ki, Azərbaycandakı daşqutu qəbirlər albanlarla bağlı olub, eramızın birinci əsrinə aiddir.***

Buradan nəticəyə gəlmək mümkündür ki, həmin qəbirlərin ən azı iki min illik tarixi vardır .

### *Məşhur abdallılar, tanınmış gülablılılar...*

***Onlarla lətifələrin yaradıcısı, yaxud iştirakçısı, personajı kimi tanınan Abdal Qasım Qarabağ regionunun ən ünlü şəxsiyyətlərindən olmuşdur. Abdal Qasımın sələfi Abdal Şakirin hazırcavablığı da respublikanın hər tərəfində məşhurdu.***

Publisist, Ağdamın tarixinə dair bir çox tədqiqatlara imza atmış Vüqar Tofiqli bildirir ki, Abdal-Gülablını Ağdamın digər kəndlərindən fərqləndirən əsas cəhət budur ki, onun məşhur yetirmələri daha çoxdur. Aşıq Xaspolad Gülablı və Aşıq Valeh kimi respublikada məşhur aşıqlar bu kəndin yetirmələridirlər. Kənd işğal olunmazdan az əvvəl onun yaşadığı evi xatirə muzeyi edilən tarzən Qurban Pirimov, Ali Məhkəmənin sədri olmuş Şamil Mirzeyev, dövrün tanınmış maarifçisi və xeyriyyəçisi Camal Mustafayev, general-mayor Murtuz Quliyev, Azərbaycan kinosunun ən məşhur xadimlərindən olan Ceyhun Mirzeyev, SSRİ xalq artisti Sara Qədimova, faciəli şəkildə dünyasını dəyişən mərhum xanəndə Səxavət Məmmədov, mərhumun kiçik qardaşı Firuz Səxavət, oğlu, uşaq proqramlarının məşhur aparıcısı Bəxtiyar Məmmədovu da bu kəndin tanınmış yetirməsi saymaq olar.



***Hamının Rəmiş kimi tanıdığı gitara ifaçısı Rafiq Hüseynov, tanınmış şairlər, "Ulduz" jurnalının baş redaktoru Qulu Ağsəs və Abdal Qəhrəman, dramaturq, Azərbaycanın əməkdar artisti, məşhur "Qaynana" filminin müəllifi Məcid Şamxalov da Abdal-Gülablı kəndinin tanınmış simalarıdır. Respublikada ilk fəaliyyət göstərən "Nənə Qızlar" ansamblını və Xavər nənəni də unutmaq olmaz.***

### *Kəndin igidləri, şəhidləri...*

Azərbaycan torpaqlarının Qarabağ yurdunun erməni quldurlarından müdafiə etmək, döyüşmək üçün silaha sarılan oğulları bu kəndin məxsusi hörmətə layiq övladlarıdır. Adıgedən kəndlərdə elə ev yox idi ki, ordan üç yaxud dörd döyüşçü çıxmasın. Şəxsən tanıdığım Hüseynovlar ailəsindən Sadiq, Fərman, Yaşar qazi, Füzuli isə şəhid olub.

Folklorşünas Almara xanımın yazdığına görə, kəndin müdafiəsi zamanı şücaət göstərən Amil Fərəc oğlu, Arif Qəni oğlu, İlham Xammədov, Şükür Tösü oğlu, həmçinin Nurlan və Nofəl qardaşları, Bəxtiyar Davudov, İlyas Nəcəfov, Həsən Əliyev, Mahir Əliyev, Əvəz Tağıyev, Natiq Səlimovun adları təkcə gülablıların deyil, Ağdam əhalisinin yaddaşına şərəflə yazıldı. Kəndin müdafiəsi zamanı şəhidlik zirvəsinə ucalan gənclərdən başqa, bu günə qədər yeri bilinməyən, doğmalarının gözlərini yollarda qoyan - itkin düşmüş Xaliq Abbas oğlu Qasımov, Bəbir Baba oğlu Qarayev, Əyyub Məmməd oğlu Əliyevdən heç bir xəbər yoxdur. Xaliq Qasımovun anası Cahan xala oğlu itkin düşəndən sonra iflic xəstəliyinə tutuldu. Amma o, əcəldən aman istəyir ki, bəlkə itkin balasından ona bir soraq verildi...

**Bir gün Abdal-Gülablı kəndinə dönmək diləyilə...**

Əntiqə Rəşid

---

Eminquey

# Adamlar hara və niyə gedirlər?



**Son vaxtlar daha şövqlə, həyəcanla izlədiyimiz, milyonlarla azərkeşinə səs verdiyimiz "Traktor-Azərbaycan" futbol klubu İran çempionatının qalibi oldu.**

**Bu, sıradan bir qalibiyyət deyil.**

**Bu, təkcə futbol klubunun qalibiyyəti yox, həm də Azərbaycanın qələbəsidir.**

**Bu qələbədə milyonlarla azərkeşin "Azərbaycan", "Təbriz" şüarlarının bəhrəsidir.**

**Bu qələbə məni çox düşündürdü.**

**Niyə öz məmləkətimizdə birliyimizi 30 ildən bir nümayiş etdirdiyimiz halda, qürbətdə birləşə bilirik, xoş şeylərin dadını çıxara bilirik?**

**Məsələn, tələbələrimiz xarici universitetlərdə uğurlar qazanırlar.**

**İnsanlarımız Almaniya, Norveç, İsveç, Fransa, hətta okeanın o tayında belə özlərinə həyat qura, (Vətən həsrəti çəkə-çəkə) istədiklərini qazana bilirlər.**

**Məsələn, bu cəmiyyətin tabularının altında əzilən adamlar köç edirlər. Vətəndən kənarda, cəmiyyətin buxovlarından azadlıqda daha xoşbəxt ömür sürürlər. Ailə həyatlarını istədikləri kimi qururlar. Arzularına daha tez çatırlar.**

**Məsələn, yaxın keçmişdə Elariz Məmmədoğlunun Amerikaya köçməsinin tarixçəsini dinləmişdim. Deyirdi ki, "Green Card"ı qazananların siyahısında adım çıxan kimi (hələ özümün belə xəbərim olmamış) artıq Amerikada yaşayan həmyerlilərimiz zəng vurub təbrik edirdilər. Mənə "bura gələn kimi xəbər ver, hər şeyi hazır eləmişik" deyirdilər. Getdim, qab-qacağımıza qədər verdilər. Məni oradakı azərbaycanlıların işlətdiyi restorana dəvət etdilər. O restoranda oxumağa başladım. Konsertlərimi təşkil etdilər.**

**Bütün bunları eşitdikcə içimə qəribə bir hüzur doldu.**

**Lap "Green Card" arzuladım.**

**Məsələn, qapı qonşum. 4 ildir Almaniyaya köçüb. Düzdür, xeyli çətinliklər çəkiblər. Ki, bu, qürbətdə gözləniləndir. Amma orada bizimkilərlə dostlaşıblar, bir-birilərinə dayaq dururlar.**

**Hələ 2017-ci ilin rəsmi statistikasına görə 767 min azərbaycanlı Rusiyada yaşayır. 82 min Ukraynada, 48 min Qazaxıstanda, 20 min ABŞ-da, bir o qədər Özbəkistanda, daha 19 min Almaniyada və 17 min Türkiyədə məskunlaşıb.**

**Və nəzərə alsaq ki, əgər insan uzun müddətə təhsil almaq üçün gedirsə, onlar bunu qeydə almırlar, demək, rəqəmlər daha yuxarıdır.**

**Hamı uğur qazanmağın yolunu Vətəndən kənarda görür. Hamı uğur qazanmağın yolunu çıxıb getməkdə görür. Hamı uğur qazanmağın yolunu xarici dil bilməkdə görür.**

**Əvvəllər əsasən orta yaşlı kənd sakinləri Rusiyaya gedirdilərsə, indi Avropa ölkələrinə gedənlərin sayı artıb. Gedənlər isə daha çox ixtisaslaşmış kadrlardır. Həmçinin mühacirlərin yaş həddi də aşağı enib. Bu gün yaxşı təhsil alan və Azərbaycanda uyğun iş tapa bilməyənlər ölkəni tərk edir. Ölkəni tərk edənlərin çoxu Avropada yaşamağa qalan keçmiş tələbələrdir. Bakıda təhsilini başa vuranlar isə texniki və mühüm tətbiqi peşə nümayəndələridir ki, onlara böyük tələbat var. Bunlar mühəndislər, proqramçılar, İT mütəxəssisləri və həkimlərdir.**

**Bəli, beyin sızması baş verir və o, adi gözlə görünür. 20-25 yaşlı insanlar ölkəni tərk edir.**

**İxtisaslaşmış kadrlar sürətlə itirilir.**

**Uğur biz olmayan yerlərdə məskən salıb.**

**"Traktor- Azərbaycan"ın qələbəsinə sevinməyin fonunda bunları və yaza bilmədiyim daha çox şeyləri xatırladıqca, Ramiz Rövşənin bir şeiri yadıma düşdü:**

*Gəl əl-ələ tutub gedək*
*Gedək biz olmayan yerə.*
*Hər dərdi unudub gedək*
*Dərdimiz olmayan yerə.*



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# RUHLARA EHTİRAMLA

## Ölümsüzlər önündəki düşüncələrimdən

**Bu yazını başlamaq üçün təkcə içimdə deyil, elə iş otağımda da xeyli var-gəl etdim. Necə deyərlər, ipucu tapmaq müşkülə düşmüşdü. Üstəlik telefon zəngləri, gəlib-gedənlərin düşüncələrimə yaratdığı problemlər və bir də içimdəki narahatçılıq demək olar ki, toparlanmağa imkan vermirdi. Birdən diqqətim yarpaqları azacıq büzüşmüş dibçəkdəki "Ana ürəyi" çəkdi. Bu da elə bil qıfılın açarı oldu. Dilimdən yaddaşıma, yaddaşımdan ürəyimə... Və beləcə, bir də gördüm ki, başlamışam yazmağa. Özü də gizlincə, kimsənin duymadığı bir şəkildə. Çünki bu yazı ürəyimə yazılırdı...**

Bir neçə günün söhbətidi. Trabzondan Əhməd qardaşım aramışdı. Söhbət əsnasında bildirdi ki, ürək doktorumun, yəni professor Mustafa Gökçənin anası haqqın rəmhətinə qovuşub. Mən doktorumun anasının rahatsız olduğunu elə onun özündən duymuşdum. O, bu barədə öz səhifəsində yazmışdı. Öyrənmişdim ki, rəhmətlik COVİD-19-a yoluxub. Və bir professorun, bir tibb uzmanının anası onun və digər doktorların çabalarına baxmayaraq, koronavirusdan xilas ola bilmədi...

Təbii ki, hər kəsə ana müqəddəsdir... hər kəsə anası üçün fərqli və özəl bir dünyadı. Bu mənada anasızlığı, atasızlığı yaşayanlar mənimlə razılaşarlar. Çünki təbii qanun olsa da, biz heç birimiz ana, ata, ümumiyyətlə, doğmalarımızın, sevdiklərimizin itkisiylə barışmırıq. Bunu zaman-zaman içimizdə ağrı kimi daşıyırıq. Xüsusilə duyğusal adamlar ana itkisindən çox üzülürlər. Mən doktorumla danışanda ona başsağlığı verməyə söz tapa bilmirəm. Çünki səsinin çalarları qətiyyətli, xəstəyə təsir etmək gücündə olan bu insanın uzaqdan da olsa necə kövrəldiyini, səsinin necə titrədiyini duymamaq mümkünsüz idi. Odur ki, birtəhər özümü ələ alıb, sözün gücünə söykənib dedim:

- Hocam, Cənnət anaların ayaqları altındadı! Analar həm də mələkdilər, övladlarını qoruyan mələkdi. Onlar ölmürlər, çünki mələklər ölümsüzdü. Onlar Tanrı dərgahındadılar... ordan övladlarını izləyirlər... onları hifz etməyə çalışırlar. Odur ki, siz ananızın ölümsüzlüyünə inanın və dualarınızı onun ruhu üçün edin. Mən də sizə qoşuluram və sizinlə bahəm paylaşıram.

Bəli, professor Mustafa Gökçənin hələ də qulaqlarımda qalan səsi mənə bir daha anlatdı ki, böyük Məmməd Araz "Ana itirmişəm ana yaşında" deyəndə haqlı imiş. Özü də bütünlüklə, sözün nöqtə vergülünə qədər haqlı imiş. Və kiminsə dünyasını dəyişən ana üçün rəhmətliyin yaşını soruşması bağışlanılmaz günahdır. Axı, anaların yaşı olmur!!!.

Hə, mən bu fikirləri sözə, yazıya köçürdükcə hardansa ağlıma bir qığılcım kimi işartı düşdü. O işartı içimi də, ruhumu da alışdırdı. Özüm də bilmədən başladım misraları pıçıldamağa. Yazdım ki:

*Sızlayır az qala saçımın dəni*
*Elə bil bükülüb ağrı balınca...*
*Hər yerə ayağım çəkirdi məni -*
*İndi sürüyürəm onu dalımca...*

*Gözləyən, arayan yoxdu - bu bəlli*
*Xəyal da nalını itirib yolda...*
*Bircə şəkillərdi sözsüz təsəlli -*
*O da asılıbdı bu kirpik kolda...*

*Kədər də yorulub - biri bir qarış*
*Çıxıbdı ağzımdan nəfəsi çatmır...*
*Mənim içimdəki sonuncu yarış -*
*Sonuncu görüşə həvəsi çatmır...*

*Bu çöküş - dəvənin diz qatlaması*
*Filin məzarlığa üz tutmasıdı...*
*Bir aşiq ürəyin bu çatlaması -*
*Bir qızın sevgini unutmasıdı!..*

***

Dibçəkdəki gülün torpağını yumuşalda-yumuşalda özümə təsəlli vermək istəyirəm. Barmaqlarımın ucundakı torpağın hənirini hiss edirəm. O istilik damarıma, qanıma işləyib. Bu məqamda nə vaxtsa yazdığım şeirin bir misrası ağlımın ucundan gəlib keçir. O şeirdə yazmışdım ki, torpaq çəkir adamı! İndi də hiss etdim bunu, özü də açıq-aşkar şəkildə. Hiss etdim ki, yerin üstündəki dostlarımın, güvəndiklərimin sayı azaldıqca, onların yerin altında sayı artdıqca mən də torpağa tərəf, yerin altına tərəf yaxınlaşıram. Ara məsafəmiz ölçüsü bilinməyən bir sürətlə, bir qayda üzrə azalıb, qısalıb. Və kim istəsə, qısalan ömür də deyə bilər. Amma fərq etmir. Söhbət Allahın verdiyi ömrü elə onun öz diqqəti, nəzərləri altında yarpaqlarını tökməsidi, saralmasıdı, qocalması və yaxud sınması, əyilməsi... bir də kökündən qopmasıdı. Deməli, bu bəlli yoldan qaçmaq, çəkinmək, o yolu dəyişmək mümkün deyil. Elə bəlkə də bunun özü də bir gözəllikdi. Çünki dəyişilməyən bəlli yolu hər kəs özü kimi, öz adıyla, öz yerişi ilə keçib gedir...

İndi barmaqlarımın ucundakı torpağa zilləmişəm gözlərimi. Və o torpaqdan aldığım istiliyin, hərarətin ürəyimdə yaratdığı auranı kağıza köçürmək, vəznə çevirmək istəyimi açıq-aşkar yaşayıram. Daha doğrusu, özü artıq məni qələmə, kağıza tərəf əl uzatmağa təhrik edir. Bu yerdə geri çəkilmək mümkünsüzdü. Ona görə də elə ovcumdakı torpağı gülün dibinə səpib kağıza, qələmə tərəf çevrilirəm. Bir də baxıb görürəm ki, yazmışam:

*Mən dəqiq bilirəm ömür dəndi, dən*
*Onu vaxt üyüdür, zaman ələyir...*
*Külək yelkənini açanda bəzən -*
*Boş xırman yerini saman bələyir...*

*Könül dinləməyə fürsət düşəndə*
*Bir göz qırpımında vaxt buxarlanır...*
*İçimdə tərəddüd - bil, didişəndə -*
*Gözümdən səssizcə o buxar damır...*

*Kədər yol vərəqi, qəm ezamiyyə*
*Başlayır ürəyin bayatı turu...*
*Nişançı barmağı gedir tətiyə -*
*Saralır adamın içinin nuru!*

*Bəlkə də xoş deyil sənə bu yazı*
*Hətta yazılması günahdı bəlkə...*
*Xəyaldı ömürün sənlə bəyazı -*
*Ya da sevgimizdə sınaqdı... bəlkə!*

İndi bu ovqatın, bu auranın içindən çıx görüm, necə çıxırsan. Çünki istisi ovcumdan, barmaqlarımın ucundan varlığıma işləmiş torpağın diqtəsi mənə torpaq - yurd həsrətini də xatırlatdı. Necə deyərlər, dərd batmanla gəldi. Qarşısına çıxmağa isə artıq gücüm, taqətim qalmayıbdı. Azalan, tükənən bu gücün bircə təsəllisi var. O təsəlli isə mənə o zaman əl uzadır ki, onda mən səni təkcə ürəyimdə, xəyalımda deyil, həm də gözlərimin önündə görürəm. Sənin gözlərindən, sənin çöhrəndən süzülən nur, işıq qaralan, kölgələnən gözümə, çöhrəmə işıq kimi boylanır. Deməli, bu, yaşatmaq istəyidi. Bu həm də yaşadıb yandırıb-yaxmaq mesajıdı. Ona görə də mən ondan qaçmıram. Əksinə, ona bir az da əyilirəm, bir az da yaxın olmağa çalışıram. Və onun da, Allahımın da, elə hər kəsin eşidə biləcəyi bir səslə, bir od-alovla bu misraları səsləndirirəm:

*Mənim kimliyimi çözmə bu qədər*
*Çözüb tapacaqsan özünü məndə...*
*Saxlayır özünə yazılan qədər -*
*Kösövü özündə, közünü məndə!*

*Fikrin dolaşdırsa ağda qaranı*
*Dərədə, həm düzdə, dağda qalanı...*
*Qapının üstündən as dağdağanı -*
*Gəz, "Nəzər duası" sözünü məndə...*

*Demə ki, keçibdi pərvanə yaşım*
*Yorulub ürəyim, ağarıb başım...*
*Bir təbəssüm çilə sən, yaşıllaşım -*
*Günəş bil, ömürlük gözünü məndə!..*

***

Adətimdi, içimdəki düşüncələri, ağrı-acını, elə sevinci də qələmə pıçıldayanda, kağıza köçürəndə bir az rahatlanıram. Elə bil ki, yorğun, ağır bir işdən sonra ılıq suyun altından keçib sonra qarşımdakı buğlanan çayla başbaşa qalırsan. Onda özün də, sözün də dupduru olur. Yəni özün də, sözün də bir-birinə elə sarmaşır ki, onları ayırmaq, onları haralarasa yozmaq həm çətinləşir, buna həm də adam heç ürək də eləmir. Bu mənada mən dostlarımla həmsöhbət olanda, onlarla istənilən süfrə arxasında bir araya gələndə mənən, ruhən rahatlıq tapıram. Çünki anlayışla qarşılanıram, səbrlə dinlənilirəm. Hətta nöqsanımı da, yanlışımı da onu elə ustalıqla mənə həzm etdirirlər ki, heç ruhum da incimir. Bir də baxıb görürəm ki, onlar haqq olanı mənə öz dilimlə etiraf etdirirlər. Məhz bu yaşantılara görə, mən fələkdən zaman alanda ürək dostlarımı, ruh doğmalarımı axtarıram. Elə rahatlıq üçün də, özüm və dostlar üçün də...

Son görüşümüzdə Azad Müzəfferli və Akif Cabbarlının yaratdığı ovqat məni əməlli-başlı tərki-silah elədi. Yəni ruhun yorğunluq daşını atdırır kənara. Bir də baxıb gördüm ki, atdığım daşın dalınca baxa-baxa havalı adamlar kimi danışıram. Daha doğrusu, qələmsiz yazdığım şeiri pıçıldayıram. Deyirəm ki:

*Avara olardım, sərbəst olardım*
*Ağlıma gələnlə sərməst olardım...*
*Özümə bablara tər-dəst olardım -*
*Mən şeir yazmağı tərgidə bilsəm...*

*Adıma yazılan yad daşa köçməz*
*Gördüyüm gözümə, yaddaşa köçməz...*
*İçimdən vərəqə, ya daşa köçməz -*
*Mən şeir yazmağı tərgidə bilsəm...*

*Min dadda, tamdadı balı, şəkəri*
*Qələmə çökdürür onu çəkəni!*
*Ürəyim olmazdı sözün nökəri -*
*Mən şeir yazmağı tərgidə bilsəm...*

*Gecəni gündüzə calaq etməzdim*
*Ahları içimdə qalaq etməzdim...*
*Bu ömrü bir sısqa bulaq etməzdim -*
*Mən şeir yazmağı tərgidə bilsəm...*

*Əlimi dərgaha açmazdım bəlkə*
*Özümdən özünə qaçmazdım bəlkə...*
*Ürəyə bu qədər acımazdım bəlkə -*
*Mən şeir yazmağı tərgidə bilsəm...*

Bilmirəm, necə yazdım və ümumiyyətlə, nədən yazdım. Amma onu bilirəm ki, bu şeiri mütləq yazmalı idim. Ən azından ona görə ki, bu dünyada insanın bacardığı hər nədisə, onu icra etməsi labüddü.

Çünki Allah hər kəsi bir missiya ilə yaradıb. Bax, bu mənada mən də içimdə doğulub ruhumun pıçıltısı olan misraları şeirə çevirdim. Necə alınmağı indiki anda mənim üçün o qədər də önəmli deyil. Axı, ruhum rahatlanıb. Və...

***Xatırla bu nağılı***
***Keçmişdən yarpaq kimi...***
***Dəsmal küncünə bağlı -***
***Bir çimdik torpaq kimi...***

***Gətir gözün önünə***
***Yol üstündə bir ağac...***
***İnancına, dininə -***
***Elə onu pir, ağac!***

***As şəklini budaqdan***
***Sonra da öp yarpağı...***
***Səp dua tək dibinə -***
***O bir çimdik torpağı!..***

**... Ruhlara ehtiramla... Ruhlarla görüşmək ümidilə bu qədər!..**

# Dünyanın fəlakət gətirən selləri: Çin, ABŞ, Banqladeş və "aktiv bədbəxt" ölkə...

**Dünyanın ən qorxunc fəlakətlərindən biri də çay daşqınları, başqa sözlə desək, seldir. Sel ərəbcədən tərcümədə güclü axın deməkdir. Dağ çaylarının yatağında intensiv yağışın, buz və mövsimi qar ərimələrinin nəticəsində gözlənilmədən yaranan palçıqlı və daşlı-palçıqlı axındır.**

Sel hadisələrinin yaranmasına əsas səbəb ərazinin fiziki-coğrafi şəraiti, o cümlədən, oroqrafik-geomorfoloji quruluşu - iqlim, torpaq, bitki örtüyü və hidrometeorоloji proseslər təşkil edir.Dağ çaylarının qısa müddətli (bəzən bir neçə saat ərzində) dağıdıcı qüvvəyə malik palçıqlı-daşlı daşqını (axını). İntensiv leysan yağışları, buzlaqların və mövsümi qar örtüyünün sürətlə əriməsi qırıntı materiallarını yamaclardan çayın yatağına (məcrasına) doldurur. Böyük kütləsi və sürəti olan çox böyük dağıdıcı qüvvəyə malikdir.



### Banqladeşin 32 il əvvəlki sel fəlakəti

Azərbaycanda Kür, Rusiyada Volqa, Amur, Çində Yantszı, Xuanxe, ABŞ-da Missisipi, Ohayo, Avropada Dunay, Visla, Sena çayları teztez daşaraq, ətraf əraziləri suya qərq edir. Bu çayları həmin ölkələrin "baş bəlası" da adlandırmaq olar. Çünki çay daşqınları öz miqyasından asılı olaraq yüz minlərlə insanın eveşiyini itirməsinə, ölümünə və infrastrukturun dağılmasına səbəb olur.

***1988-ci ilin 4 avqust Banqladeşdəki sel 300 nəfərin həyatına son qoydu, Ölkənin 7 ən iri çayında baş verən daşqınlarda 20 000 insan evsiz eşiksiz qaldı. 2012-ci ildə isə Banqladeşdə şiddətli yağışların səbəb olduğu daşqınlar 100-dən artıq insanın həyatına son qoyub.***

### Dünyanın dəhşətli selləri

Çin-Vətəndaş müharibəsinin getdiyi Çin 1928-1930-cu illərdə dəhşətli quraqlıqla üzləşmişdi. Lakin 1930-cu ilin dekabrında ölkədə güclü boran, ardınca isə aramsız leysan yağışları başlayır. Nəticədə artıq 1931-ci ilin avqustunda dünyanın ən böyük çaylarından olan Yantszı və Xuanxe məcradan çıxır. Ətraf ərazilərdən yüksəkdə yerləşən Xuanxenin daşması xüsusilə dəhşətli fəsadlar doğurur. Çinin o zamankı paytaxtı Nankin sular altında qalır. Ümumilikdə, 300 min kvadrat kilometr ərazini əhatə edən daşqın 40 milyon insanın zərər çəkməsinə, əkin sahələrinin sular altında qalmasına və müxtəlif yoluxucu xəstəliklərin yayılmasına rəvac verir. Çin mənbələri dəhşətli daşqınlar zamanı 150 min insanın öldüyünü iddia etsə də, Qərb alimləri son illərin araşdırmalarına əsasən, Xuanxe və Yantszı çaylarının daşması və sonrakı fəsadlar nəticəsində 3 milyon insanın həlak olduğunu müəyyən edib. Çində 1931-ci ildə baş verən bu hadisə tarixdə ən böyük miqyaslı və ən çox insan tələfatına səbəb olan sel fəlakəti sayılır.

### Cənubi Asiya

*2007-ci ilin iyulunda Cənubi Asiyada bir çox iri çayların məcrasından çıxması ilə nəticələnən daşqınlar baş verib. Daşqınlara səbəb bu region üçün xas olan musson yağışlarının aramsız yağması ilə bağlı idi. İyul-avqust aylarını əhatə edən təbii fəlakət 2 min insanın ölümünə, 230 milyon insanın isə evsiz-eşiksiz qalmasına səbəb olub. Sel daşqınları ən çox Hindistan, Pakistan, Banqladeş və Nepalı əhatə edib. YUNİSEF hadisəni tarixin ən böyük humanitar böhranı adlandırıb.*

### ABŞ

1927-ci ilin aprelində ABŞ tarixinin ən böyük sel fəlakətlərindən biri baş verib. Məcrasından çıxan Missisipi çayı 10 ştatın, o cümlədən Arkanzasın 14 faizini su altında qoyub. Hər şey 1926-cı ilin yayında Missisipi çayı hövzəsində yağıntıların kəskin artması ilə başlamışdı. Bir gündə 380 mm yağıntıdan sonra çay 1927-ci ili aprelin 15-də hər iki sahilində yerləşən bəndləri dağıdaraq, 27 min kvadrat kilometr ərazini sular altında qoyub. 700 mindən artıq insanın evlərini itirdiyi humanitar faciə 246 nəfərin də həyatına son qoyub. Missisipi daşqınından sonra çay ətrafında yeni müasir bəndlər salınıb. Yalnız 1993-cü ildə yenidən daşan Missisipi 32 nəfərin ölümünə və milyardlarla dollar zərərə səbəb olur.

### Braziliya

***2011-ci ilin yanvarında sel daşqınları bu dəfə Braziliyanı öz cənginə alıb. Aramsız yağışlar və qeyri-münasib iqlim şəraiti Amazon çayının daşmasına yol açıb. Daşqın torpaq sürüşməsi ilə müşahidə olunub. Ölkənin ən böyük ikinci şəhəri Rio-de-Janeyro, Petropolis, Sumidoru kimi şəhərlər sular altında qalıb. Təbii fəlakət 900 insanın ölümünə, 150 mindən artıq braziliyalının isə evlərini itirməsi və dövlət büdcəsinə 2 milyard dollar zərər dəyməsi ilə nəticələnib.***

### Dünyanın ən"aktiv bədbəxt" ölkəsi

İndoneziya dünyada təbii fəlakətlərin ən çox ziyan vurduğu ölkədir. "Passiv alov dairəsi" adlandırılan İndoneziyada mütəmadi olaraq sel, zəlzələ və vulkan püskürmələri qeydə alınır.

Mütəxəssislərin məlumatına görə, 2009-2019-cu illərdə İndoneziyada təbii fəlakətlər nəticəsində 12 min 499 nəfər ölüb. Son 10 il ərzində 21 min təbii fəlakət baş verib və bundan 35 milyon insan ziyan görüb. Zəlzələ və sunamilər nəticəsində ölənlərin sayı 7396 olub.

**Bundan başqa, ölkənin Bali, Cava və Sumatra adalarında 104 vulkan püskürməsi qeydə alınıb. Bu təbii fəlakətlər nəticəsində 432 nəfər həyatını itirib. Ümumilikdə baş verən təbii fəlakətlər nəticəsində İndoneziyaya ildə 20 milyard dollar məbləğində ziyan dəyir.**

Əntiqə Rəşid

---


Arzu Nehrəmli
Tarix üzrə fəlsəfə doktoru,
AYB və AJB-nin üzvü




# Özü yıxılanı həyat bağışlamır...

**Bədii əsər, xüsusilə həyatı daha əhatəli əks etdirən irihəcmli roman estetik tərbiyə qaynağı olmaq, insanlarda gözəllik hissi aşılamaqla yanaşı, həm də oxuyanlara ibrət vermək, gör-götür dünyasında baş verənlərdən, özgələrinin həyatından, yüksəliş yollarından, eləcə də səhvlərindən nəticə çıxartmaq imkanı yaradır. Məhəbbət İbrahimovanın "Ömürdən qurban olmaz" romanının başlıca keyfiyyətini də bu məqamda axtarmaq lazım gəlir. İxtisasca mühəndis olan, bədii yaradıcılığa zəngin həyat təcrübəsi qazanandan sonra başlayan Məhəbbət xanım romanda öz qəhrəmanının ibrət dolu həyatının eniş-yoxuşlarını əks etdirir...**

Gülşah adında bir qızın həyat hekayəsinin təqdim olunduğu roman yuxugörmə ilə başlayır. İllərin o başında hələ dünyanın qayğılarından uzaq, zamanın isti-soyuğunu görməmiş bir qız uşağının sanki rəsmdə canlandırılmış portretini görürük. Gələcəkdə rəssam olacaq bu qız dənizin mavi mənzərəsi fonunda narın kəhrəba qumun üstü ilə sahilboyu qaçır. Bu tablodakı sətiraltı məna oxucunun nəzərindən yayınmır: qız gələcəyə gedir, onun ömür yolu hələ qabaqdadır. "O, birdən-birə durdu, başını yuxarı qaldırıb buludları seyr etdi. Topa buludlar ağappaq, bəziləri də azacıq mavi idi. Qızcığaz başını aşağı salmadan yoluna davam etdi. Bu dəfə, həqiqətən, özünü səmalarda hiss edirdi. Arxadan anasının səsi onu xəyallar aləmindən ayırdı:

**- Gülüm, ayağının altına bax, yıxılarsan..."**

Kübar bir ailədə dünyaya gəlmiş, yaxşı insanların əhatəsində böyümüş Gülşah orta məktəbi bitirəndən sonra ömrünü rəssamlıq sənətinə bağlamağı qərara alır, İncəsənət İnstitutuna daxil olur. Xəyal dünyasından ayrıla bilməyən Gülşahın qarşısında ali məktəb mühiti yeni üfüqlər açır.

Onu tezliklə ictimai işə cəlb edirlər. İnstitutun komsomol təşkilatının rəhbəri Raufla ünsiyyəti yaranır.

***Bundan sonra Gülşahın həyatının yeni bir mərhələsi başlayır. O həm zahiri yaraşığı, həm ictimai fəallığı, həm də dərslərə münasibəti ilə fərqlənən Raufa vurulur, daim onun xəyalları ilə yaşayır...***

İlk baxışda hər şey təbii görünür. Gülşahın nə xəyalpərvərliyində, nə çılğın sevgisində bir qəbahət axtarmaq olar: o, nazir qızı, çalışqan tələbə, gözəl gələcək vəd edən istedadlı rəssam olmaqla bərabər, həm də həssas ürək sahibidir. Ürəyin hökmü isə onu daim ucalmağa, öz xəyallarının səmasına yüksəlməyə təhrik edir. Gülşahın faciəsinin ilk rüşeymləri də bu məqamda üzə çıxmağa, özünü göstərməyə başlayır: gözü yüksəklərdə olan Gülşah ayağının altına baxmağı unudur. Ayağının altında isə onun özünün görə bilmədiyi dərin quyu var...

Gülşah ətrafındakı insanlara, eləcə də bütün varlığı ilə sevdiyi Raufa öz əxlaqının, öz mənəvi dünyasının, ürək saflığının gözləri ilə baxır. Ona görə də həyatın ağını qarasından daha aydın seçən, həyata ayıq gözlə baxmağı bacaran yaxın rəfiqəsi Raziyənin dediklərini vaxtında ciddi qəbul eləyə bilmir. Xüsusilə qızlarla münasibətdə yüngül davranışlı Raufun hərəkətlərindəki eybəcərlikləri nə özü görür, nə də



bu barədə deyilənlərə məhəl qoyur. Saf ürəklə sevdiyi Raufla xoşbəxt ola biləcəyini düşünür.

***Əsərdə müəllifin qaldırdığı tərbiyəvi problem öz psixoloji başlanğıcını bu ziddiyyətdən götürür: Gülşahın xoşbəxtlik anlayışı ilə Raufun xoşbəxlik anlayışı, bu anlayışların fəlsəfəsi bir-birindən fərqli və uzaqdır. Əslində, bu anlayışların ikisinin bir araya gəlməsi mümkün də deyil, biri o birini inkar edir. Çox tezliklə məlum olur ki, Rauf üçün həyatda xoşbəxt olmağın düsturu qarşıya qoyduğu məqsədə başqasının çiyinləri üstündən çatmaqdır.***

Raufu Gülşaha bağlayan onun gözəlliyi, qabiliyyəti, mənəvi keyfiyyətləri deyil, nazir qızı olmasıdır. Raufun əqidəsinə görə, Gülşahın valideynləri qızlarının xatirinə onun bütün problemlərinin həllini öz üzərlərinə götürməli, o, qayınata-qayınana qoltuğunda istədiyi hər şeyə nail olmalıdır. Qoltuq altında yaşamağı həyat fəlsəfəsinə çevirən Rauf yalnız fərdi xarakterinin deyil (bu amili də göz ardına vurmaq olmaz!), ictimai mühitin qurbanıdır. Onda bu ələbaxımlıq, asılılıq psixologiyasını yaradan səbəblərdən biri də cəmiyyətdəki naqisliklər. Həmin naqislik sovet gerçəkliyinin insanlar arasında yaratdığı münasibətlərdən gəlir. Zahirən hər kəsin bərabər olduğunun təbliğ edildiyi cəmiyyətdə dərin təbəqələşmə var idi. İnsanlar arasındakı münasibətlər, təbəqələşmənin yaratdığı əxlaqi sarsıntılar həyatda bir-birinə zidd olan kəskin qütblərin yaranması ilə müşayiət olunurdu. Bu təbəqələşmə bəzən sevib-sevilmək kimi ülvi insan hisslərindən də yan keçmir, insanların taleyini öz toruna salırdı.

Mənəvi dəyərlərin qorunmasına üstünlük verən ictimai düşüncə isə buna əks reaksiya verir, müqavimət göstərirdi. Yüksək vəzifə sahiblərinin övladlarına münasibəti sağlam məntiqdən, real həqiqətdən daha çox, onların haqqında yaranan təsəvvür idarə edirdi və bu təsəvvür həmişə düzgün olmurdu.

Romandakı hadisələrin baş verdiyi illərdə Nüsrət Kəsəmənlinin məşhur bir şeirində sevən gənc oğlanın insanlıq qüruru ilə nazir qızının təkəbbürü qarşılaşdırılır və insan qüruru daha üstün tutulurdu:

*Ayrılaq, unudaq kədəri, yası,*  
*Könlüm dediyini söyləyir dilim.*  
*Səni nazirliyin qara "Volqa"sı,*  
*Mənisə ehtiyac gözləyir, gülüm...*

Raufun qarşısına çıxan nazir qızı təkəbbürdən uzaq olsa da, Rauf qürur haqqında düşünmür. Saf və təmiz məhəbbətlə sevən nazir qızı (bu, bir başqası, məsələn, pullu mağaza müdirinin qızı da ola bilərdi!) ilə yaxın olmaq, məqsədli evlənmək həvəsi onu oxucunun gözündə daha da eybəcərləşdirir. Nazir qayınatanın hesabına hər şeyə nail olacağını düşünən Raufun oxu daşa dəyir. Romandakı nazir Şahsuvar Kazımov cəmiyyətin təsəvvüründəki vəzifə sahiblərindən fərqlidir, Sovet rejimi üçün istisna təşkil edən insanlardandır. Həyatındakı bütün nailiyyətləri dişi-dırnağı ilə qazanmış Şahsuvar müəllim halal zəhməti ilə yaşayır. Yeganə övladını da halal böyüdüb. Şahsuvar müəllimin yüksək tutduğu mənəvi dəyərlər gözünü qoltuq altına girməyə dikən insanın həyat fəlsəfəsini inkar edir.

Gülşahla evlilikdən umduqlarını əldə edə bilməyən Raufun iç üzü açılanda, həm Gülşah, həm də oxucu onun əsl kimliyini tanıyanda isə artıq gec idi, olan olmuş, keçən keçmişdi...

***Yaradıcılığında mənəvi dəyərlərin təbliğinə üstünlük verən Məhəbbət İbrahimovanın "Ömürdən qurban olmaz" romanının tərbiyəvi əhəmiyyəti bu nöqtədə ümumiləşdirlib. Romanda təqdim olunan ibrətli tale hekayəsi Gülşah kimi həyatın astanasında olan gənc qızlara xəbərdarlıqdır. Əsərdən çıxan tərbiyəvi nəticə budur ki, gənc yaşında ayağının altına baxmadan gözüyumulu sevgiyə qapılmaq özünü heçliyə təslim etmək riski yaradır.***

Gülşahın heçə qurban verdiyi ömrü geri qaytarmaq mümkün deyil. O, ölümü tək-tənha, xəyalları ilə baş-başa qarşılayır. Xəyalında peyda olan anası əlindən tutub, onu əbədiyyət dünyasına aparır...

Əsərin əvvəlində Gülşahı dəniz sahilinin kəhrəba qumları üzərində qaçan qayğısız bir qız kimi görmüşdük. Anası ona xəbərdarlıq etmişdi ki, ayağının altına baxsın, yıxılar...

**Həyat isə qumlu dəniz sahili deyil. Narın qumların üstündə yıxılsan, qalxıb yenidən yoluna davam edə biləcəksən. Gülşah təbiətli insanlar isə həyatda bir dəfə yıxılırlar...**

# ÖMÜR NƏĞMƏLƏRİ

**Onu səhnədə görmüşəm, ekranda izləmişəm. Və günlərin bir günü də ruhuyla, ürəyiylə, canıyla sözə tapınan, sözə sipər, səngər olan, həm də sözü yerin ən dərin qatlarından tapıb göyün ən hüdudsuz nöqtələrinə çatdırmaq yolunu tutmuş professor Rüstəm Kamal və Ramiz Göyüşov məni onunla bir məclisdə tanış etdi. Necə deyərlər, adını eşidib, özünü kənardan işləyib tanıdığım bir insanla beləcə, halal bir süfrə arxasında şəxsi tanışlığımızın, dostluğumuzun özülü qoyuldu.**

Təbii ki, halal süfrədə, halal adamların halal xeyir-duası və təqdimatı ilə başlayan bu münasibət anla, günlə, ayla, bütövlükdə zamanla pöhrə kimi buğum-buğum böyüdü, şaxələndi. Və artıq bizim telefon danışıqlarımız, təmaslarımız, söhbətlərimiz özü öz axarıyla, öz istiqamətinə axıb gedir... Və deməli, bu da şəxsən mənə imkan verir ki, istedadlı bir dostumun həyat yolunu diqqətimdə saxlayım... hərdən o yola nəzər yetirim...bilmədiklərimi, olanları arayım, öyrənim. Necə ki, mən digər dostlarımla məhz bu cür tam açıq, sərbəst, rahat bir müstəvi üzərində öz münasibətlərimi qurmuram. O dostluq halallığa, inama və bir də güvənə söykənir. Yəni birbirimizə inanırıq, bir-birimizə qarşı dürüstük və bir-birmizə də güvənirik. Əslində bu elə dostluğun göstəriciləridir. Mən də illərin sınağından keçən bu göstəriciləri özümlə daşıyıram. O ki, qaldı İftixara...



O, düz 60 il bundan öncə Gürcüstanda Qaraçöp mahalının Düzəyrəm kəndində ziyalı ailəsində doğulub. Təbii ki, Gürcüstanda yaşayan soydaşlarımızın özəl həyatları həmişə maraq doğurur. O cümlədən də Ermənistanda, Dərbənddə və digər ərazilərdə yaşayan soydaşlarımız kimi. Doğrudur, İftixar Sovet döneminin yetirməsidi. O, mənim kimi və digər dostları kimi bir növü sovetin "şinelindən" çıxıb. Həmin dövrün qayda-qanunları, həyat tərzi indi bir xatirə olsa da, amma etiraf edək ki, ziyalıya onda münasibət tamam fərqliydi. Bax, elə Gürcüstanda fərqli bir münasibətlər içərisində böyüyən İftixar da ailədən gələn ziyalılığı, ədəb-ərkanı, çevrəsindəkilərə münasibəti, canını-qanını ana südüylə, ata nəsihətiylə hopdurdu. Üstəlik, onların şəxsi nümunəsi də öz sözünü diqtə edirdi. Orta məktəbi bitirəndən sonra Azərbaycan Dövlət İnstitutunun dram-kino aktyorluğu fakültəsinə daxil olmuşdu. Tələbə olduğu illərdə də o, artıq öz fəallığı ilə hər kəsin diqqətini çəkməyi bacarmışdı.

1981-ci ildə institutu bitirib təyinatla Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında aktyorluq fəaliyyətinə başlamışdı. Artıq bu onu bir aktyor, bir sənət adamı kimi ömür nəğmələrinin söz-söz, cümlə-cümlə yazılmağa başlaması idi. Özü də diqqətçəkən, maraq doğuran idi bu yazılış. Çünki milli teatrımızın səhnəsinə təkcə aktyor yox, həm də müəllif, yazar gəlmişdi. Onun təkcə obrazları səhnədə təqdim etmək yox, həm də özünün yazıb-yaratdığı obrazları tamaşaçıya çatdırmaq, sevdirmək bacarığı ortaya çıxmışdı. Əslində bu teatrın uduşu idi. Yəni teatrda fəaliyyətə başlayan İftixar Piriyev özü də bu teatrın müəlliflərindən birinə çevrilmişdi. Bir anlıq gözlərimin önünə onun Akademik Teatrımızdan 1981-1998-ci illərdə yaratdığı obrazları gətirirəm. Onlar Şeksprin, İlyas Əfəndiyevin, Anarın, Hüseyn Cavidin, Nəriman Həsənzadənin, Əbdülrəhim bəy Haqverdiyevin, Cəfər Cabbarlının, Mirzə Fətəli Axundovun, Səməd Vurğunun, Vaqif Səmədoğlunun, Sabit Rəhmanın, Çingiz Aytmatovun və digər klassiklərimizin, eləcə də müasirlərimizin müəllifi olduğu əsərlərdəki rollardı. Həmin o rollara İftixar Piriyev tamaşaçı yaddaşında qalan səhnə ömrü verməyi bacarıb. Eləcə də o, C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının səhnəsində Hidayətin, A.Babayevin, həmçinin özünün müəllifi olduğu əsərləri böyük uğurlarla tamaşaçıların diqqətinə təqdim etməyi bacarmışdı. Onun yaradıcılığında maraqlı cəhərlərdən biri də budur ki, İftixar Piriyev bir aktyor kimi nə yaratdığı obrazlara, nə də çıxış etdiyi səhnələrə fərq qoymur. Onların hamısında o, bacardığı və malik olduğu yaradıcılıq calarlarının hamısını nümayiş etdirir. Hətta onun televiziya tamaşalarında, bədii televiziya filmlərində, həmçinin seriallarda yaratdığı obrazlar da bir-birindən fərqli və bir-birindən maraqlıdı. Mən Əlibala Hacızadənin







”İtkin gəlin”ində İftixar Piriyevi Əbdül rolunda, həmçinin R.N.Güntəkinin ”Dodaqdan qəlbə - taleyin qisməti beləymiş yəqin” serialında Vədat bəy rolunda izləmişəm. Və etiraf edim ki, bir tamaşaçı kimi onun bu rollardakı uğurları məni sevindirib, mənə xoş gəlibdi. Ümumiyyətlə, dostum İftixar özünməxsus ifa və yaratmaq qabiliyyəti ilə özünü təqdim etməyi bacarır. Təsad0üfi deyil ki, onun bu səhnə sevgisi, səhnə vurğunluğu ölkə rəhbərliyinin də diqqətini çəkib. O, çoxlu sayda fəxri fərmanlara, diplomlara layiq görülüb. Respublikanın Əməkdar Mədəniyyət işçisi və Prezident mükafatçısıdır. Bu gün o, C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrına rəhbərlik edir. Bununla yanaşı, İftixar Piriyevin ruhunun diqtəsi kimi kitablara çevrilən əsərləri də var. Yəni 1998-ci ildə ”Gənclik” nəşriyyatında işıq üzü görən ”Yaşadığım bu ömür” şeirlər kitabı ilə o, ədəbiyyat aləminə qədəm qoyubdu. Necə deyərlər, başlanğıc uğurlu olduğu üçün, onun birbirindən maraqlı həm şeir və poemaları, pyesləri, həm publisistik əsərləri, həm də elmi məqalələri böyük tirajlarla oxuculara təqdim olunubdu.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru olan İftixar müəllimin poemaları əsasında filmlər də çəkilib, tamaşalar da hazırlanıb. O həm də quruluşçu rejissor və bədii rəhbər kimi də təkcə öz əsərlərini yox, həm də digər müəlliflərin əsərlərinin səhnə nümayişində yorulmadan çalışır. Hazırlanan əsərlər isə həm paytaxtımızda, həm bölgələrimizdə, həm də Naxçıvanda böyük uğurlarla tamaşaçılara təqdim olunur.

**Bu gün elmi fəaliyyətinin yeni mərhələsində, yəni doktorluq dissertasiyasının hazırlanması istiqamətində uğurla çalışan İftixar Piriyev sakit bir şəraitdə özünün 60 yaşının əlini sıxır. Mən də və düşünürəm ki, bütün dostları da sıxılan bu əlin üstündə öz əllərini görürlər. Və bu yazımda dostum İftixara özünün ürəyincə olan daha böyük uğurlar, daha gözəl günlər, təbii ki, bir də daha bol tamaşaçı sevgisi arzu edirəm. Doğum günün mübarək, əzizim İftixar bəy!**

**Əbülfət MƏDƏTOĞLU**

---

## *AB Lukaşenkoya sanksiya tətbiqindən imtina etdi*



**Avropa Birliyi Belarus Prezidenti Aleksandr Lukaşenkoya qarşı sanksiya tətbiq etməyəcək.**

Bu barədə "Die Velt" qəzeti yazıb.

Nəşrin məlumatına görə, Lukaşenkonun adı AB-nin sanksiya siyahısına daxil edilməyib. Bu qərarı isə ilk növbədə Almaniya, Fransa və İtaliya dəstəkləyib. Bu addımın Belarus lideri ilə dialoq kanallarını açıq saxlamaq məqsədilə atıldığı bildirilib.

Buna baxmayaraq, Polşa və Baltikyanı ölkələr də daxil olmaqla, bir çox AB dövləti əks mövqedən çıxış edərək Lukaşenkonun sanksiya siyahısına daxil edilməsində israr ediblər.

## *Bayden: Çinə təzyiq göstərəcəm*



**Prezident seçkisində qələbə qazansam, Dalay Lama ilə şəxsən görüşüb, Tibet üzrə xüsusi koordinator təyin edəcəm. Amerikalı diplomatların Tibetə daxil ola bilmələri üçün Çinə təzyiq göstərəcəm.**

Bu sözləri ABŞ Demokratlar Partiyasının prezidentliyə namizədi Co Bayden deyib.

"Müttəfiqlərimizlə təzyiq göstərərək insan haqlarına hörmət və mədəniyyətin qorunması barədə razılaşmalar əldə etmək üçün rəsmi Pekini Tibet nümayəndələri ilə birbaşa dialoqa çağıracam", - Co Bayden qeyd edib.

## *Daha iki şirkət koronavirus vaksininin sınaqlarına başlayır*

**Böyük Britaniyanın GSK və Fransanın "Sanofi" əczaçılıq şirkətləri koronavirus vaksininin kliniki sınaqlarına başladıqlarını elan edib.**



Sınaqlar çərçivəsində ABŞ-ın 11 şəhərində 440 nəfər peyvəndlənəcək. Şirkətlər sınaqların nəticələrinin dekabr ayınadək məlum olacağını bildirib. Bu nəticələr uğurlu olacağı təqdirdə ilin sonunadək sınaqların növbəti mərhələsi başlayacaq.

Qeyd edək ki, hazırda dünyada 20-yə yaxın şirkət vaksin sınaqlarını keçirir.

**MEHRİBAN**



Vahid Qazi

# Bütün reallıqlar xəyallardan doğur

**Mənə xəyalpərəst deyirsiniz yəqin. Elədir, xəyalpərəstəm. Qoşulun, birlikdə quraq xəyallarımızı! 150 il əvvəl Finlandiyanın xəyalpərəstləri bataqlıq bir ölkədə bu gün dünyaya nümunə olası bir ölkəni xəyal etdikləri kimi... Bütün reallıqlar xəyallardan doğur.**

TƏMƏLDƏN BİR DƏ QUR(ul)MAQ... "Ağ zanbaqlar ölkəsi" üzərində xəyal gəzintisi...

Həyətimizdə, gilənarlığın altında iri bir qum topası vardı. Yarım maşınlıq olardı. Uşaqlığın qumla oynayan çağında o qumluqda yol çəkib şəhər salmaqdan xoşum gəlirdi. Əməlli-başlı şəhər olurdu: girişi, enli küçəsi, dalanları, evləri, milis idarəsi… Saatlar çəkərdi şəhərsalma prosesi.

"Şəhər"imə həmin gün dəyməzdim, bir gecə qalardı. Səhər dağıdıb yenisini başqa cür düzəldərdim.

***Bəzən Şuşa yolu kimi dolama yollar çəkir, şəhəri qum təpəsinin başında salırdım. Sonra yol üzüaşağı düz çəpərin dibinə qədər uzanırdı.***

***Bəzən də Bakı bulvarına oxşayırdı düzəltdiyim. Atam Bakıya gəzməyə aparanda görmüşdüm. Uzun "bulvar"ımın qabağında dəniz də olurdu. Suyu vedrəylə daşıyırdım krandan.***

Qış aylarında isə anamın aldığı konstruktor oyuncaqlardan evlər tikərdim. Bir də baxardın mikrorayon salmışam. Ağdamda məscidin yanındakı üçmərtəbə univermaqdan alardı anam onu.

Bir az böyüyəndə daha qumluqda yox, xəyalımda tikərdim tikdiklərimi.

Evimizi azından yüz kərə söküb tikmişəm fikrimdə. Pəncərəsi küçəyə baxırdı. Odur ki, söküb həyətin o başında - milis şöbəsi tərəfdə tikməyi xəyal edirdim. Həm də daha böyüyüb yekə kişi olmuşdum. Ta dizlərimi qucaqlayıb pəncərədə oturan, gəlib-gedənlərə tamaşa edən vaxtım deyildi.

Hər dəfə bir cür alınırdı evim. Yadımdadır, "Baharın 17 anı" filmindən sonra Ştirlisin evinə oxşadırdım onu - Ağdamda bənzəri olmayan bir ev.

İndi İsveçdə evləri görəndə o uşaqlıq xəyallarım yadıma düşür…

***

***Qriqori Petrovun "Ağ zanbaqlar ölkəsi" kitabını təzəcə oxuyub bitirmişəm. Qızım Ayan soruşur nə haqdadır, deyirəm qonşu Finlandiyanın təməldən qurulması, fin xalqının oyanışı, təzədən doğuluşu haqda. Amma kitabdakı ideya elə bizim üçün də keçərlidir deyirəm: bu gün necəyik, sabah necə ola bilərik… Həvəsə gəldi, deyir oxuyacaq.***

Kitab ilk dəfə 1925-ci ildə serb dilində "Həyat qurucuları" adıyla nəşr olunub. Atatürk onu bütün məktəblərin, xüsusən hərbi məktəblərin tədris proqramına saldırıb. Maraqlıdır ki, rusca yazılan kitab türkcəyə bolqar dilindən, fin dilinə də türkcədən çevrilib.

### *Aclığın, səfalətin, xəstəliyin,*

cahilliyin, mənəvi çöküşün, sərxoşluğun, qabalığın hökm sürdüyü bir ölkə təsəvvür edin. Yox, öz sözümlə yazmayım, yaxşısı budur, elə kitabdan misallar verim.

***…Qayalıq yerlərdə yaşayan adamlar kobud yonulmuş və pis hörülmüş daş daxmalarda yaşayırdılar. Qapılar alçaq, pəncərələr kiçikdir. Evlərin damı və pəncərəsi yarıtmaz olduğundan soyuq, yağış, qar evə dolurdu. Şüşə demək olar, tapılmırdı, onun yerinə pəncərəyə əsgi və ya karton parçaları yapışdırırdılar.***

…Soba boruları isə, ümumiyyətlə, yoxdu. Daşdan və gildən hörülmüş ocaq yanır, qalxan tüstü bütün evə yayılır, sonra isə yol tapıb damdakı dəlikdən çıxırdı. Evdəkilərin gözləri acışır, tüstüdən boğulurdular.

…Adamlar eyni paltarda işləyir, yeyir, yatırdılar. İllərlə yuyunmurdular. Döşəkağıların yuyulması belə ağıllarına gəlmirdi. Adamları bit-birə basmışdı.

…Quyular və tualetlər yanaşı olduğundan su çirklənir, yatalaq xəstəliyi üçün zəmin yaranırdı. Uşaqlar arasında dizenteriya, difteriya, qızılca və çiçək tüğyan edirdi. Qidalanma pisdir, əvəzində dəhşətli, eybəcər sərxoşluq hökm sürürdü. Lal-karların, qozbellərin, korların, ağıldankəmlərin, əl-ayağı şikəst olanların sayı-hesabı yoxdu.

…Bir daxmaya girirsən - üç uşaq torpaq döşəmədə uzanıb qızılca çıxarır. Onların arasında yenicə doğmuş qadın xəstəlikdən inildəyir. Ata isə bərk sərxoş halda oturub.

### *…Başqa bir daxmada fərqli mənzərə*

***Ana vərəmin son mərhələsini yaşayır, qanlı öskürək başlayıb. Ata qızdırma içində sayıqlayır. Hər ikisi yerdə, cır-cındırdan ibarət yataqda uzanıb. Onların arasında iki qızcığaz, döşəmədə sürünürlər: birinin bir, o birinin iki yaşı var. Canlı skeletdirlər. Qonşulardan haray yoxdur: belə mənzərəyə öyrəşiblər, üstəlik onların da boğazdan yuxarı çətinlikləri var.***

…Milyonlarla insan çürüyür, eybəcərləşir, içkiyə qurşanır, pis yollara düşür. Xalq təməlinədək dağılır.

Bunlar 150 il öncənin Finlandiya mənzərələridir. Məhz o vaxt, xalqın və ölkənin fin bataqlıqlarında məhv olduğu zaman Snelman və dostları meydana atıldılar.

Yohan Vilhelm Snelman yazıçı, filosof, ictimai fəal, dövlət xadimi, fin milli oyanış hərəkatının ideoloqudur. Finlandiyada bugünkü rifah cəmiyyətinin qurulmasına səbəb olan milli ideologiyanın yaradıcısı. Doğum günü - 12 may ölkədə Bayraq Günü kimi qeyd edilir.

***O dövrün əsl vətənsevər ziyalıları Snelmanın başına yığılıb ölkənin elit təbəqəsinə - şəhər əhlinə, siyasətçilərə, elm, incəsənət, mətbuat adamlarına çağırış etdilər: "Nə qədər gec deyil, ölkəni və xalqı xilas edin. Xalqın içinə gedin. Onları müalicə edin, savadlandırın, tərbiyələndirin. Onlara ev tikməyi, təsərrüfat qurmağı, …insan kimi yaşamağı öyrədin. Onların dəhşətli həyatı əhalinin yüksək təbəqəsinin biabırçılığı və cinayətidir".***

Snelman ölkə ziyalılarına müraciətində deyirdi ki, ağayana paltar, nişastalı yaxalıq və ya son dəbli şlyapa ziyalı olmaq deyil: "Ziyalılıq - xalqın beynidir. Xalq sizi, təhsil alandan sonra yaxşı maaş alıb gecələr restoranlarda oturasınız və gününüzü kart və domino oynamaqla keçirəsiniz deyə böyüdüb tərbiyələndirməyib. …Siz xalqın ağlını, iradəsini, enerjisini və vicdanını oyatmağa borclusunuz. …Ziyalı olmanız sizin imtiyazınız deyil. Hakimiyyətə yiyələnmək, şöhrət qazanmaq və tox yaşamaq haqqı da deyil. Ziyalılığınız sizin məsuliyyətiniz və xidmətinizdir."

Bir neçə onillik keçdi, çağırışlar, görülən işlər bəhrəsini verdi. Kitabın müəllifi, rus ilahiyyatçısı və ictimai xadimi Qriqori Petrov ötən əsrin əvvəllərində Finlandiyaya səfər edəndə mənzərə artıq dəyişmişdi:

…Abo şəhərinin bir milyon yüz əlli min manatlıq qazancının təqribən iki yüz min manatı məktəblərin xərci üçün ayrılıb.

**…İngilis zavodlarında poladı döyüb bərkitdikləri kimi biz də öz gənclərimizi məktəblərdə möhkəmləndib həyata hazırlayırıq. Məktəblərimizin köməyi ilə bataqlıqlar və çılpaq daşlıqlar arasında özümüzə yaratdığımız abadlıq və firavanlıqla Rusiyanın başqa yerlərində rastlaşa bilməzsiniz. Məktəblərimizi əlimizdən alın, biz məhv olacağıq. Təhsilin ölkədə belə geniş yayılması nəticəsində əhali oxumağa alınmış, qəzet və kitaba bağlanmışdır.**

### *…Ölkədə qəzetlər*

də məktəblər kimi çox sıx yayılıb. On səkkiz min əhalisi olan Vıborqda ikisi fin, ikisi isveç dilində olmaqla dörd qəzet buraxılır. Kəndlərdə demək olar, hər ailə qəzetlərə abunəçidir.

…Mənə belə bir əhvalat danışdılar. Bir kənddə iki gecəqondu var, ancaq buranın adətincə hər ikisi çox təmizdir. Onların birində hər iki ayağını itirmiş qoca yaşayır. İkinci evdə gözləri görməyən qoca qarıyla on yaşlı nəvəsi qalır. Bu yoxsul və şikəst qocalar şərik olub ikisi bir qəzetə abunə yazılıblar. Nəvə hər gün poçta gedib qəzeti götürür, kor nənəsinin əlindən tutub ayaqsız qocanın evinə gətirir və onlar üçün qəzeti başdan ayağa oxuyur.

Kitabda belə nümunələr çoxdur. Sözümün canı odur ki, Snelman və dostlarının xəyal-ideyaları bu günün Finlandiyasında həqiqət kimi təcəssüm etdi.

İndi Finlandiyanın adı BMT-nin "Xoşbəxtlik haqda məruzə"sində birinci yerdə çəkilir, "Newsweek" jurnalı Finlandiyanı "dünyanın ən yaxşı ölkəsi", ABŞ-ın "Sülh fondu" "dünyanın ən stabil dövləti" hesab edir. Fin təhsil sistemi dünyanın ən qabaqcıl təhsil modeli sayılır.

İnsan hüquqları, gender bərabərliyi, demokratiya, sosial rifah sahəsində dünya öncüllərindən olan Finlandiyanı bu gün qadınların çoxluq təşkil etdiyi (kabinet üzvünün 12-si qadın, 8-i kişidir), 34 yaşlı xanım Sanna Marinin baş nazir olduğu hökumət idarə edir. Parlament üzvlərinin 47 faizi qadındır.

**İqtisadi göstəricilərini sadalayıb sizi yormayım, tək onu deyim ki, 50 min dollarlıq adambaşına düşən Ümumi Daxili Məhsulla Almaniya, Britaniya, Fransa, Yaponiya kimi dünya nəhənglərindən öndədir.**

***

…Xəyallarım indi də bitib tükənmir. İndi təzə bir ölkə qururam, hər gün yeni-yeni çalarlar qatılır mənim alabəzək xəyallarıma.

Xəyalımdakı ölkədə yeni nəsil uşaq bağçasında yıxılanda özü qalxmağı, orta məktəbdə ləyaqətli şəxsiyyət olmağı, universitetdə vətəndaşlığı, ölkə və xalq qarşısında məsuliyyət daşımağı və xidmət etməyi öyrənirlər.

### *Bu insanlar*

özünüidarə mexanizmlərini mənimsəyib ədalət, haqq, hüquq, vicdan təməlləri üzərində bir cəmiyyət qururlar. Dirçəlişə ölkənin ucqarlarından başlayırlar. Ən uzaqları belə yaxın etsinlər deyə yeni paytaxtı Azərbaycanın mərkəzi torpaqlarında tikirlər. Burada kəndlə şəhər rifah baxımdan bir-birindən fərqlənmir. Eynən Skandinaviya ölkələri kimi.

Universitetlər ölkənin əyalətlərinə köçürülür. Dünyanın məşhur universitetləriylə mübadilə-əməkdaşlıq əlaqələri qurulur. Tanınmış brendlər yatırıma tələsir. İri şirkətlərin üzünü əyalətlərə tutmağa şirnikləndirən qanunlar qəbul edilir. Sənayeləşmə, təhsil səviyyəsi ölkə boyunca bərabər bölünsün deyə.

**Yalamadan Astarayacan Xəzər sahili dünyanın ən gözəl kurort bölgəsinə çevrilir. Məşhur Fransız Rivierası kimi, rusların "Lazurnı bereq" ("Lazurnıy bereq") dediyi yer kimi. Dörd bir qitədən insanlar bizim Xəzərə axışır.**

Dünyaya səpələnən soydaşlarımız qərib ömrə son qoyub geri dönürlər. Deyir tək Almaniyada mindən artıq həkimimiz işləyir, ən bacarıqlı biznesmenlərimiz Rusiya çöllərindədir, dünyanın neçə universitetində alimlərimiz dərs deyir. Hamısı Yurda qayıdır.

Şuşa başdan-başa açıq muzeyə çevrilib, adına Şərqin Mədəniyyət Muzeyi deyirlər. YUNESKO hər yay bir toplantısını burda keçirir.

Xəyalımda doğulan bu yeni nəsil dünya mediasının gündəminə düşən caz müsabiqəsini Bakıda, klassik musiqi yarışmasını Gəncədə, kino festivalını Şəkidə keçirir, dünyanın adlı-sanlı yazarlarına ədəbiyyat ödülünü Qazaxda təqdim edir.

İllər keçir və budur, Qarabağı azad etmiş Azərbaycan dünyanın ən firavan məmləkətləri sırasındadır. Yohan Snelmanın Finlandiyası ilə, o biri Skandinaviya ölkələri ilə ilk beşliyi bölüşür…

***

**Mənə xəyalpərəst deyirsiniz yəqin. Elədir, xəyalpərəstəm. Qoşulun, birlikdə quraq xəyallarımızı! Bütün reallıqlar xəyallardan doğur. Bu günün həqiqətləri dünən xəyal deyildimi?!**

**Helsinqborq, İsveç**

---

*Emin PİRİ*

# Xristofor Kolumb cəlilabadlıdı?!



***Kimsə durub düşünəcək ki, bu oğlan bizimlə məzələnir.***

***Ay tövbə, əgər elədirsə. Nədən danışacağımı az qala unudacaqdım. Hə, Kolumbdan danışırdım.***

***Yəqin ki, uşaq vaxtı sizin də böyüklərin iştahla çəkdiyi siqaretə marağınız olub. Əcəba, o necə yaxşı bir şeydi ki, böyüklər onu gün ərzində dəfələrlə çəkir. Dadına bir baxsaydım. Belə dediyim vaxtlarda kəndimizdə əmimin siqaret qutusundan bir neçəsini götürüb nar ağacının altına qaçdım. Elə yandırmışdım ki, qulaqlarımdan kimsə dartdı:***

***-Ə köpəyoğlu, bunu hardan tapmısan?***

***Bu, nənəm idi. Əmimin siqareti olduğunu deyə bilməzdim. Baxmayaraq ki, əmim ailəli bir kişi idi, amma siqaret çəkməsini nənəmdən gizlədirdi. Onun siqareti olduğunu desəydim, sonra əmimin də danlağından canımı qurtara bilməyəcəkdim. Məktəbdə oxumuşdum ki, tütünü Kolumbun Amerikanı kəşf etməsindən sonra gətiriblər. Özümdən aslı olmadan bu dəm `nənə, bunu Kolumb gətirib. Mənim günahım yoxdu.` dedim. Heç bilmədim, iki daşın arasında bunu necə ağlıma gətirib deyə bildim. Nənəm də başladı nə başladı:***

***-Allah Kolumbun evini yıxsın, bizim gül kimi uşaqlarımızı necə pozur. Onun bir böyüyü yoxdu ki, yetimçələrinə nəzarət etsin?!***

***Elə o vaxtdan "xuliqan" Kolumbun əməli qoca arvadların arasında yayıldı. Hamı bir-birindən onu soruşur, tapılmayan Kolumbdan öz nəvələrini qorumağa çalışırdılar. Axırda bir dəfə nənəmə Kolumbun öldüyünü söylədim. Öz qarğışlarına görə çox peşman olmuşdu. Ürəyi yumşaq idi. Elə bilirdi Kolumbu öldürən onun qarğışlarıdı.***

***Sumqayıtda yaşadığımçün təhsilimi bu şəhərdə aldım. Orta siniflərdə oxuyurdum, dərsimiz Kolumbdan idi. Müəllimə hər nitqində bu avropalının məharətindən danışdıqca əsəbləşirdim. O qədər səmimi biriyəm ki, öz uydurduğum yalanlara özüm də inana bilirəm. Düşünürdüm ki, o, Kolumbun vətənini yad ellərdə məklə mənim yerlimə haqsızlıq edir. Axır dözə bilməyib ağlaya-ağlaya yerimdən qalxıb qışqırdım:***

***- Müəllimə, siz səhv danışırsınız, Kolumb cəlilabadlıdı!***

***Çox kövrəlmişdim. Dərsdən sonra müəllimə mənə yaxınlaşıb "Emin, sən haqlısan, Kolumb sənin yerlindi. Amma bu barədə uşaqlara heç nə demə. İmtahanlardasa kitablardakı kimi yaz",- dedi.***

***Bu fikir beynimə batmışdı. Coğrafiyadan yarışlara qatıldım. Tale elə gətirdi ki, suallar daha çox Kolumb və Amerika ilə bağlı olurdu. Beləcə, mən iki il ardıcıl olimpiadaların qalibi oldum.***

***…Amma kəndimizdə bir çox qoca nənələr 20-25 il öncəki sözümə hələ də inanırdılar. Bu yaxınlarda kəndimizə gedəndə hər cəhdimdə bunun səhv olduğunu, uşaq vaxtı bilmədən yalan uydurduğumu isbatlamağa çalışıram. Amma mənə inamırlar. Cavablarısa belə olur:***

***- Ay bala, sən əvvəllər necə saf uşaq idin. Bu şəhər səni necə pozubsa, öz torpağını danırsan.***

***Artıq əlimdən bir çarə gəlmir. Və arabir özüm də bu barədə düşünürəm: uşaq sözün düzünü deyər. Bəlkə...***

---

## Bakıda mənzildən meyit tapılıb



**Bakıda mənzildən meyit tapılıb. Trend-in Fövqəladə Hallar Nazirliyinin saytına istinadən məlumatına görə, Nazirliyinin "112" qaynar telefon xəttinə daxil olan məlumata əsasən, Bakı şəhərinin Nərimanov rayonunda 1 nəfər bağlı qapı arxasında köməksiz vəziyyətdə qalıb.**

Hadisə yerinə cəlb olunan Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq xilasetmə qüvvələri mənzilin giriş qapısını açıb və orada aşkarlanan 1 nəfərin (şəxsiyyəti dəqiqləşdirilir) meyitini aidiyyəti üzrə təhvil veriblər.

# Dost yanğısı, elə can yanğısıdı

**(əvvəli ötən sayımızda)**

Eldar Nəsiblinin fikirlərinin sonrakı dönəminə diqqət yetirək.

***Hopub ürəyimə, keçib qanıma,***
***Bütün göz yaşımı çəkib canına.***
***İndi gün altda da sərib, qınama***
***Quruda bilmirəm bu dərdi, qardaş.***

Bu bəndləri oxuduqca sözün əsl mənasında adamı eldar demiş korun-korun ağlamaq tutur, yanıb yaxılırsan. Onun çəkdiyi əziyyət o dərəcədə mənfi təsirli olmuşdur ki, onu heç nə ilə ovundurmaq mümkün deyildir.

O, azərbaycanda yaşadığı xoşbəxt günləri hətta unutmaq əzmində olmuş-olsa belə, Sibir rəzalətini unuda bilmir ki, bilmir. Şair hər birimizi özünə qardaş bilməklə sonda deyir:

***Hər qanqal tənəyə, gicitikan sözə***
***Öyrəşmək zülümdü, dözmək möcüzə***
***Vallah, ölümlə də gəlsəm üz-üzə***
***Qorxuda bilmirəm bu dərdi, qardaş.***
***Bu dərd ölümdən də betərdi, qardaş***

Bu cür əzab-əziyyətləri 300 ilə yaxındır ki, Azərbaycan xalqı çəkir, elə bil bu zülmü Tanrı da görmür, görürsə nə üçün lənətləmir, layiq olduğu cəzanı vermir, axı bu millətin qəbahəti nədədir?! Düzü mən, bu tarixdən azdan çoxdan məlumatlı olsam da, rusun kimliyini bilsəm də, Tanrını bu məsələdə hələ də dərk etmək qüdrətində deyiləm.

Məni sayağı çarəsiz qalan şair "Heç kəs bu dünyanı tutub qalmayacaq" deyir, insanları doğru yola səsləyir, əsl vətəndaşlıq nümayiş etdirməyi tövsiyyə edir, heç olmazsa ölümdən çəkinməyi anladır.

***Heç kəs bu dünyanı tutub qalmayıb,***
***Hamının ömrünə gələndi ölüm.***
***Zorla yaddaşlara yazılanları,***
***Gəlib yaddaşlardan siləndi ölüm.***

***

***Yiyəsi tarixdir qızıl anların,***
***Tarixi torpaqdır axan qanların,***
***Xalqın ürəyində yaşayanların,***
***Heykəli önündə öləndi ölüm.***

Ancaq bütün bu fəsadların ən yaxşısı elə yaxşılıqdır deyir-şair. O, zorla yaddaşlara yazılanlara səslənir. Bunun da müvəqqəti olduğunu xatırladır. Vaxt öz sözünü deyəcək.Əsas odur ki, xalqın ürəyində yaşayasan, ona nail olmasan, yaxud olmaq istəməsən onsuzda xalq sənin heykəlini də özün kimi yer üzündən siləcək, elə Lenin, Stalin kimi, bolşeviklər kimi, kommunistlər kimi.

Bu fikrini şair "keçibdir" adlı şeirində də davam etdirir, həyat reallıqlarını özünəməxsusluqla canlandırır.

***Bilən-bilir, bir qaladır söz hörgüm,***
***Qismətimə gah el düşüb, gah sürgün.***
***İnnən belə sanılıdır ömür, gün***
***Qocalıban qarımaqdan keçibdir.***

***

Daha sonra Eldar Nəsibli hər kəsi ayıltmış kimi, insanları kişi kimi yaşamağa çağırır, ancaq kişi kimi yaşıyanların adlarının



tarixdə xatırlandığını söyləyir, hər papaq qoyanı kişi saymır, bəzilərinin papaqlarının özlərindən dəyərli olduğunu bu tip insanların gözünə dürtür.

***Papağı başından baha olan kəs,***
***Hələ papaq qoymaq kişilik deyil.***
***Özgə zəhmətiylə cibi dolan kəs,***
***Cibi həyat saymaq kişilik deyil.***

***

Həyatda azdan-çoxdan yaşayan hər kəs şairin doğru olduğunu qəlbində də olsa etiraf etməlidir.

Hamı bilməlidir ki, hansı yolla və necə qazanc əldə etməkdən asılı olmayaraq, insan hər şeyi bu dünyada qoyub, əsl məkanına yollanır. Şair bu fikrində də israrlıdır.

O, fikrini saxlamaqla deyim tərzini dəyişir, isnanlara həyat oyununa aldanmamağa çağırır və torpaq üstündə var-dövlətlə seçilmək istəyənlərə-torpaq altında seçilməyəcəklərini bildirməklə, naqis insanları kişi kimi həyat tərzi sürməyi bildirmək istəyir.

***Eh... kiminə oyun gəlir namus, ar,***
***Kimini də yoldan edir sərvət, var.***
***Torpaq üstə fərqlənsə də adamlar,***
***Torpaq altda seçilmir ki, seçilmir.***

***

Eldar Nəsibli çoxdərdli şair olmuşdur. Ümumilikdə şairlərin bir qismi eşq-məhəbbət mövzusundan daha çox el dərdinə qalırlar, onların ağrısı-acısı ilə yaşayırlar ki, bunlardan biri də Eldar Nəsiblidi. Elinobanın elə bir dərdi-səri yoxdur ki, Eldasr ona öz ziyalı münasibətini bildirməsin. Onlardan biri də Qarabağ mövzusudur, yenə də erməni-rus cütlüyünün yaratdığı faciələrdir, sapı özümüzdən olan baltalara münasibətdir, nifrətdir və sonda da kədərdir.

O, "Dünyaya baxıram" şeirində bu mövzuya toxunub və ondan bir bəndi burada vermək istəyirəm.

***Döyüşdə mərdlərin pozulub səfi,***
***Harda ki, xəyanət durub qəsdinə.***
***Birinin sarayda çəkdiyi kefin,***
***Ağrısı bir xalqın düşüb üstünə.***

***

Qarabağ müharibəsi iştirakçısı olaraq tam məsuliyyətimlə bildirim ki, Eldar Nəsibli çox haqlıdır. Döyüşən, əziyyət çəkən, xalqına tam səmimi olaraq xidmət edən insanlar bir çox haqlarından məhrum oldular. Əziyyətləri el demiş əldə qaldı, zəhmətinin bəhrəsini görmədi, vətən torpağı olan Qarabağ ermənilərdə qaldı, tökülən qanların kəsilən başların son yekunu bəzi kreslobazların alçaqlığı, satqınlığı ucbatından əldən çıxdı.

Eldar Nəsiblinin azadlığı qan bahasına, faciələr bahasına əldə etdiyimiz bütün ağrılı-acılı hadisələrinə həsr etdiyi əsərləri, ürəkləri göynədən göynəmələrin hər birinə aid dəyərləi şeirləri çoxdur.

Bu mövzuda "Dəyməz bu dünyada yaşamağına başlıqlı şeir toplusu diqqət çəkəndir.

***Öz qala yurduna qəlb qıymadınsa,***
***Daşının üstünə daş qoymadınsa,***
***Dünən şəhidlərin qanı tökülən,***
***Torpağın üstünə baş qoymadınsa,***
***Dəyməz bu dünyada yaşamağına.***

Qəddar və hiyləgər düşmən tarixin bizim üçün döngəli məqamlarında həmişə kürəyimizə xəncər saplayıblar, var-yoxumuzu talayıblar, gənclərimizi, qocalarımızı, qız-gəlinlərimizi təhqir ediblər, eybəcər işgəncələrlə bizləri qətlə yetiriblər, ən ağrı isə ana vətənimizi işğal ediblər, özünüküləşdiriblər, ata məskəni kimi mənimsəyiblər.

Bütün bunları öz varlığı ilə dərk edən, yanan, yaxılan vətənpərvər dostumuz Eldar Sibirel, öz düşüncələrini bizlərlə beləcə bölüşür.

***Baxma o dağların bəyaz qarına,***
***Baxma bu bağların solmaz barına,***
***Azad yurd qalmasa, vətən qalmasa,***
***Əgər səndən sonra övladlarına,***
***Dəyməz bu dünyada yaşamağına.***

Mən həmişə öz payıma bu itkidən, bu ağrıdan çox mənəvi əziyyətlər çəkmişəm, heç kimə bir kəlmə deməsəm də, içimdə xeyli xəcalət də çəkmişəm. Haqqında xeyli araşdırmalar apardığım böyük oğul Şah İsmayıl Xətaini, onun yaratmış olduğu Səfəvilər dövlətini düşünmüşəm. Axı o da, biz də Azərbaycan torpağının övladlarıyıq. Necə olur ki, gənc bir oğlan vətənin bütün torpaqlarını ayrı-ayrı dövlətlərdən geri qaytara bilir, əzəmətli və tarixi bir dövlət qura bilir, bizlər isə bir-birimizlə didişir, xırda, mənasız hisslərlə yaşayırıq, bəzən də pula-mala vətəndən daha çox üstünlük veririrk. Qanan üçün, əsl ziyalı üçün, əsl vətən oğlu üçün, qeyrətini udmayanlar üçün torpaq dərdi ağır və faciəvi dərddir. Eldar Sibirelin bu hislərlə yaşamasının da şahidi olmuşam. Amma nə fayda -nə onun, nə mənim və nə də milli qeyrətli insanlarımızın əməyinin, zəhmətinin bəhrəsi olmadı. Torpaq itkisi ilə yanaşı həyatda layiq olduğumuz dəyəri də ala bilmədik. Eldar Nəsibli bir çox ədalətsizliklərdən, dövrümüzün çatışmamazlıqlarından bəlkə də dünyasını dəyişməklə yaxasını kənara çəkdi, qalanlarımız isə bu mənəvi dəhşətlərdən göz görə-görə qovrulmaqdadırlar. Ancaq hesab edirəm ki, mənəviyyatklı insanlar dünyalarını dəyişdikdən sorna da ruhi-psixoloji sarsıntılar keçirirlər, ruhən çox narahatdırlar.

**Ümid edək ki, bizim düşüncələrimiz Tanrı tərəfindən eşidiləcək, haqqa-ədalətə gec də olsa dəyər veriləcək, Azərbaycan türkü Şah Xətai kimi bir igidimizin ətrafında toparlanacaq, rus-erməni kimi bir milli düşmənlərimizin cavabı layiq olduqları səviyyədə veriləcək, Qarabağla yanaşı digər itirilmiş torpaqlarımız bir hakimiyyətdə cəm olacaq, işğal altındakı torpaqlarımızda və digər qərib məkanlarda uyuyan ata-babalarımızın, şəhidlərimizin çarmıxa çəkilmiş ruhları dərindən nəfəs alıb oxxay deyəcək və doğma torpaqlarımız üzərində ləyaqətlə yaşamış Eldar Nəsibli kimi ziyalıarımız, mərdlərimiz xəcalət kölgəsindən azad olacaqlar!...Amin!**

**Ziyadxan Nəbibəyli**
**AYB-nin və AJB-nin üzvü,**
**Qarabağ Müharibəsi Veteranı,**
**Kanada və Rusiya Texniki**
**Akademiyalarının, Rusiya Təbiət**
**Elmləri Akademiyasının həqiqi üzvü,**
**Yazıçı-publisist, t.e.d professor**

# Naxçıvanda hərbi qulluqçuların və ailə üzvlərinin sağlamlıqlarının qorunması diqqət mərkəzindədir

**Naxçıvan Qarnizonu Qoşunlarında xidmət keçən hərbi qulluqçuların və ailə üzvlərinin sağlamlıqlarının qorunması işi daim diqqət mərkəzində saxlanılır.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq hazırda tikinti işlərinin aparıldığı və MDB məkanında ən böyük hərbi xəstəxanalardan olacaq Naxçıvan Muxtar Respublikası Mərkəzi Hərbi Hospitalını misal göstərmək olar. Bir məqamı da qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2018-ci il mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsində yeni hərbi xəstəxananın açılışında iştirak etməsi dövlət qayğısını hər zaman üzərilərində hiss edən hərbi qulluqçularımızda böyük ruh yüksəkliyi yaradıb.

Tibbin ən son nailiyyətlərindən olan avadanlıqlarla təchiz edilmiş hərbi hissələrin xəstəxana və tibb məntəqələrində müxtəlif bölmə, kabinə və laboratoriyalar fəaliyyət göstərir. Bütün hərbi xəstəxanalarda şəxsi heyətə ilkin tibbi yardım göstərmək üçün sarğı, prosedur və təxirəsalınmaz yardım otaqları mövcuddur. Müalicə və müayinə olunan hərbi qulluqçuların qidalanması və asudə vaxtlarının səmərəli təşkili diqqətdə saxlanılır. Hərbi tibb personalı yaradılan hərtərəfli şəraitdən istifadə edərək hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstərmək üçün əllərindən gələni əsirgəmirlər.

İstər həkim, istərsə də orta tibb işçilərinin peşəkarlıqlarının artırılması məqsədilə hərbi tibbi hazırlıq üzrə məşğələlərlə yanaşı təkmilləşdirmə kursları da keçirilir. Təxliyə qruplarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində müasir təcrübənin öyrənilməsi və tətbiqi daim diqqət mərkəzindədir. Naxçıvan Qarnizonu Qoşunlarında keçirilən birgə döyüş atışlı taktiki və taktiki-xüsusi təlimlərdə tibb təminatının yüksək səviyyədə təşkili üçün hərbi həkim heyəti praktiki fəaliyyətlərə cəlb edilir. Təlimlər zamanı peşəkar tibb personalı döyüş meydanından yaralıların səhra şəraitində açılmış tibb məntəqəsinə təxliyəsini və tibbi yardımın göstərilməsini məşq edirlər.

Muxtar respublika ərazisində koronavirus infeksiyasına qarşı aparılan zəruri qabaqlayıcı profilaktik tədbirlər çərçivəsində Naxçıvan Qarnizonu Qoşunlarında tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər gücləndirilərək sanitar-gigiyenik vəziyyət nəzarətdə saxlanılır.

**Şəxsi heyətin sağlamlığı vacib amil olduğundan hərbi hissələrin xəstəxana və tibb məntəqələri bütün tibbi ləvazimatlarla təmin edilib və hərbi qulluqçuların gigiyena qaydalarına düzgün əməl etmələri üçün profilaktik tədbirlər görülür. Həyata keçirilən sanitariya-gigiyena, əks-epidemik rejimlərin tələblərinin yerinə yetirilməsi və dezinfeksiya işlərinin nəticəsidir ki, hazırda dünyanın mübarizə apardığı xəstəliklərdən uzaq olan hərbi qulluqçularımız "Təlimdə tər, döyüşdə zəfər" prinsipi ilə real döyüş şəraitində keçirilən təlimlərdə bütün tapşırıqları peşəkarcasına yerinə yetirir və ayıq-sayıq döyüş növbətçiliyi aparırlar.**

# Torpağın bizi çəkdiyi yerdə...




*AY Bəniz Əliyar*
*AYB-nin üzvü, şair*


*Torpağın bizi çəkdiyi yerdə..*
*Dərviş Yunus, ye, yedir.*
*Bir könül ələ gətir,*
*Yüz Kəbədən yeyrəkdir.*
*Bir könül ziyarəti…*

**Yunus Əmrə**

**"Ya bağda, ya Bağdadda, yatan başını qoymağa yer tapar" deməndən yenə yola düzəldik, bu dəfə bizimki daha çox bir könülü ziyarət etmək istəyi idi. Bu il çox ağır gəlmişdi. 2020-ni deyirəm. Bu da avqust ayı, ilin-günün belə vaxtları, üzü payıza... Qış da deyil, biləsən ki, üzü yazadı... Sanardın ki, bizim üçün "ho hoyuyub, cüt soyuyub..." Elə bil insanların əli yerdən üzülüb, göylərə tapınmağa başlayıblar. Hardansa, yadımıza düşüb ki, göylər də vardı üz tutmağa... Belə bir məqamda insanın içindən dua etməsi gəlir. Dua bilməyən insan da əllərini qoşalaşdırıb üzünə tutur, ovcuna bərəkət, ovcunda olan-qalan nəydisə... Quranı başdan-ayağa bilməsək də başından, ayağından bir surə əzbərimizdə var, vird edirik çətinə düşəndə. Ulu babaların dilindən hopmuşdu yaddaşımıza... "Əslin danan haramzadadır" deyiblər axı. Bircə qalırdı üz tutduğumuz ziyarətgahda özünü tapmağa.**

Yol köhlən at kimi toz-tozanaq qoparırdı.
Yol yaddaşa söykənəcək...
Yol ümidlərə sərhəd...
Yol bəzən də ürəyinlə səni danışdıra bilən yeganə boşluq...

### *Dünyanın gözü qabağında*

sənə tərəf qanadlanan bir tarix varağından qopardığın bilgilərdən səndə qalanıdı Sənin olan... Ziyarət ideyası ilk əvvəl birinci Dostdan gəldi. Könlünün ziyarətinə getdiyimiz dost idi. Könül qapıları bizə daim açıq olan İnsan idi! Yolların ipini əlimizə alıb dolaşdırmadan ömrün bu gününü toxumağa başlayacaqdıq. Hansı rənglərlə, ştrixlərlə gün bizə görünəcəkdi, bilmirəm, başa gələni yaşayacaqdıq. Ünvan bəlli, istək təbii, ürəklər halallıqla qədim binə olan dağlar kimi vüqarlıydı. Bu səfər boyu ikinci Dost jurnalist idimi, tarixçi idimi, bilənmədik, hansı yola dönürdün, hansı daşa toxunurdun, tərcümeyi-halını əzbərindən deyirdi. Hər belə olanda da "Yaz da bunu", deyirdi birinci Dost. O da əlbəəl "Yazmışam" deyirdi, həmən dalısıyca da hansı kitabında verdiyini, nəşr etdirdiyi o kitabın adınacan, yığıldığı mətbəəsinəcən vurğulayırdı. Adama elə gəlirdi ki, ikinci Dostun indiyə qədər haqqında yazmadığı adam-insan, daş-kəsək qalmayıb. Burada hünər lazımdı ki, tarixçilərin yazmadığını üzə çıxarıb tapıb yazasan. Mən də dəmir çarığımı geyib, bunun üçün düşmüşdüm dostlarımın dabanına...

Günəş daha əvvəlki kimi adamı qovurmurdu. Avqust ayı olsa da bir neçə gün öncə yağan yağışlar havanın yandırıcı yükünü azaltmışdı. Hələ ki, rayon mərkəzindən uzaqlaşıb üzünü dağlara səmt tutsan, hava əməlli-başlı soyuyur, külək güclənirdi. Türbəyə gəlib çatmışdıq. Burada nə zamansa böyük bir kənd olmuş, yerində xarabalıqları qalmışdı. Qəbirstanlıq isə yuxarıdakı təpədə qalmaqda idi. Baş daşları toxunulmaz sayıldığı üçün idi ki, bəlkə də, heç kim ürək edib onlara toxunmamışdı. Türbə üzü dənizə tərəf, ön tərəfi dağılmış, içində bir balaca taxçası hələ də qalmaqda idi, özü də qədim daşlardan hörülmüşdü. Yəqin ki, şeyxin cəsədinin sümüklərini burdakı məzardan çıxarıb aparandan sonra daha bura boş qalmış, türbənin qorunması da lazım bilinməmişdi. "Şeyxin sümükləri burdan aparılsa da canı-qanı bu torpağa hopub qalıb" - birinci Dostun söylədiklərinə sükut içində olan ikinci Dost başını tərpətməklə cavab verdi bu dəfə. Ağır və təsirli idi, həqiqətən də bunu düşünmək adamın düşüncələrində bir başqa dünya açırdı.

İkinci Dostun hələ 1996-cı ildə "Mütərcim" nəşriyyatında 2 min sayla çapdan çıxdığı bir kitabı əlimə düşdü: Aydın Tağıyev. "Tarixlər şahidi cavan Siyəzən" Yolboyu Aydın müəllimin danışdıqlarını, bizim də huş-cuşla qulaq asdıqlarımızı sözümün bu yerində o kitabdan sətirlərə köçürürəm.

***... Bu türbə Şeyx Cüneydin oğlu Şeyx Heydərin idi. Səfəvi şeyxlərindən Ərdəbil hakimi Şeyx Cüneyd Azərbaycan dövlətinin birliyi uğrunda hərbi yürüşlər etmiş, 1460-cı ildə Şirvanşah I Xəlilullahın qoşunları ilə Samur çayı sahilindəki döyüşdə şəhid olaraq Yarqun kəndində (indiki Həzzə kəndi, Qusar) dəfn edilmişdir.***

Şeyx Cüneydin oğlu Şeyx Heydər atasının Azərbaycanı vahid bir dövlətdə birləşdirmək siyasətini davam etdirmək uğrunda 1488-ci ildə Şahdağın ətəklərində şirvanşahlarla döyüş meydanında həlak olmuş, müridləri tərəfindən xəlvəti Beşbarmaq dağının arxasında dəfn edilmişdir. Uzun zaman yeri gizli qalan bu məzarı sonralar oğlu Şah İsmayıl Xətai Şirvan yürüşləri zamanı axtarıb taparaq üzərində türbə tikdirmişdir.

### *Türbə üzərindəki daş kitabə*

***tarixçilər tərəfindən maraqla qarşılanmışdır. Əhəng daşı üzərində üç sətirlik kitabədə süls elemetli nəsx xətti ilə bu cümlə həkk olunub: "Böyük məzar Allah yolu ilə gedənin müqəddəs şəhidgahı, həqiqət yolu yolçusunun qəbri hikməti Quran dininin həqiqət adlanan şeyxi Şeyx Sultan Cüneydin oğlu Şeyx Sultan Heydərindir."***

Yazılı ağır daş təqribən 150 metrə qədər dərinliyi olan bir dərənin uçurumunda, qayanın üzərində hörülmüşdür. Kitabənin mətnindən göründüyü kimi, səfəvilərdən Şeyx Heydər Tıxlar kəndindən şimal-şərqə tərəf Beşbarmaq dağının arxasında gizlicə dəfn olunmuşdur. Sonralar Şeyx Heydərin oğlu Şah İsmayıl Şirvanı alandan sonra atasının qəbri üzərində türbə tikdirmiş və məzarın ziyarətgah olunmasını elan etmişdir.

### *Şah İsmayıl*

***türbəyə xidmət etmək məqsədi ilə Zərgərli tayfalarından buraya Şeyx və xidmətçilər köçürüb gətirtmişdir, bu şeyxlər nəsillikcə türbənin saxlanmasına xidmət etmişlər. Şah İsmayıl tərəfin-dən burada salınan kənd elə o vaxtdan Şıxlar adlanır.***

"Getdiyin yer, ziyarətində olduğun ocaq səni sevə də bilər, sevməyə də... Nə qədər müqəddəs yermiş burası... Ziyarətinə gələnə fərahlıq gətirir..."- birinci dost əlini daşlara toxundurduqca dediyi bu sözlərlə sanki elə türbənin çoxdan dili-ağzı bağlanmış lal divarlarını danışdırmaq istəyirdi.



Tarixin dilidir daşlar, bəlkə də elə tarixin özü ilə dioloq yaratmaq istəmişdi birinci dost. İkinci dost da öz aləmində idi. O da, yəqin ki, çoxdankı arzusu haqqında düşünürdü, xəyallarında Ərdəbiləcən gedib gəlmişdi. Ürəyini oxumuşdum deyəsən, qayıdıb dostuna deyə ki, bəs Ərdəbilə gedəndə bu daşlardan birikisini götürüb aparmaq istəyirəm. "Daş ağır olar, sən elə ən yaxşısı bir ovuc torpaq götür."- qardaş qardaşa bu məsləhəti verməz, amma indi dost dosta dedi... Ağlabatan idi.

İndi nə qalıbdısa elə torpağın özündə qalmışdı... Elə Şeyxin də son nəfəsi, əti, canı, qanı bu torpaqda qalmışdı. Sümükləri arınıb, təmizlənib aparılıbmış yəqin. Yoxsa dostların bu torpaq ovuclama hikməti nədən doğa bilərdi ki?

Üzü Sərəki yaylağına qalxacaqdıq. Bu ikinci Dostun ideyası idi. Yazdığı ssenariyə bir vaxt kino çəkilişləri məhz həmin yaylaqda olubmuş. Az.Tv-də işlədiyi günləri də yol boyu arabir xatırlayırdı.

***Bu dağların kor bulaqlarından, bulanıq nohurlarından, hələ də yaşıllığını saxlayan qamışlıqlarından, qonaq üzü görməyən, qonaq axtarmayan boz küləklərindən keçdik. Böyürtkən kollarından böyürtkən dənlədik, dağların təbiətinə uyuşmuş cır alça ağaclarının da meyvələri üstündəydi. Nəhayət, ətrafı ağaclarla süslənmiş, bəlkə də, elə ona xatir cərgələnmiş və düzümünü saxlamış ağaclarla əhatəli bir bulağın başına çatdıq.***

Yaylağa gözəllik gətirən bulağın üstündə əl-üzümüzü yuyub sərinlədik. İkinci Dost xiffətlə xatırladığı kimi gəncliyinin, Az.Tv-dən yaddaşında qaldığı illərdəki kimi deyildi yaylaq. Deyəsən birinci Dost da bunu hiss etmişdi. Zarafatyana "Dostum, gənclikdə hər yer bir başqa görünür." söylədi. Doğrudan da, zarafat bir yana, insan gəncliyində yaşadıqlarını nə zaman geri dönüb yaşaya bilər ki? Ona görə deyiblər də: "Gənclik özü elə bir gözəllikdir."

### *Bulaq Böyük Vətən müharibəsində*

həlak olmuş Zərgərli oğullarının xatirəsinə, məşhur cərrah, professor Abasov Bəybala tərəfindən çəkilmişdi. Yaxınlıqda üç-dörd ev gözə dəyirdi. Əgər onlara ev demək olarsa... Birinin həyətində iri armud ağacı varıydı. Bu qoca armud ağacının altında elə ağac qədər yaşı olan bir ağsaqqal, deyəsən, həyətdəki toyuq-cücəsini dənləyirdi. Tək yaşadığı hər halından bəlli idi. Yanaqları dağda yaşayan adamlara xas olaraq qızarmış olsa da beli xeyli bükülmüşdü. Bir şey də gözümüzdən qaçmadı. Kişi bizimlə salamlaşanda bizə yox, hardasa uzaqlara salam verirdi elə bil. Kişi o dünyadan xortdayıb çıxmış kimi müəmmalı və yatmaqdan yorulmuş kimi də əzgin görünürdü. Bu, mənə də qəribə gəlmişdi.

***Birinci Dost sözü armud ağacına çəkdi. İki il idi ki, bar vermirmiş. Başqa bir sual da münasibəti saxlamaqdan ötrü idi. "Niyə bu gözəl ab-havası, ormanı olan bir yerin arı pətəkləri olmasın?" Qocanın baxışları uzaqlarda olsa da dəqiq qulağı bizdə idi. Dağlardan ayı hücumu olurmuş. Yəqin qoca arı saxlamağa da cəhd edibmiş. Armud ağacında armud ola, kölgəsindəki pətəkdə də bal, ayı daha hücum etməyib neyləsin axı? Həyətdəki bostanın da urvatı qalmamışdı.***

### *Günəbaxanlar günəşdən küsmüş kimi*

az qala yerə çöməlmişdilər. Dağ küləkləri belləri qırmışdı... Çəpər qapısının ağzı böyürtkən kollarıyla doluydu. Kolların üstündəki böyürtkənlər də öz yerində. Qoca onlara necə iştahla baxdığımı hiss etmişdi. Kolları bir dəqiqənin içində çırpışdırıb böyürtkənlərini nəlbəkiyə doldurmağı ilə bizə uzatmağı bir oldu. Nahardan keçmişdi. Yol yaman uzun olmuşdu, hələ yamanca acmışdıq da. Seçdiyimiz bir yekə daşın üstünə süfrə salmağı düşünürdük. Birinci dostun yol azuqəsindən, ikinci dostun xatirə boxçasından əl-qaf edib geri dönəcəkdik. Dönməyinə dönəcəkdik, amma meşənin bu yerində sizə yadıma düşən bir rəvayəti danışım. Rəvayətdə deyilənə görə, meşədə bir gün böyük qonaqlıq olur. Yeyib-içməyin qızğın yerində içki bitir.

***Meşənin aslanı üzünü tısbağaya tutub deyir ki, get filan yerdən, filan daşın altından filan içkini gətir. Az keçir, çox keçir, tısbağanın qayıtmadığını görən aslan başlayır onun dalısıyca söyməyə. Elə bu dəmdə tısbağa başını kolluqdan çıxaırb deyir: "Getmərəm haa..." Bizim də bu meşədə başımıza gələnlər elə özümüz üçün qalsın, yamanca üşüdüb geri dönməkdəydik ki, yolumuzu bu dəfə daha kəsə yerdən saldıq. Üzüaşağı dağlardan enəndə ətraf ovuc içi kimi görünürdü.***

Füsunkar mənzərə tablo kimi insanı valeh edirdi. Yaylağın qoynuna səpələnmiş qoyun-keçi sürüləri də bu gözəlliyə ayrıca rəng qatırdı. Bu dəfə maşını saxlatdırıb sürüyə tərəf yeridim ki, bəlkə bu gözəlliyi fotoaparatın yaddaşına köçürə bilim. Bunu görən çoban qardaş tez xəbərdarlıq elədi, sürüdə itlər varmış. İt adını eşidib, qardaşdan çomağın istədim, verdi, əminəm ki, bir keçi də istəsəydim halallıqla verərdi. Bu dağın başında, əynində kostyum çobanlıq edən gənc adam görürdüm. Bir qalstuku əksikdi. Kimliyini, adını soruşdum. Qürurla "Dağlıyam", dedi, adı Faiq idi. Keçiləri məni görüb qaçsa da, itləri də üstümə hürmədi. Maşında bunu dostlara danışdım. Dostlardan biri gülümsündü: "Yəqin qonşu kənddə sevdalısı var."- dedi. Bu niyə mənim ağlıma gəlməmişdi? Boynuma alım ki, bir xeyli sevinmişdim. Maşın irəliləyirdi, biz gedirdik. Biz getdikcə buludlar da gedirdi, buludlarla bərabər yer üzünə qonmuş kölgələri də dağlar boyunca sürünürdü. Həmin kölgəlik yerini buludların kölgəsi olduğunu bilməsəydin, sanardın ki, kölgə deyil, nə zamansa ot-ələfi yanıb qaralmış torpağın öz rəngidir. Amma kölgələr yeridikcə, baxırdın ki yox, bu dağları Tanrı özü qoruyur, şükür hələ, od-alov ağzına alıb yandırmayıb.

Hər daşın qulağına bir bənd şeir pıçıldayıb geri dönürdük.

Hər şəkildən də bir şeir qazancım vardı...

Həmin gecə gözümüzə yuxu getməyəcəkdi.

Həmin gecə, avqustun 13-də gecə səmada bu yayın ən böyük ulduz yağışı- Perseid meteor axını müşahidə ediləcəkdi. Perseid meteor axını Şimal yarımkürəsinin gecə səmasında "düşən ulduz" kimi təzahür edən ən gözəl və məşhur kosmik hadisədir.

**Ulduz axanda arzu tutmaq kimi bir ənənəmiz vardı uşaq olarkən.**

**Həmin ənənəyə inanmışdım. Amma heç zaman ulduz axını görməmişdim. Bu da bu günə qismət imiş.**

**Mübarək günmüş, dostlar!**

## *Kütləyə nəyi verəcəksən, onu da qəbul edəcək*



**Kütləvi olaraq mətnlərinin tərkibi vulqar tipli olan mahnıların yayılması, sevilməsi, bayağı mahnıların cəmiyyətin zövqünü korlamasına ziyalıların, ictimai xadimlərin etirazı artmaqda davam edir. Bu cür təhlükəli tendensiyaya etiraz edənlərdən biri də tanınmış bəstəkar, şairə Xanım İsmayılqızıdır. O, adalet.az-a açıqlamasında bildirib ki, zövqü dəyişmək müğənnilərimizdən asılıdır.**

"Keyfiyyətli əsərin keyfiyyətli oxucusu, dinləyicisi, tamaşaçısı olmalıdır. Təəssüf ki, hər mənada bayağılıq get-gedə artmaqdadır və bunun qarşısını almaq da olmur. Gözəl şairlərimiz, bəstəkarlarımız var. Amma mahnının taleyi müğənnidən asılıdır. Müğənnilər yaradanlarla xalq arasında vasitəçidir. Zövqü dəyişə bilmək müğənnilərimizdən, ifaçılarımızdan daha çox asılıdır. Bayağı, eybəcər, mənasız sözləri, musiqiləri repertuarlarına daxil etməsələr, sevə-sevə sevdirməsələr, kütləni düşünməyə məcbur etsələr bəlkə bu vəziyyəti dəyişmək mümkün olar."

Bəstəkarın söylədiyinə görə, cəmiyyətə nəyi təqdim etsən, onu da sevəcək.

**"Baxın, əslində göbələkdən hazırlanan yeməklər dadlıdır. Amma, göbələyin yeməli növlərinin arasına zəhərlisi düşəndə, necə bişirilməsindən və süfrəyə necə təqdim olunmasından asılı olmayaraq zəhərlənmə verəcək. Deməli, yığan, alan, çatdıran, bişirən səriştəli olmalıdır. Təxminən eyni vəziyyətdir - kütləyə nəyi verəcəksən, onu da qəbul edəcək. Bir ovucpisi yaxşıdan, mənalını mənasızdan seçən var."**

**Emin Piri**

# AŞIQ-SAZBƏND

**On ildən artıqdır ki, onu tanıyıram. Sadə və səmimi insandır. Bu səmimiyyət bizim münasibətimizə də sirayət edib. Tez-tez görüşmək imkanımız olmasa da, hər görüşümüz unudulmaz bir xatirəyə çevrilir. Özündən və sənətindən danışmağı sevmir. Hər yerdə özünün və sözünün yerini bilir, ləyaqətini qoruyur. Çünki yaxşı bilir ki, yalandan şöhrət, ad-san olmur. Unudulmaz xalq şairi Osman Sarıvəlli demiş, "şan-şöhrət dalınca qaçmaq əbəsdir, ləyaqətin varsa, tapallar səni".**

Sənətdən söz düşəndə daha çox ustadlardan və sənət dostlarından söhbət açır. Hər sözündən, hər kəlməsindən saflıq, səmimiyyət yağır. Otuz ilə yaxındır ki, doğma yurdundan, isti ev-eşiyindən didərgin düşsə də, o dağların saflığını qoruyub saxlaya bilib.

...Atlıxan Xanlar oğlu Alxanov 1954-cü ildə Laçın rayonunun Ağbulaq kəndində kolxozçu ailəsində anadan olub. 1971-ci ildə orta məktəbi bitirib. 1973-cü ildə o zamankı sovet ordusunda qulluq etmək üçün hərbi xidmətə çağırılıb. 1975-ci ildə hərbi xidmətini başa vuraraq doğma yurda qayıdıb, burada əmək fəaliyyətinə başlayıb. Dağ kəndində başqa bir müvafiq iş yeri olmadığından bir müddət kolxozda çalışmalı olub. Qəlbindəki arzular isə onu daha böyük məkana səsləyib. Odur ki, özünün gələcəyi ilə bağlı arzularını reallaşdırmaq üçün Bakıya gələrək burada fəhlə işləyib. Eyni zamanda təhsilini davam etdirmək qərarına gəlib və 1977-ci ildə Bakı Bədən Tərbiyəsi Texnikumuna daxil olub. 1979-cu ildə texnikumda təhsilini başa vurduqdan sonra təyinatla yenidən Laçın rayonuna - doğma Ağbulağa qayıdıb. Bu dəfə müəllim kimi! Ağbulaq kənd orta məktəbində pedaqoji fəaliyyətə başlayıb və uzun illər burada çalışıb. Laçın kimi bir diyarda dünyaya gəlib, təbiətin qoynunda boya-başa çatıb da, saza-sözə vurulmamaq, sənətə biganə qalmaq olmaz. Elə Atlıxan da hələ ilk gənclik illərindən aşıq sənətinə böyük maraq göstərib. İllər keçdikcə bu maraq nəinki azalıb, əksinə getdikcə daha da artıb. Bu marağı görən həmyerlisi, bu gün ustad aşıq kimi tanıdığımız Cabbar Cabbarov onda sənətə daha böyük həvəs oyadıb, özünə saz almağı məsləhət görüb. Aşıq Cabbarın təkidi ilə özünə saz alıb Atlıxan. İlk dəfə saz çalmağı Vaqif Həsənovdan öyrənib.

***Bakıda təhsil aldığı illərdə eyni zamanda aşıq sənətinin incəliklərini öyrənməklə də məşğul olub. Dövrün tanınmış aşıqları ilə tez-tez ünsiyyətdə olub, saz-söz məclislərində iştirak edərək, ustadlardan sənətə dair dəyərli məsləhətlər alıb, tövsiyələrinə əməl edib. O illərdən söz düşəndə ən çox aşıq Aydın Çobanoğlunu xatırlayır, ondan çox şey öyrəndiyini deyir.***

Doğma kəndində pedaqoji fəaliyyətlə yanaşı, eldə-obada həm də aşıq kimi tanınıb. Uzun illər ustad aşıq Cabbar Cabbarovun rəhbərliyi altında Laçın rayon Mədəniyyət evinin "İşıqlı" aşıqlar ansamblında çıxış edib. Ustadıyla bərabər neçə-neçə dövlət tədbirində, el şənliklərində, toyda-düyündə çıxış edib, oğul evləndirib, qız köçürüb. "İşıqlı" aşıqlar ansamblında çıxış etdiyi illəri ömrünün ən yaxşı vaxtı sayır, birgə çıxış etdiyi sənətkarları minnətdarlıqla xatırlayır. Həmin ansamblın ən fəal üzvlərindən olmuş Xəlil İmranov haqqında isə danışmaqdan doymur.

***Aşıq Atlıxanın sənətdəki xidmətləri qiymətsiz qalmayıb. Hər uğurlu çıxışı özünün layiqli qiymətini alıb, dəfələrlə fəxri fərman və diplomlarla təltif olunub. 1978-ci ildə o zamankı Laçın rayon partiya komitəsinin Fəxri fərmanına layiq görülüb. 1979-cu ildə "Gənc aşıqların III Respublika baxış-müsabiqəsi"ndəki uğurlu çıxışına və ifaçılıq məharətinə görə Azərbaycan SSR Mədəniyyət nazirliyinin 2-ci dərəcəli diplomu ilə təltif olunub. Yenə 1979-cu ildə Aşıq Ələsgər adına Respublika Xalq yaradıcılığı Evinin tədbirlərində yaxından iştirak və xalq yaradıcılığını fəal təbliğ etdiyinə görə Azərbaycan SSR Mədəniyyət nazirliyinin Fəxri Fərmanına layiq görülüb.***



Ustadı aşıq Cabbar Cabbarov Atlıxan haqda həmişə ağızdolusu danışır, istər aşıq, istərsə də sazbənd kimi peşəkarlığını yüksək qiymətləndirir.

Aşıq Atlıxanın uğurlu çıxışları, keçdiyi ömür və sənət yolu haqqında respublika mətbuatında da dəfələrlə yazılıb. Repertuarında olan dastan və rəvayətlər onun dilindən yazıya alınaraq çap edilib.

Atlıxan təkcə aşıq deyil, həm də sazbənddir. Sazbəndliyə ustad yanında olmadan özü sərbəst başlayıb. Ayrıca emalatxanası olmayıb, bəzən elə yaylaqda açıq havadaca işləməli olub. Amma bu işdən usanmayıb, bezməyib. Ermənilərin əsassız torpaq iddiası nəticəsində doğma yurd-yuvasından didərgin düşəndən sonra isə sazbəndliyə olan həvəsi daha artıb və bu işlə davamlı məşğul olub.

Saz düzəldə bilsə də, bu sənətin sirlərinə mükəmməl yiyələnmək üçün tanınmış sazbəndlərə üz tutub. Sazbənd kimi yetişməsinə görə Kövrək Murada minnətdarlıq edir, eyni zamanda usta Rizvandan, Fərman Xuduoğlundan da məsləhətlər aldığını deyir. Məşhur sazbənd usta Xudunun yanında olub, ondan sənətlə bağlı qiymətli məsləhətlər almasını isə hər zaman minnətdarlıqla xatırlayır. Bu gün Laçın torpağının yetişdirdiyi kamil bir sənətkar kimi tanınan aşıq Atlıxan Alxanovun ailəsini həm də sənətkarlar ocağı adlandırmaq olar. Oğlu Rahib sənətdə özünü tanıda bilmiş ümidverici gənclərimizdəndir, Milli Konservatoriyada saz üzrə ali təhsil alır, hazırda üçüncü kurs tələbəsidir. 15 yaşlı nəvəsi Tacir də babasının sənət yolunu davam etdirmək fikrindədir. Sazda çox gözəl ifa edir. Aşıq Atlıxan da Tacirin sabahına böyük ümid bəsləyir və elə buna görə də özünün sazını və aşıq kimi başına qoyduğu papağını ona bağışlamağı qərara alıb.

**Aşıq Atlıxan bu gün ömrünün yeddinci onilliyini yaşayır. Bir sənətkar kimi görəcəyi işlər də hələ çoxdur. Ona sənətin çətin və şərəfli yollarında yeni-yeni uğurlar arzulayır və növbəti görüşümüzün Laçında, Ağbulaq kəndində olması niyyətilə bu yazını hələlik burda tamamlayırıq.**

**Musa NƏBİOĞLU**
**Azərbaycan Aşıqlar Birliyinin katibi, Əməkdar mədəniyyət işçisi**

# Musiqiyə bağlı ömür

**Kamançada ifa edir Əlibəndə Əliyev.**

**50 ildən çoxdur ki,radio dalğalarından,televiziya ekranlarından,dünya ölkələrinin mötəbər konsert salonlarından eşidilən ecazkar bir ifa milliyətindən asılı olmayaraq bütün tamaşaçı və dinləyici qəlbini ovsunlayıb.**

Deyirlər ziyalılıq kamilliyin,aqilliyin ən uca zirvəsidir.Əlbəttə,insanın ziyalı olub-olmamasını tarix və xalq müəyyənləşdirir. Sənətinə,insanlığına hörmət etdiyim musiqiçi-pedaqoq ziyalılarımızdan biri də Əlibəndə MəmmədHənifə oğlu Əliyevdir.

Sadəliyi,düzgünlüyü musiqiyə olan hədsiz marağı ona böyük hörmət qazandırıb.

Əlibəndə Əliyev kamança ifaçılığı sənətində öz dəsti-xətti olan tanınmış pedaqoqlardan biridir.

Əlibəndə MəmmədHənifə oğlu Əliyev 2 mart 1948-ci ildə Bakının Buzovna qəsəbəsində anadan olub.Hələ uşaqlıqdan musiqiyə böyük maraq göstərmiş elə bu səbəbdən də qəsəbədəki 10 saylı Uşaq musiqi məktəbinə imtahan verərək qəbul olur.

1960-1963-cü illərdə ilk müəllimi musiqiçi pedaqoq Validə Babayeva olmuşdur,1963-cü ildə orta məktəbi və musiqi məktəbinin beş illik proqramını başa vuraraq A.Zeynallı adına orta ixtisas musiqi məktəbinə daxil olur.

1967-ci ildə "kamança"ixtisası üzrə məktəbi bitirir.

1971-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Mədəni-maarif fakültəsinə daxil olur və 1976-cı ildə institutu müvəffəqiyyətlə başa vurur.

Musiqiçi kimi əmək fəaliyyətinə 1964-cü ildən başlayır.

1964-1966-cı illərdə 10 saylı musiqi məktəbində müəllim ,



1966-1975-ci illərdə 19 saylı musiqi məktəbində şöbə müdiri,

1975-1991-ci illərdə dərs hissə müdiri

1997-2004-cü illərdə 35 saylı 11 illik musiqi məktəbində şöbə müdiri vəzifəsində işləmişdir.

1967-ci ildə Moskvanın qurultaylar sarayında "Milis"in 50 illiyindəki möhtəşəm tədbirdə Daxili İşlər Nazirliyinin nəzdindəki ansamblda çıxış etmişdir.

Əlibəndə müəllim ilk dəfə Yusif Heydərovun bədii rəhbərliyi ilə "Təranə"Gənclər xalq çalğı alətləri ansamblında çıxış etmişdir.

***Respublikamızın ən tanınmış xanəndələri,müğənniləri Zeynəb Xanlarova,Sara Qədimova,Tükəzban İsmayılova,Şövkət Ələkbərova,Elmira Rəhimova,Rübabə Muradova,Hacıbaba Hüseynov,Əlibaba Məmmədov,Arif Babayev,Ağababa Novruzov,Mürşüd Abbasov,Canəli Əkbərov,Ağaxan Abdullayev,Məmmədbağır Bağırzadə,Kəmalə Rəhimli,Mətanət İsgəndərli və bir çox başqaları onun müşayiəti ilə oxumuşlar.***

1992-1993-cü illərdə Türkiyədə qastrol səfərində xalq artisti Elmira Rəhimova,əməkdar artistlər Kəmalə Rəhimli,Mətanət İsgəndərlini kamança aləti ilə müşayiət etmişdir.

1995-ci ildə Almanıyada,1999-cu ildə İranın Təbriz şəhərində,2002-ci ildə Tunis şəhərində qastrol səfərlərində çıxış etmişdir.

***1967-1975ci illərdə xalq artisti Əhməd Bakıxanovun bədii rəhbərliyi ilə xalq çalğı alətləri ansamblında,xalq artisti Əliağa Quliyevin rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblında,sonralar "Dilkəş"instrumental ansamblında çıxışlar etmişdir.Onu da qeyd edim ki,mərhum ustad sənətkarımız Məmmədbağır Bağırzadəni ilk dəfə ansambla Əlibəndə müəllim dəvət etmişdir.***

Məmmədbağır müəllim həmişə deyərdi ki,Buzovna kəndində virtioz kamança ifaçısı varsa,o da Əlibəndə Əliyevdir.

Əlibəndə müəllim hal-hazırda 4 saylı Uşaq İncəsənət Məktəbində müəllim işləyir.Musiqi sahəsində çalışan neçə-neçə tanınmış musiqiçilər Əlibəndə müəllimin yetirmələridir. Bunlardan Arif Əsədullayev,Mirnazim Əsədullayev,Zeynəb Əhədova,Arif Abdullayev,Ruhan Quliyev,Füzuli Rəhimov,Malik Əliyev və başqalarını misal göstərmək olar.

Keçən əsrdə Azərbaycanda kamançanın Hafiz Mirzəliyev,İsmayıl Talışinski,Qılman Salahov,Tələt Bakıxanov,Mütəllim Novruzov,Elman Bədəlov,Ədalət Vəzirov kimi məşhur ifaçıları olmuşdur.Bu gün Şəfiqə Eyvazova,Əlibəndə Əliyev,Fəxrəddin Dadaşov,Agacəbrayıl Abasəliyev,Arif Əsədullayev,Mirnazim Əsədullayev,Elnur Əhmədov,Elşən Mənsurov,İsmayıl Həmidov və başqaları mahir kaman ustaları kimi tanınırlar.

Əlbəttə, xalq artisti, mərhum kamança ifaçısı, ustad sənətkar Habil Əliyevin kaman ifaçılığında xüsusi yeri vardır. Bu gün kamança deyəndə ilk növbədə göz önündə Habil Əliyev,Habil Əliyev dedikdə isə kamança canlanır.

**Əlibəndə müəllimin keçdiyi ömür yoluna nəzər saldıqda onun necə mənalı və şərəfli bir yol keçdiyinin şahidi olursan. Musiqimizin təbliğindəki xidmətlərinə görə Əlibəndə Əliyev Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı tərəfindən "Ustad sənətkar"fəxri adına layiq görülüb.Bu münasibətlə qocaman kamança ifaçısı,tanınmış musiqiçi,pedaqoq Əlibəndə müəllimi təbrik edir,uzun ömür,cansağlığı,musiqimizin təbliğində ona müvəffəqiyyətlər arzulayırıq.**

**Elşad Dağlı,**
**"Cabir Novruz"Mədəniyyət Fondu mətbuat xidmətinin rəhbəri, AJB-nin üzvü**



**VAQİF YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# ÖMRÜ BU QƏDƏR QISAYDI?

**O, Şəkidə doğulmuşdu. Bakıda Neft və Kimya nstitutunu bitirdi, amma öz ixtisası üzrə işləmədi, çünki ədəbiyyat onun qanına, canına yerimişdi. Əmək fəaliyyətinə jurnalist kimi başladı, Sumqayıt radio verilişləri redaksiyasında işlədi. Respublikanın ədəbi almində tanındı, 1970-ci ildə "Bu torpaqda doğulanlar" ilk şeirlər kitabı işıq üzü gördü.1983-cü ildə Bakıdan Sumqayıta gedən mikro avtobusda qəza baş verdi, o qəzada heç kəs ölmədi, bircə ondan başqa. Həmin il, oktyabrın 29-da yaşadığı Sumqayıtda dəfn edildi. O, 1970-80-ci illərin populyar şairlərindən idi. Bu populyarlığı həm istedadı, həm də fəallığı, işgüzarlığı ilə qazanmışdı.**

### *İstedadlı şair*

***olduğunu ondan yaşlı şairlər də etiraf edirdilər. Bəxtiyar Vahabzadə, Cabir Novruz, Əli Kərim onun şeirləri haqqında ürək sözlərini söyləmiş, onu orijinal şair kimi təqdir etmişdilər. Bəs işgüzarlığı, fəallığı nədə idi? Çalışırdı ki, təkcə Azərbaycan oxucuları deyil, Rusiyada və digər ölkələrdə də onu tanısınlar və bizim poeziyanı layiqincə təmsil eləsin. Moskvada bir şeir kitabı çap olunmuşdu.***

"Oqonyok"da, "Literaturnaya qazeta"da, "Komsomolskaya pravda"da şeirləri dərc edilmişdi. Rusca çıxan şeirlər kitabına görə, Ümumittifaq Qorki mükafatına layiq görülmüşdü. Elə yetmişinci illərdə Azərbaycan komsomolu mükafatı laureatı olmuşdu. O, Moskvada və Sofiyada rus və bolqar dillərində çıxan "Drujba" jurnalının redaksiya heyətinin üzvü idi. Yaşadığı Sumqayıtda Əli Kərim adına gənclik poeziya klubu yaratmışdı. 1980-1983-cü illərdə isə Azərbaycan LKGİ MK nəzdində gənc yazarların respublika Ədəbi Birliyinə rəhbərlik etmişdi. İndi yaşları altmışı keçən şairlərin, ədiblərin cavanlığı onun poeziya klubunda keçmişdi, onlar burada şeirin sirlərini öyrənir, o vaxta qədər üzlərini görmədikləri ustad sənətkarlarla (R.Rza,S.Rüstəm, M.Dilbazi, B.Vahabzadə, N.Xəzri, N.Həsənzadə, M.Araz, H.Arif, Ə.Cəfərzadə, H.Abbaszadə və b.) görüşür, onlara heyranlıqla qulaq asırdılar.

Vaqif Bəhmənli, Akif Səməd (Allah rəhmət eləsin!), Aqil Abbas, Ağacəfər Həsənli, Mahirə Abdulla, Kəmalə Abıyeva, Paşa Qəlbinur, Akif Əhmədgil, Allahverdi Məmmədli (Allah rəhmət eləsin!), Ədalət Salman, İslam Sadıq, Məhərrəm Qasımlı, Maşallah Məftun, Məlahət Yusifqızı, Fəxri Müslüm, Tofiq Nurəli, Sədaqət Kərimova, Firudin Qurbansoy, Qiyas Həmid (min rəhmət!) sonralar etiraf edirdilər ki, bu poeziya klubu olmasaydı, biz şair kimi yetişməzdik. Onlardan biri-indi həm göz cərrahı və həm də bir şair kimi şöhrətlənən Paşa Qəlbinur yazır ki: "Biz səksənincilər onun "şinelindən" çıxmışıq. O bizi bənzərsiz olmağa səsləyirdi, şeirin əlifbasından ta ən incə sirlərinə qədər aşkarlamağa, öyrətməyə çalışırdı. Ancaq onun özü davranışlarıyla, şəxsiyyətilə, ləyaqətiylə bir məktəb idi. Baxışı, oturuşu, duruşu, abrı, həyası, təmannasız böyük zəhmətlər bahasına başa gələn fəaliyyəti bir nümunə idi". Mən də o illərdə bu poeziya klubunun bir məşğələsində qonaq kimi iştirak etmişəm. Bu poeziya



klubu iştirakçılarının şeirlərini müntəzəm olaraq qəzetlərdə, jurnallarda izləyirdim. Bir gün ona dedim ki, sən cavan şairlərin müəllimi yox, həm də ədəbi hamisisən. O məşqlərdə kimin şeiri bəyənilirdisə, məhz onun köməyilə mətbuatda çap edilirdi.

VAQİF İBRAHİM (1945-1983). Cəmi 38 il yaşadı. Elə Vaqifin ustad hesab elədiyi Əli Kərim də bu qədər yaşadı (1931-1969). Əli Kərim altmışıncı illərin ortalarında onun şeirlərinə "uğurlu yol" yazmışdı. Onun Əli Kərimə bağlılığı ustad-şagird bağlılığı id. Sonralar Xalq şairi Sabir Rüstəmxanlı yazacaqdı: "Mən onu müəyyən mənada çox istedadlı şairimiz Əli Kərimlə müqayisə etmək istərdim. Şeirlərinin sakit, amma tutumlu ifadə tərzində Əli Kərimin üslubu var idi". Baxın:

***Tale-***
***Divar saatı…***
***hər gün,***
***hər an qızılmış.***
***Ürəyim-***
***Bu saatın***
***daşı kimi asılmış.***
***Nə vaxtsa bir nöqtədə***
***Donub,***
***Qalacaq bu daş,***
***Donacaq heyrətindən:***
***Ömür bu qədər qısa,***
***Bu qədər azdır nədən?!***

Amma Vaqif İbrahim Əli Kərim yolunu davam etdirsə də, təqlidçi deyildi.

Onun özünəməxsus yolu, poetik ampulası vardı. O, Azərbaycan şeirinin yaşarı ənənələrinə bağlı idi.

"Köhnə havalar"da təzə notlar səsləndirməyi bacarırdı. Onun istənilən mövzuda yazdığı şeirlərdə bir təzəlik duyulurdu. Bu təzəlik ənənəvi ştamplardan qaçmaqla, orijinal təşbih və metaforalarla, obrazlı deyim tərzi ilə diqqəti cəlb edirdi. Vaqif deyəndə ki: "Ürəyim yol gedən qatara bənzər, Çəkir qəm yükünü, hicran yükünü"-buradakı təşbih bəlkə o qədər də təzə deyil. Amma deyəndə ki: "Buludlar bir sac kimi, Qış qovurur damlaları, qovurur topa-topa. Qar yağır yerə-qovrulmuş qarğıdalı dəni kimi lopa-lopa"- bu mənzərə bədii təxəyyüldən doğulur. Və yaxud: "Çaylar sevgi dolu bir baxış kimi, Çöllərin qəlbinə süzülüb axır". Vaqif dərk edirdi ki, şeirdə təzə fikir təzə, orijinal bədii təsvir vasitələri ilə cilalanmalıdır. Cabir Novruz yazırdı ki: "Vaqif az sözlə çox şey demək iqtidarına malikdir. Şairlik, ilk növbədə söz ilə işləməkdir. Yəni böyük Füzulinin dili ilə desək, "yoxdan var" yaratmaqdır. Şairin ən böyük silahı da, necə deyərlər, "tikinti materialı"da, döyüş meydanı da, arxalandığı da, ümidi də, inamı da, istedadı da sözdədir".

### *Bu mənada*

Vaqifin vətənpərvərlik və sevgi mövzularında yazdığı iki şeirinə müraciət etmək istəyirəm. Bütün şairlərin müraciət etdiyi vətənpərvərlik mövzusunda Vaqif hələ o dövrdə, Vətəndən gözəl şeirlər yazıldığı bir vaxtda görün, nə deyirdi:

***Ağır illər idi…***
***Hər döyüş yeri***
***Sanki başdan-başa yanası idi.***
***Çətin döyüşlərdə cəbhə xətləri***
***Vətənin kəsilmiş venası idi.***
***Biz də bu Vətənə köməyə yetdik.***
***Biz onun ehtiyat saf qanı idik,***
***Doğulduq-***
***Vurulduq damarlarına.***
***Anamız dünyanın bütün varıyla***
***onu bəsləyirik, geyindiririk.***
***Axırıq biz onun damarlarıyla,***
***Axırıq-***
***qəlbini döyündürürük…***

Və bir də bu iki misra: "Pasportda vətəndaş olmağa nə var, Əsl vətəndaşın olmaq çətindir". İnsan anadan, atadan yetim qalar, amma sevgidən də yetimlik varmış.

***Mən elə bilirdim həyatda gülüm,***
***Atadan, anadan yetim qalırlar.***
***Sevib ayrılmamış mən hardan bilim***
***Bəzən sevənlər də yetim qalırlar.***
***Bircə həsrətiymiş məni atmayan***
***Sənsiz bu dünyada ölüm-itimdir.***
***Nəfəsin dəyməyən, əlim çatmayan***
***Nəyim var bu evdə, hər şey yetimdir.***

**Vaqif İbrahimi son dəfə elə 1983-cü ildə, sentyabrda gördüm. Anası vəfat etmişdi, yaman kədərliydi. Başsağlığı verdim, kövrəldi. Amma anasının qırxı çıxmamış özü də qəzaya düşdü. Nə yaxşı ki, unudulmadı. "Qəlbim torpaqda da döyünəcəkdir" (2009), və "Mən varam" şeir kitabları (2015) çap olundu. O qəfil qəza hadisəsi olmasaydı, indi Vaqif İbrahimin 75 yaşı tamam olacaqdı. Şöhrətinin lap zirvəsinə ucalacaqdı. Heyif…**

## *10 yaşındaykən mahnı bəstələyən, Türk dünyasının 76 yaşlı "Orxan Baba"sının gizlinləri...*

**Türkiyənin məşhur müğənnisi və "Yeşil cam"ın sevilən aktyoru Orxan Gəncəbay mahnıları və rolları ilə Azərbaycan ictimaiyyətinin də diqqətində olan, sevilən simalardandı. Ağır, sanballı, oturuşunu-duruşunu, çəkisini bilən, uzun illərdi xüsusi xarizmasını saxlaya bilən Orxan Gəncəbay bu xarakterinə görə də sevilib. Maraqlıdır ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan prezident yanında 9 ayrı quruma 76 şəxsi təyin edərkən onlar arasında türkiyəli məşhur müğənni Orxan Gəncəbay da yer alıb. 2 il əvvəl 74 yaşlı ifaçı Mədəni və Sənət Siyasəti Qurumuna seçilib.**

Türk xalqının "Orxan baba" kimi tanıdığı məşhur sənətçi Orxan Gəncəbay 4 avqust 1944-cü ildə Samsunda anadan olub. Musiqiyə 6 yaşındaykən Rusiyadan konservatoriya məzunu, eyni zamanda vaxtı ilə bir opera sənətçısı və klassik qərb musiqi-



çisi olan və əslən Krım qaçqını Emin Tarakçıdan skripka və mandolin dərsləri alarak başlayıb. 10 yaşında ilk mahnısını-" Kara Kaşlı Esmerdi", " Kim Bilir Kimi Sevdi" adl əsərlərini bəstələdi. İlk professional əsəri "Ruhumda titrəyən sonsuz bir alevsin"i 14 yaşında yazdı, 16 yaşından etibarən caz və rok musiqisi ilə maraqlanmağa başladı,

Türkiyənin ilk konservatoriyası və vaxtı ilə adı "Dərülelhan" olan İstanbul Bələdiyə Konservatoriyasına girdi və 1970-ci illərdə, bu gün də məşhur olan "Batsın Bu Dünya" mahnısını ictimaiyyətə çıxardı.

Sevilən müğənnidən bir jurnalist soruşur: - Soyadınız Gəncəbaydır. Azərbaycanda Gəncə adlı qədim və böyük şəhər var. Soyadnızla bunun bir bağlılığı varmı?

**- Azərilər bizim canımızdı. Mən həvəskar tarixçiyəm. Mənim üçün Türkiyə, Azərbaycan fərqi yoxdur. Mən böyük Türküstanı tanıyıram. İrqçiliyə nifrət edirəm. Yaradan bizi yardıb, müqəddəs yaradanın yaratdığı dünya ana vətənimdir. Hal-hazırda siyasi səbəblərə görə, ayrılan türklər bir dildə 41 ləhcədə danışırlar. Soyadıma gəldikdə isə türkcədə bu "kəncə"di, mənası balacadı. Gəncəbay isə "balacabəy" deməkdi. Yəni kökümüz bir olduguna görə, kəncə - Gəncə deməkdi. Ehtimal ki, bunun Gəncə şəhəri ilə bir əlaqəsi olub"- deyib.**

Gəncəbayın ilk həyat yoldaşı Əzizə Gəncəbay 15 il fasilədən sonra-ötən il kameralara tuş gəlib.

Əzizə Orxanla 1970-ci illərdə "Beyaz kelebekler" qrupunda solistlik edərkən tanış olub və ailə qurub.

Jurnalistlərin suallarını cavablandıran müğənni xanım ikinci dəfə ailə qurduğu üçün O.Gəncəbaydan incimədiyini deyib:"Uşağımın atasıdır. Hər zaman Sevim xanıma (Orxan Gəncəbayın indiki həyat yoldaşı -red.) və Orxan bəyə hörmət etmişəm". Hələ də O.Gəncəbayla rəsmi nikahda olduğu deyilən Əzizə bunu yalan adlandırıb. Müğənni soyadını dəyişmək fikrində olmadığını da deyib:"Uşağımız var, bu haqda heç vaxt düşünməmişəm".

Qeyd edək ki, 1969-cu ildə ailə quran, qısa müddət sonra isə ayrılan Orxanla Əzizənin Altan adlı bir oğlu var.

**HAŞİYƏ:** Ötən illərdə restoranların birində səhnəyə çıxan müğənni Hülya Avşarı dinləməyə gələnlər arasında Orxan Gəncəbay da olub.

Hülya onun əyləşdiyi masaya gələrək, yanında oturub və sənətçilər zarafatlaşmağa başlayıblar. Xanım ifaçı Orxan bəyin yanağını dişləyərək, öz sevgisini bildirib.

Hülya Avşar tərəfindən, yanağı dişlənən Gəncəbayın intiqamı çox "ağır" olub. Gəncəbay buna qarşılıq olaraq, Avşarın ombasına sillə vurub.

Müğənninin hazırkı xanımı Sevim Əmrə 1944-cü il doğumludur və Türkiyədə keçirilən gözəllik yarışmasında birinci olduğu üçün tanınıb. 1982-ci ildə evlənən cütlüyün Gökhan adlı bir oğlu var.

**Yüzlərlə ödülün- mükafatın sahibi olan Orxan Baba 4 avqustda 76 yaşını qeyd etdi.**

**Əntiqə Rəşid**

# "Maestro Ceyhundan istədiyim dəstəyi almadım"

## Sahil Etibaroğlu: "Şou-biznes toy bazarıdır"

*"Heç kimə yalnız qalmağı arzulamıram. Müəyyən anlar olur ki, sakit bir yerdə sənətlə məşğul olanda insan daha çox nələrsə öyrənir. Təbii ki, tək qalanda musiqidə irəliləyiş əldə edirsən". "Ədalət" qəzetinin qonağı skripka ifaçısı Sahil Etibaroğludur.*

**-Sahil bəy, özünüz haqqında məlumat vermənizi istərdim...**

-Ağdamlıyam. Düzdür, Ağdamı görməsəm də, ürəyim hər zaman ora ilə döyünüb. Musiqiyə olan həvəsim genetika ilə bağlıdır. Əmim "Qarabağ bülbülləri"nin solisti olub, hətta "Qaçaq Nəbi" filmindəki mahnını da o ifa edib. Bilirsiniz, mədəniyyətə, incəsənətə bağlılıq Qarabağlıların qanındadır.

### *"Özümü Allaha borclu sayıram"*

**-Musiqiyə həvəsdən söz düşmüşkən nə zaman qərar verdiniz ki, mən skripka ifaçısı olacam?**

-Bu sənətə həvəsim uşaqlıqdan olub. Orta məktəbdə oxuyanda müxtəlif musiqi əsərlərini dinləyirdim. Elə oldu, dayım valideynlərimə dedi ki, Sahili skripka sənətinə yönləndirin. Ailəm bu fikirlə razılaşdı və məni musiqi məktəbinə yazdırdılar. İlk dəfə mənə skripkanı öyrədən Nemət müəllim oldu. Allah ona rəhmət eləsin. 7 il musiqi məktəbini oxudum, daha sonra isə Mədəniyyət və İncəsənət Universitetinin İnsturmental ifaçılıq fakültəsinin Skripka üzrə ifaçılıq ixtisasına daxil oldum. Mən hələ musiqi məktəbində oxuyarkən 6-7-ci sinifdə toylara getdiyim üçün Universitetdə oxuyanda toylarda ifa etmək mənə bir o qədər də çətin olmadı. İlk dəfə məni ansamblına dəvət edən Respublikanın Xalq artisti Faiq Ağayev olub. Ona dərin təşəkkürümü bildirirəm. Üzərimdə dəstəyi böyük olub. Faiq bəydən sonra Elton Hüseynəliyevlə, Xatirə İslamla, Vasif Məhərrəmli ilə çalışmağa başladım. Hazırda restoranlardan birində "Art director" vəzifəsində çalışıram, həmçinin də, Şuşa Dövlət Humanitar Kollecinin müəllimiyəm.

**-Ən çox kimdən dəstək görmüsünüz?**

-Sənətdə əldə etdiyim uğurlara görə ilk növbədə özümü Allaha borclu sayıram. Məhz onun sayəsində əziyyətimlə bu yerlərə gəlib çıxmışam. Daha sonra ailəmdən dəstək görmüşəm, o da mənəvi. Maddi dəstək heç kim tərəfindən olmayıb. Mən skripkanı ifa etməyə başlayanda Azərbaycanda daha çox Maestro Ceyhunu dinləmişəm. Onun sənətindən bəhrələnib hansısa uğurları əldə etmişəm. Düzdür, Ceyhun müəllimin mənə heç bir dəstəyi olmayıb, amma onun sənətinin vurğunu olmuşam, ifalarını dinləyib peşəkarlaşmışam.

**-Deyirlər ki, insan yalnız qalanda yaradıcılığı daha çox ortaya çıxır. Siz necə düşünürsünüz?**

-Mən heç kimə yalnız qalmağı arzulamıram. Müəyyən anlar olur ki, sakit bir yerdə sənətlə məşğul olanda insan daha çox nələrsə öyrənir. Təbii ki, tək qalanda musiqidə irəliləyiş əldə edirsən. Bu fikirlə razıyam.

### *"Şans çox böyük rol oynayır"*

**-Hər bir insanın həyatında ona peşəsini sevdirən bir müəllim olur. Bəs Sahil bəyə bu sənəti sevdirən hansı müəllim olub?**

-İlk dəfə mənə skripkanın sirlərini öyrədən müəllimin adını qeyd etdim ki, o da Nemət müəllim olub. Universitet vaxtında isə Abbasqulu müəllimdən dərs almışam. Abbasqulu



müəllim gözəl insandır, Azərbaycanda, bəlkə də, yeganə musiqiçidir ki, bütün alətlərdə ifa edə bilir. Demirəm ki, hamısında professionaldır, amma hər bir alət haqqında məlumatı var. Abbasqulu müəllimin musiqi yaradıcılığı genişdir. Sizin sualınızın cavabına qalanda isə bir az öncə dediyim kimi, müəllimim olaraq Maestro Ceyhunu görürəm, mən onun ifalarına qulaq asıb püxtələşmişəm. Ceyhun müəllimin bütün şəkillərini, qəzetdəki müsahibələrini belə yığıb saxlamışam. Yığdıqlarımı özünə göstərəndə təəccüblənmişdi. Amma mən Maestro Ceyhundan o zaman istədiyim dəstəyi almadım.

**-Bax söylədiniz ki, müəllim kimi Maestro Ceyhunu qəbul edirəm. Düşünmürsünüzmü ki, səsləndirdiyiniz fikirlər Abbasqulu müəllimin xətrinə dəyər və Nigar xanım Şabanova ilə Mələkxanım müəllimə arasında bir zamanlar özünü göstərən soyuq münasibət sizin də aranızda olar?**

-Düşünürəm ki, xətrinə dəyməz. Abbasqulu müəllim sırf skripka ifaçısı deyil, Maestro Ceyhunun isə sənəti skripkadır. Nə edək, mən də özümə onu müəllim görmüşəm. Məncə, Abbasqulu müəllim də bununla razılaşar. Universitetdə oxuduğum vaxtdan Abbasqulu müəllim bilirdi ki, mən Maestro Ceyhunu müəllim kimi qəbul edirəm.

**-Bu sənətdə şansın önəmi varmı?**

-Əlbəttə, bu sənətdə şans çox böyük rol oynayır. Elə musiqiçilər var ki, düşünürlər, gedim, müğənni ilə işləyim, pulumu alım, bəsdir. Biri də var, fikirləşir ki, mən solo ifaçı olum. Hazırda mənim özümün ansamblım var ki, "Turan" ansamblıdır. Bu sahədə yaşım az olsa da, təcrübəm var. Amma yenə də sənətdə şansın olmalıdır.

### *"Xalq gözəl bilir, kim bayağı ifaçıdır"*

**-Azərbaycanlı musiqiçilərlə birgə konsert təşkil etmək fikriniz var?**

-Ölkəmizdə gözəl musiqiçilər var ki, dostlarımızdır. Düzdür, yaradıcılığı zəif olanlar da var, amma hərə öz gücünə görə tanınır. Sizə deyim ki, restoranlarda konsertlərimiz çox olub. Amma sırf dövlət tədbirləri səviyyəsində hələ ki, olmayıb. Allah qismət eləsin, reallaşdıraq. Çalışdığımız da odur ki, hər zaman ölkəmizi yüksək şəkildə təmsil edək.

**-Maestro Ceyhunla müsahibə edəndə bayağılığı kəskin şəkildə tənqid etmişdi. Hətta vurğulamışdı ki, zəif musiqiçilər birləşib kütləni məhv etməyə çalışırlar. Siz bu barədə nə söyləyə bilərsiniz?**

-Hər bir insanın qulaq asdığı musiqi və ifaçı var. Heç kim kiməsə deyə bilməz ki, buna qulaq asma. Bayağı musiqiçinin də öz kütləsi var. Hər kəs öz ruzisini qazanır. Kiməsə deyə bilmərik ki, niyə bu mahnını oxuyursan? Onun da janrı budur. Mən pis baxmıram.

**-Sualı bir az da konkretləşdirim, hansılardır o bayağı mahnılar və kimlədir o bayağı ifaçılar ki, bu gün hər kəs ad çəkmədən onları tənqid edir?**

-Bütün insanlar yaxşı musiqiçiyə qulaq asa bilməz. Hər bir insanın sevdiyi janr və ifaçı var. Bu gün şou-biznes toy bazarıdır. Fikrimiz budur, toy olsun, pul qazanaq. Çünki hansısa bir işin ərsəyə gəlməsi üçün maddiyyat lazımdır. Razıyam, elə ifalar var ki, orada söz və musiqi bir-birini tamamlamır. Musiqidə fikir olmadısa, onu kimsə qəbul etməyəcək. Belə musiqilər çoxdur. Adlara qalanda isə yaşım imkan verməz ki, kimlərinsə adlarını çəkib deyim ki, filankəslər bayağıdırlar. Xalq özü çox gözəl bilir ki, kim bayağı ifaçıdır, kim isə deyil.

**-Çox sağ olun ki, vaxtınızı ayırıb müsahibə verdiniz.**

-Sizə, kollektivinizə uğurlar arzulayıram. Mən təşəkkür edirəm.

**Rövşən Tahir**

## "Üzərində dinə aid işləmələr var"

### *"Kasıbların taxtadan çilçırağı olar"*



**"Görəsən, niyə su çəkməyimdən danışmırlar, paylaşdığım nələrdənsə danışırlar? Nə edirsənsə, et, heç bir xeyri yoxdur. Yaxşı işdən heç kim heç nə yazmır. Paylaşdığım şəkildəki çilçıraq xanəndəyə xas olan dəf üslubunda bir çilçıraqdır ".**

Bu sözləri Adalet.az-a açıqlamasında Əməkdar artist Elnarə Abdullayeva deyib:

"Bu 5 metrlik çilçıraq olsaydı, üstündə qızıldan dəmirləri, brilliantdan da şüşələri olsaydı, deyərdim ki, reklam üçündür. Hamının evində çilçıraq var və biz, kasıbların da belə taxtadan çilçırağı olar. Bu sənət əseridir. Onu reklam üçün paylaşmamışam, sənət əsəri olduğu üçün paylaşmışam. Sənət əsərini niyə qəbul etmək istəmirlər? İdeya müəllifi Eldar Kərimovdur. Onu da deyim ki, həmin çilçırağı bizə havayı verməyiblər, pulu ilə almışıq. Mən bu çilçırağa elə-belə demirəm ki, sənət əsəridir. Onun üzərində dinə aid işləmələr var. Diqqət yetirsələr, görərlər. 12 buta imamlarımıza, üzərindəki işıq isə Allaha işarədir. Çilçıraq yuxarıdan 4 zəncirlə bağlanıb ki, bu da 4 ünsürü bildirir".

**Qeyd edək ki, Elnarə Abdullayeva "instagram" hesabında evindəki çilçırağın fotosunu paylaşaraq ona belə şərh vermişdi: "Çox möhtəşəm görünür, elə deyilmi? Kənardan evimizə baxdıqda evimizin gözəl olub-olmadığını göstərən aksesuarlardan biri də çilçıraqlardır. Onlar evimizə rəng qatır və işıqlandırır".**

**Rövşən Tahir**

## *UEFA klublarımıza pul ödədi*

**Avropa Liqasının seçmə mərhələsində çıxış edən klublar üçün UEFA tərəfindən ayrılmış müvafiq vəsait AFFA-nın vasitəçiliyi ilə klubların hesabına köçürülüb.**

Qol.az xəbər verir ki, Azərbaycan klublarından "Neftçi", "Keşlə" və "Sumqayıt" hər biri 240 min avro əldə edib.

Qeyd: "Keşlə" klubu üçün ayrılmış maliyyə vəsaiti mövsümün birinci və ikinci yarısı nəzərdə tutulmaqla klubun cari xərclərinin ödənilməsinə yönəldiləcək.

Quba rayon XDS İcraiyyə komitəsinin 54 №-li 31 avqust 1997-ci il tarixli qərarı əsasında vətəndaş Qarayeva Gülşən Cabur qızının adına Reyestr kitabında 1237 nömrə ilə qeydə alınmış yaşayış evinin Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Lənkəran rayonu Biləsər kənd sakini Baxşıyeva Aygün Azad qızına 18 iyul 1998-ci il tarixli 11 saylı qərarı ilə verilmiş torpağın mülkiyyət hüququna dair dövlət aktı (JN-340 kod 80208018) itdiyi üçün etibarsız sayılsın.

***

Quba rayonu Aqrar İslahat Komissiyasının 1999-cu il 23 mart tarixli 07 saylı qərarı ilə Quba rayonu I Nügədi kənd sakini Qurbanov Babaşah Kərimulla oğlunun adına verilmiş Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair JN-1470 Kod 30319018 Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Astara rayonu Dövlət Texniki İnventorlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyat İdarəsi tərəfindən Astara şəhər sakini Quliyeva (Bağırova) Nadejda Leonidovnaya 25 sentyabr 1997-ci il tarixli 49 saylı qərarla verilmiş Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılsın.


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 25
Çapa imzalanmışdır: 04.09.2020